# MƏKKEYİ-MÜKƏRRƏMƏ, MƏDİNEYİ-MÜNƏVVƏRƏ VƏ HƏCC ZİYARƏTİ

***BİSMİLLAHİR-RƏHMANİR-RƏHİM***

## *MÜQƏDDİMƏ*

İnsana Allah-Taala tərəfindən bütün ömrü boyu yalnız bir dəfə vacib sayılan mübarək həcc səfəri mənəvi və ilahi bir səfərdir. Əziyyətlərlə dolu olan bu səfərdə istirahət çox az və hətta qeyri-mümkün olsa da, insan heç vaxt onun şirinliyindən və ləzzətindən doymur.

Həcc–ilahi bir əmanət və İslamın əsaslarından biridir. Bir rəvayətdə oxuyuruq: İmam Baqir (əleyhissalam) buyurur: "İslam beş möhkəm və əsas sütun üzərində qərar tutmuşdur: namaz, zəkat, həcc, oruc və vilayət."

Həcc əgər bütün şərtlərə əməl etməklə mükəmməl surətdə həyata keçirilsə, təkəbbür və riyadan xali olsa, insanı elə paklaşdırar ki, rəvayətdə deyildiyi kimi, sanki təzəcə anadan olmuşdur.Buna görədir ki, Tanrı onu insan üçün bütün ömrü boyu yalnız bir dəfə vacib saymışdır, çünki insanın pak olması üçün bir dəfə həccə getmək kifayət edir.

Həcc İslamda o qədər mühüm və əsasdır ki, Tanrının kitabı olan Qurani Kərimdə onun barəsində xüsusi qeyd olunmuşdur. Onlardan bir neçəsinə işarə edirəm:

1. **"Bütün insanlar üçün tikilmiş ilk ev Məkkədə olan evdir və o, bərəkət mayası və insanları doğru yola yönəldəndir."** ("Ali-imran" surəsi, 96)

Bu şərif ayədə, bu müqəddəs məbədin qədimliyi göstərilmişdir: dünyada qədimlikdə heç bir ev və ya məbəd ona çata bilməz; eləcə də insanlara doğru yol göstərməkdə müqəddəs məkan kimi izah edilmişdir. Müqəddəslik təbiri isə daimi və ümumi xeyir olan yerdə işlənmişdir. Belə ki, bu xüsusiyyət Quranın özünə də aid edilmişdir.

2–O evdə aydın nişanələr vardır: İbrahim məqamına daxil olan hər kəs aman tapacaqdır.

3–Həcc, imkanı olan şəxslərin öhdəsinə düşür: onlar Allah xatirinə o evi ziyarət etməlidirlər.

Həccin şərafətli və mühüm olmasının dəlillərindən biri də onun dinin böyükləri tərəfindən tövsiyə və vəsiyyət edilməsidir. Həzrət Əli (əleyhissalam)-a, Kufə məscidində ilahi borcunu yerinə yetirdiyi, ibadət mehrabında sübh namazı qıldığı zaman, yer üzünün ən alçaq adamlarının biri tərəfindən sui-qəsd edildi və iki gün yataqda yatdıqdan sonra ilahi dərgaha qovuşdu. Ömrünün axırına kimi əziz övladları iki böyük İmam, yəni Həsən (əleyhissalam) və Hüseyn (əleyhissalam) başına yığışdıqda, o həzrət onlara xitabən öz vəsiyyətlərini elədi: Həmin tarixi cümlələrdən biri həcc barəsində idi: o Həzrət buyurdu: **"Pərvərdigarınızın evi (Məkkə) üçün Allahdan qorxun, Allahdan qorxun və nə qədər ki, sağsınız, onu boş qoymayın; əgər o, sahibsiz**

**buraxılsa, daha sizə möhlət verilməyəcək, yəni İlahi əzab sizin yaxanızdan yapışacaqdır.”**

Həccin mühüm məsələləri və mübarək həcc səfəri ilə bağlı bütün məqamların bu kiçik müqəddiməyə sığışmayacağını nəzərə alaraq, yalnız iki məsələni çox müxtəsər şəkildə qeyd etməklə kifayətlənirəm. Bu da həcc fərizəsinin iki cəhəti ilə əlaqədardır: Həcc məsələsi iki baxımdan tədqiq edilə bilər:

**1. Fərdi nöqteyi-nəzərdən: Həcc dinin buyuruqlarından, rüknlərindən və yüksək ibadətdən ibarətdir.**

Hədislərdə onun üçün böyük savab qeyd olunmuşdur. Nümunə olaraq bir neçə məqama işarə edirəm: Hacı, Allahın qonağıdır. Həzrət Əli (əleyhissalam) buyurur: **“Həcc səfərinə başlayan hər kəs Allahın qonaqlıq məclisinə daxil olur və qonağa kəramət və ehtiram göstərmək Allahın Öz haqqıdır.”**

**2. Həcc təkəbbürün sınmasına səbəb olur.**

İmam Sadiq (əleyhissalam) buyurur: “Yer üzünün heç bir nöqtəsi Uca Tanrının nəzərində hacıların ziyarət etdiyi yer qədər sevimli və əziz deyildir, çünki, orada təkəbbürlü adamlar zəlil olur, Allah qarşısında itaətdə dururlar.”

**3. Həcc səfəri təqva və Allahın zikri ilə əkizdir.**

İmam Sadiq (əleyhissalam) buyurmuşdur: “Ehrama daxil olduğun zaman sənin üzərinə ilahi təqva yelləri əsər, Allahın zikrini çox edərsən, az danışıb, az söhbət edərsən. Yalnız xeyir və Allah yolu barədə danışarsan.” Çünki həccin kamilliyi bundadır ki, insan bu səfər zamanı öz dilinin tam sahibi olur. Yalnız xeyir işlər, ibadət barədə danışır. Ehram halında Məscidül-Həramda, Ərəfatda, Minada, Məşərdə edilən fərdi ibadətlər və Məkkə torpağına edilən səcdə, saleh insanların ən yaxşı ibadətlərindən və əməllərindən hesab olunur. Bu cür ibadətlər insanın kamilləşməsində çox təsirli və faydalı sayılır.

İkinci: İctimai nöqteyi-nəzərdən: İnsan həccin ictimai sirlərinə və meyarlarına diqqət yetirər. Həcc ümumİslam birliyinin yaranmasında və müsəlmanların izzətinin nümayiş etdirilməsində əsas rol oynayır. Müsəlmanlar arasında qardaşlıq və birlik yaratmaq işində heç bir təşkilat və dövlət dünya müsəlmanlarının illik toplantısı olan, onların qibləsi yanında icra edilən həcc səfəri qədər təsir buraxa bilməz. Bu mühüm mərasim müsəlmanlar üçün o qədər lazım və böyük təsirə malikdir ki, dinin böyük şəxsiyyətləri bu barədə müsəlmanlar üçün müxtəlif ibarətlərlə tövsiyələr etmişlər.

Həzrət Əli (əleyhissalam) “Nəhcül-bəlağə”də buyurur: “Nə qədər ki, Kəbə müsəlmanların ziyarətgahıdır və müsəlmanlar onu yaşadır, onun yanında bir-birinə qardaşlıq əlini uzadırlar, İslam dini yaşayacaq, möhkəmlənəcəkdir, müsəlmanlar əziz və məğrur olacaqlar.”

Ümidvaram ki, Allah-Taala Kəbəni ziyarət etməyi və həcc səfərinin feyzindən bəhrələnməyi bütün müsəlmanlara nəsib edəcəkdir.

Bəli, kommunist rejiminin süquta uğramasından və Azərbaycan Respublikası müstəqillik əldə etdikdən bir neçə il sonra Allaha şükür olsun ki, vəziyyət yaxşılaşmış, Azərbaycan hacılarının müstəqil surətdə həcc ziyarətinə getmələrinə imkan yaranmışdır.

İran İslam Respublikasının Azərbaycandakı Mədəniyyət Mərkəzi Həccin hökmləri və fəlsəfəsinə aid məsələləri əhatə edən 7 fəsildən ibarət bir kitab hazırlayıb möhtərəm hacıların istifadəsinə verməyi lazım bildi. Ümid edirəm ki, bu kitab həcc səfərinə gedənlər və bu arzu ilə yaşayanlar üçün faydalı olacaqdır.

Sözümün sonunda bu kitabçanın hazırlanmasında böyük zəhmətlərə qatlaşmış cənab Höccətül-İslam vəl-müslimin Əbdürrəhman Yusifpura öz səmimi təşəkkürümü və minnətdarlığımı bildirirəm.

**SEYYİD ƏLİ ƏKBƏR OCAQNƏJAD**
**20.11.1375 HİCRİ-ŞƏMSİ**
**8.02.1997 MİLADİ**

## GİRİŞ

## BİSMİLLAHİR-RƏHMANİR-RƏHİM

Hər il yüz minlərlə müsəlman öz şəhər və diyarlarından Allahın müqəddəs evi Kəbəni ziyarət məqsədi ilə, Hicaz səmtinə hərəkət edir ki, günahlardan təmizləyəcək bir ibadəti yerinə yetirsinlər. Məkkeyi-mükərrəməyə yola düşüb, həcc mərasimini xalis qəlb, sağlam əqidə, eləcə də həcc əməllərini doğru-dürüst yerinə yetirən bir çox zəvvarların ziyarəti Allah dərgahında qəbul olunaraq, böyük bir şərəfə-"hacı" adına nail olurlar. Lakin çox təəssüflər olsun ki, elə zəvvarlara da rast gəlmək olur ki, öz keçmiş pis əməllərindən peşman olub tövbə etmədən, qəflət yuxusundan ayıl-madan öz diyarlarına qayıdırlar. Möhtərəm zəvvarlar, həcc arzusunda olan dindar bacı-qardaşlar! Sizin Məkkə ziyarəti əsnasında üzləşə biləcəyiniz çətinlikləri aradan qaldırmaq, həcc əmalını doğru-dürüst yerinə yetirməniz üçün, vadiyi-ibadətdə etdiyiniz zikr və duaları və onların mənasını bəyan edəcək bu kitabı Allahın izni ilə sizin istifadənizə veririk. Tofiqü-inayət Həqq və Mütəal Allahdandır!

# BİRİNCİ FƏSİL

## HƏCC SƏFƏRİNİN QAYDALARI

Allah-Taala Öz Müqəddəs Evi Kəbə və onun fəziləti haqqında Qurani-şərifdə belə buyurur: *"Həqiqətən, insanlar üçün ibadətdən ötrü qurulan ilk ev Məkkədədir, aləmlərə mübarək və doğru yol göstərən Kəbədir."* ("Ali-İmran" surəsi, ayə 96.)

## 1. SƏFƏR HAQQINDA

Səyahətə çıxan, yaxud səfər niyyətində olan hər hansı bir şəxs üçün Qurani-kərimdə dəfələrlə tövsiyə olunur:

*"Aya, məgər gəzib dolaşmazlar yer üzünü ki, görsünlər onlardan əvvəlkilərin aqibəti necə olmuşdu?"* ("Ğafir" surəsi, ayə 21)

Səfər haqqında Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) və onun pak və məsum Əhli-beytindən 500-dən artıq hədis varid olmuşdur.

**Səfər bir neçə məqsədlə ola bilər:**

1. İqtisadiyyat baxımından, ticarət nöqteyi-nəzərincə;

2. Mədəniyyət baxımından-başqa millətlərin adət-ənənələrini və mədəniyyətlərini öyrənmək məqsədi ilə;

3. Ziyarət baxımından-ruhən kamilləşmək, mənəviyyatını təmizləmək və zənginləşdirmək üçün;

4. Xəstəliyi və yorğunluğu dəf etmək üçün istirahət və müalicə baxımından ola bilər.

Çalışmaqdan və zəhmətdən yorğun düşən insanlar öz yorğunluqlarını dəf edib, yeni bir əhval-ruhiyyə ilə təzədən faydalı əməyə başlamaq üçün təbiətin qoynunda, gözəl bir guşəsində istirahət etməyə həmişə ehtiyac duyur.

Peyğəmbəri Əkrəm, Nəbiyyi-Möhtərəm (səlləllahu əleyhi və alihi və səlləm) buyurur: “Səfərə çıxın, ta ki, sağlam olasınız.”

## 2. TÖVBƏ HAQQINDA

Həcc ilahi və mənəvi bir səfərdir. Həcc ziyarəti niyyətində olan kəs, gərəkdir ki, səfərə çıxmazdan əvvəl etdiyi günahlardan təmizlənsin, Allahın vadiyi-ibadətinə qədəm qoymağa tam hazır olsun deyə, qəlbindəki qara günah ləkəsini tövbə suyu ilə yuyub təmizləsin.

İmam Cəfər Sadiq (əleyhissalam) buyurub: “O zaman ki, Həcc ziyarəti qəsdində oldun, tövbə suyu ilə günahlarını yu.”

Həqiqi tövbəkar bir neçə mərhələdən keçir: əvvəl öz əməllərindən peşman olur, sonra günah işləri tərk edir, bir daha günaha mürtəkib olmaqdan çəkinir və əvvəllər etdiyi günahlardan özünü islah edir.

Əgər başqalarından mal alıbsa, sahibinə qaytarır. Sahibini tapmaq mümkün olmadıqda, onu tanıdığı bir müctəhidə həvalə edir.

Əgər kiminsə haqqında məsuliyyətsizlik, səhlənkarlıq edib, onun həya-abrını töküb, qeybətini edib, qəlbinə dəyib və yaxud kiməsə bu və ya digər şəkildə bir zərər vurubsa, lazımdır ki, səfərə çıxmazdan əvvəl həmin kəsdən halallıq alsın. Əgər o şəxsi tapıb həmin ərəfədə onunla halallaşa bilmirsə, onda gərək o şəxs Allaha pənah aparsın, Ondan məğfirət diləsin və haqqını zay etdiyi kimsənin haqqında dua etsin.

Nəhayət, ziyarət qəsdində olan hər hansı bir şəxs namaz qılmırsa, həqiqi tövbəkarlardan sayılsın deyə, gərəkdir ki, namaz qılsın, oruc tutsun və sair ibadətləri əmələ gətirsin.

## 3. VƏSİYYƏT ETMƏK HAQQINDA

Vəsiyyət bir növ uzağı görmək və gələcəyi düşünməkdir.

İslam Peyğəmbəri (səlləllahu əleyhi və alihi və səlləm) bu barədə buyurur: "Hər kəs vəsiyyət etmədən ölüb dünyadan getsə, cahiliyyət dövründə ölən insanlar kimi olar."

Vəsiyyət etmək insanın ürəyini rahat edər, ömrünü uzadar.

Əgər bir şəxsin öhdəsində əmanət olsa və o, əmanəti sahibinə çatdırmadan ziyarətə gedərsə, əlbəttə, onun ziyarəti təkmil olmaz. Həcc əməlında Allah yanında ən mühüm əmrlərdən biri də əmanət barəsindədir.

## 4. NİYYƏT ETMƏK HAQQINDA

Rəsuli Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) buyurub: "Hər bir əməl niyyət əsasında olmalıdır."

İmam Cəfər Sadiq (əleyhissalam) buyurub: "Həcc iki cürdür: biri Allah rizasına-axirətdən ötrü, digəri isə, xalq üçün, dünya işlərindən ötrü."

Hər kəs Allaha xatir həcc ziyarətinə getsə, son məqamda mükafatı behişt olacaqdır və hər kəs xalq üçün riyakarcasına "həcc"ə getsə, Qiyamətdə onun aqibəti xalqın öhdəsində olacaqdır.

## 5. YOL TƏDARÜKÜ HAQQINDA

Həcc ziyarəti qəsdində olan hər bir kəsin yol tədarükü halal maldan olmalıdır. Yəni, özü ilə götürdüyü pul halal qazancından, səfər müddətində lazım ola biləcək əşyalar isə öz halal malından olmalıdır.

İslam Peyğəmbəri (səlləllahu əleyhi və alihi və səlləm) buyurub: "Haram mal ilə həccə gedən şəxs, "ləbbeyk"-deyə səsləndiyi zaman Allahdan ona cavab bu olacaq ki: "Məni çağırma!"

Yeddinci imamımız həzrət Museyi-Kazim (əleyhissalam) buyurub: "Biz ömür boyu 3 şey üçün–əyalın mehriyyəsi, dəfn-kəfənin xərci və həcc səfəri üçün lazımi məbləği, malımızın ən pak və halal hissəsindən ayırırıq."

## 6. MÜNASİB VAXT SEÇMƏK

Cümə axşamı və ya şənbə günü münasib vaxtdır.

## 7. QÜSL ETMƏK

Müstəhəbdir ki, müsafir qabaqcadan qüsl edib, sonra səfərə çıxsın və qüslün niyyətini də müəyyənləşdirsin (tövbə, hacət, ziyarət, namaz, dua və s. üçün)

## 8. SƏDƏQƏ VERMƏK

Səfərə çıxmazdan əvvəl, səfərə gedib-qayıtdığı müddətdə özü və ailəsi salamat olsun deyə, fəqir-füqəraya sədəqə versin.

## 9. DUA ETMƏK

"Ayətəl-kürsü" ayəsini, "Tovhid", "Nas", "Fələq" surələrini oxumaq və iki rükət namaz qılıb namazdan sonra bu duanı zikr etmək: "Allahummə inni uiyzu bikə nəfsi və mali və əhli." Mənası: "İlahi, əhli-əyalımı, malımı və özümü Sənə tapşırıram."

## 10. XƏBƏRSİZ SƏFƏRƏ GETMƏMƏK

Yəni heç bir şəxs qohum-qardaşı, əhli-əyalı, qonşu və s. ətrafdakılarına xəbərdarlıq etmədən səfərə çıxmasın.

İslam Peyğəmbəri (səlləllahu əleyhi və alihi və səlləm) buyurub: "Hər bir müsəlmanın boynuna haqq gəlir ki, səfərə çıxmazdan əvvəl öz din qardaşlarını xəbərdar etsin və onlara da lazımdır ki, səfərdən qayıdan vaxt onu qarşılasınlar."

## 11. MÜSAFİRİ YOLA SALMAQ

Yaxın adamların, din qardaşlarının da vəzifələri odur ki, bir müsəlman səfərə çıxarkən onu yola salsınlar.

Əbazəri sürgünə aparan zaman Həzrət Əli, İmam Həsən, İmam Hüseyn (əleyhimussalam), Əqil, Abdullah ibni Cəfər və Əmmar Yasir onu yola salırdılar.

## 12. PULU VƏ MALI QORUMAQ

Hər bir müsafirə lazımdır ki, qərib bir diyarda çətinliyə düşməsin deyə, səfər əsnasında pullarından və mallarından muğayat olsun, onları itirməsin və yaxud əldən verməsin.

İmam Mühəmməd Baqir (əleyhissalam) buyurub: “Müsafirlərin öz pul və mallarını qoruyub saxlamaqları, özlərinin səy və bacarıqlarından asılıdır.”

### 13. SƏFƏR LƏVAZİMATLARINI ÖZÜ İLƏ GÖTÜRMƏK

Səfər müddətində lazım olan vəsaitləri özü ilə götürməyi heç bir müsafir unutmamalıdır.

İslam Peyğəmbəri (səlləllahu əleyhi və alihi və səlləm) hər dəfə səfərə çıxarkən lazımi şeyləri özü ilə götürərdi.

Müsafirə lazım olan əşyalar, əsasən, bunlardır: münasib paltar, daraq, cib dəsmalı, diş fırçası, dərmanlar və s.

### 14. TƏMİZ VƏ SƏLİQƏLİ GEYİNMƏK

Həzrət Əli (əleyhissalam) buyurub: “Açıq rəngdə və səliqəli geyim insanı qəm-qüssədən uzaq edir.”

### 15. YEMƏKDƏN ƏVVƏL ƏLLƏRİ YUMAQ

Zəvvarlar səfərdə olduqları vaxtda bir çox xəstəliklərə tutulmasınlar deyə, yeməkdən qabaq əllərini su və sabunla yumağı unutmamalıdırlar.

### 16. HACILARA XİDMƏT

Həcc ziyarətində olan hər bir kəsin müsəlmançılıq borcudur ki hacılara, yol yoldaşlarına gömək etsin.

İslam Peyğəmbəri (səlləllahu əleyhi və alihi və səlləm) buyurur: “Əgər bir kimsə mömin müsafirə kömək etsə, Allah-Taala onun 73 çətinliyini həll edər.”

Digər bir şərif hədisdə həzrət buyurur: “Millətin ağsaqqalı (böyüyü), səfər zamanı onlara xidmət göstərən kəsdir.”

### 17. HƏMSƏFƏRLƏRİN XEYİRXAHLIĞI VƏ QAYĞIKEŞLİYİ

Əban ibni Təğlib rəvayət edir: “İmam Sadiq (əleyhissalam)-la birlikdə Kəbəni təvaf edirdik, bu vaxt bizim əshablarımızdan bir nəfər mənə yaxınlaşıb xahiş etdi ki, bir işi yerinə yetirmək üçün ona kömək edim. Mən istəmədim ki, İmam Sadiq (əleyhissalam)-dan ayrılım təvafı yarımçıq qoyub ona kömək edəm. İmam (əleyhissalam) da o şəxsə işarə edərək mənə buyurdu: “Əban, bu

kişi səni köməyə çağırır?” Mən cavab verdim: “Bəli!” İmam buyurdu: “Get gör nə istəyir?” “Təvafı qət edim?” deyə soruşduqda, İmam buyurdu: “Bəli.”

## 18. ALLAHA İBADƏT

Məkkeyi-mükərrəmə və Mədineyi-münəvvərə yer üzündə Allaha ibadət etmək üçün ən gözəl və şərafətli yerdir. Belə ki, hətta orada yol getmək belə ibadət sayılır, təam yemək oruc tutmaq savabını verir. Belə olan surətdə gərəkdir ki, hacılar öz mənəviyyatlarından qafil olub dünya nemətlərinə uymasınlar.

## 19. NAMAZI VAXTINDA VƏ CAMAATLA BİRLİKDƏ MƏSCİDDƏ QILMAQ

Ey Həqq aşiqləri! Məscidün-Nəbidə bir rükət namaz qılmaq, on min rükət namazın, Məscidül-Həramda isə, bir rükət yüz min rükət namazın savabını verir.

İmam Sadiq (əleyhissalam) buyurur: “Məsciddə namaz qılmağı özünüzə borc bilin.”

O Həzrət yenə buyurur: “Təkcə özünüz yox, yaxşı olar ki, din qardaşlarınızla birlikdə məsciddə hazır olasınız.”

## 20. ÜZÜ QİBLƏYƏ OTURMAQ

Oturmaq lazım gəldikdə, mümkün qədər çalışmaq lazımdır ki, üzü qibləyə oturasınız. Elə hallar olur ki Məscidül-Həramda hacılar arxaları Kəbəyə tərəf oturub öz yoldaşları ilə söhbət edirlər. Bu əməl nəinki, təqdirə layiq deyil, həm də onlar bu hərəkətləri ilə özlərini Kəbə savabından məhrum edirlər.

İmam Sadiq (əleyhissalam)-dan rəvayətdir ki, Peyğəmbəri Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) çox zaman üzü qibləyə oturardı.

## 21. İSLAM ƏXLAQINA RİAYƏT ETMƏK

Zəvvarlara lazımdır ki, digər müsəlman qardaşları ilə ünsiyyətdə olduqları vaxt İslam əxlaqına riayət etməklə onlara qarşı nəzakətli və bir-birləri ilə mehriban olsunlar.

## 22. HƏMSƏFƏRLƏRİNƏ EHTİRAM GÖSTƏRMƏK

İmam Sadiq (əleyhissalam) buyurub: “Bir müsəlman ağsaqqala ehtiram göstərmək, Allaha ehtiram göstərmək kimidir.”

## 23. ŞİƏLƏRİN CƏZBEDİCİ XÜSUSİYYƏTLƏRİ

Hişam nəql edir ki, İmam Sadiq (əleyhissalam)-dan eşitmişəm, buyurardı: “Məbada elə bir iş görəsiniz ki, bizi qeyrilərinin yanında başıaşağı edəsiniz, necə ki, pis övlad atasını bədnam edər. Əlaqəniz olduğu kəslərə hüsn-rəğbətlə yanaşın və lazım gəldikdə onlarla bərabər namaz qılın.”

Müsəlman qardaşlarla xoşrəftar olmaq onlarda şiələrə qarşı hüsn-rəğbəti artırar.

İmam Sadiq (əleyhissalam) buyurur: “Sizlərdən hər biriniz öz dinində təqvaya riayət edib, vicdanı təmiz və insanlarla münasibətində xoşxasiyyət olsa, deyərlər ki, “bu Cəfəri”dir (yəni deyərlər ki, bu Cəfəri məktəbinin tərbiyəsidir). Eyni zamanda, biz də bu işdən xoşhal olarıq.”

## 24. HƏDİYYƏ ALMAQ

Səfərdə olan şəxsin evə qayıdarkən öz əhli-əyalı üçün hədiyyə alıb gətirməsi yaxşı haldır.

İmam Sadiq (əleyhissalam) buyurur: “Çalışın, imkanınız daxilində öz yoldaşlarınız və oğul-uşağınız üçün hədiyyə alıb gətirəsiniz, çünki hədiyyə kin-küdurəti aradan aparır və bu məqsədlə bir dirhəm xərcləmək, min dirhəmin savabını verir.”

## 25. TƏŞƏKKÜR VƏ ÜZÜRXAHLIQ

Səfərin axırında, səfərdə olduğunuz müddətdə rahatlığınız üçün hər cür şərait və imkan yaradanlara təşəkkür edin və sizdən incimiş şəxslərdən də üzrxahlıq edin.

## 26. HƏCCİN ŞƏRAFƏTİNİ QORUMAQ

Həcc ziyarəti, hacılar üçün şərafət, ərməğan yeridir. Nə qədər ki, o şəxs günah iş görməyib, o nur həmin şəxsin çöhrəsində cilvələnir.

Allahın Rəsulu (səlləllahu əleyhi və alihi və səlləm) buyurur: “Həccin qəbul olunması nişanələri, günahları tərk etməkdir.”

Yenə Həzrət buyurur: “Əgər bəndə Allah-Taalaya itaət edib, sonra yenə itaət etməyə davam edirsə, deməli, itaəti qəbuldur və itaətdən sonra günah iş görmüş olsa, o deməkdir ki, itaəti qəbul olmayıb. Lakin məsiyətdən (günahdan) sonra itaət etməyin dəlili Allahın yanında elədiyi günahların bağışlanmasıdır. Günahdan sonra yenə günah iş görməyi bəndənin zəlil olmağının nişanəsidir.”

## 27. HACILAR ZİYARƏTDƏN QAYIDARKƏN ONLARI QARŞILAMAQ

İmam Sadiq (əleyhissalam) buyurur: “Bir şəxs əgər ziyarətdən təzə gəlmiş hacının pişvazına çıxıb onunla görüşsə və onu təbrik etsə sanki, o şəxs, “Həcərül-Əsvəd” daşına əlini sürtmüşdür.”

Həzrət Əli (əleyhissalam) buyurur: “Din qardaşınız Məkkə ziyarətindən qayıdırkən onun iki gözünün arasından və ağzından öpün, hesab edin ki, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) öpən Həcərül-əsvəd daşını, Allah evinə nəzər yetirən gözləri və Rəsuli Xudanın səcdəgahına sürtünən üzləri öpürsünüz.”

Necə ki, Cəfər ibni Əbi Talib Həbəşəyə hicrət etdi, geri qayıtdığı vaxt Peyğəmbər Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) onu qarşıladı,gözlərindən öpdü və sevindiyindən özünü saxlaya bilməyib, ağladı.

## 28. HƏCC ZİYARƏTİNDƏN QAYIDARKƏN ZİYAFƏT VERMƏK

İmam Kazim (əleyhissalam) buyurur: “Ziyafət (qonaqlıq) vermək beş əlamətdar hadisə vaxtı müstəhəbdir:

1. Gəlin köçürəndə; 2. Övlad dünyaya gələndə; 3. Oğlunu sünnət edəndə; 4. Ev alanda (təzə evə köçəndə); 5. Həcc ziyarətindən gələndə.

## İKİNCİ FƏSİL

## MƏKKƏ İSLAMİYYƏTDƏN ƏVVƏL

### ƏRƏBİSTAN

Ərəbistan Asiyanın cənubi-qərbində yerləşir. Sahəsi 3 milyon $km^2$-dir. Şimal tərəfdən-İordoniya, Küveyt, İraq, Şam və Fələstinlə, cənubdan Yəmənlə, şərqdən "Fars" körfəzi və qərbdən "Qırmızı dəniz"lə əhatə olunub.

Qədim dövrlərdə adı Ərəbistan yarımadası, sonralar "Hicaz" və nəhayət, Ərəbistan adı ilə mərufdur.

**Cəddə.** Bu adın qoyulmağına səbəb ulu nənəmiz Həvvanın (əleyha salam) bu şəhərdə dəfn olunmasıdır. Çünki ərəblər öz ulu nənələrinə "cəddə" deyərlər. Buna görə bu şəhərin adını "Cəddə" qoyublar.

### MƏKKƏ VƏ MƏDİNƏ

Hər iki "Hərəm" təbii quruluşu, coğrafi baxımdan Ərəbistan yarımadasında yerləşir. Din və tarixi əlaqələri çox güclü olduğundan müsəlmanlar bu iki müqəddəs məkanı bir-birindən ayrı hesab etmir, hər ikisini özlərinə doğma sayırlar.

### İBRAHİM, İSMAİL VƏ MƏKKƏNİN QISA TARİXİ

Həzrət İsmail 120 il ömür sürdü. 16 yaşında ikən atası ilə birlikdə Kəbəni bina etməyə başladılar.

Hərçənd ki, Kəbəni ilk dəfə bina edən Həzrət Adəm (əleyhissalam) idi, amma İbrahim (əleyhissalam) öz oğlu ilə onu təzədən tikdi. Kəbənin tarixi yer üzündə bəşəriyyətin tarixi ilə bir vaxta təsadüf edir.

Həzrət İsmailin məxsus olduğu qəbilənin adı "Cərhum" idi. Bu qəbilənin camaatı "Hübəl" adında bir büt düzəldib Kəbəyə qoymuşdular və ona sitayiş edirdilər. Zaman ötdükcə bu bütlərin sayı artmış, İslamiyyətədək sayı 360-a çatmışdı.

Sonralar "Xüzaə" qəbiləsi Məkkədə hakimiyyəti ələ keçirdi. Bir müddətdən sonra, "Qüreyş" qəbiləsi onları Məkkədən çıxarda bildi. Qusəy ibni Kilab "Xüzaə" qəbiləsi başçısının kürəkəni idi. Məkkənin abadlığına çox çalışırdı. O,

“Darun-nədvə”-ni tikdi. Bura müşavirəyə yığışmaq, iş bölgüsü aparmaq üçün nəzərdə tutulmuşdu.

Qusəydən sonra onun övladları Əbdi Mənaf (Haşim) və Əbdül Müttəlibin nüfuzu Məkkədə artdı. Məkkə böyük bir ticarət mərkəzinə çevrildi. Ərəb qəbilələri buraya ticarət və ziyarət üçün axışıb gəlirdilər. Məkkədə bu vəziyyət başqa şəhərlərin zalım hökmdarlarına heç də sərfəli deyildi. Onlardan biri olan Əbrəhə Yəməndə hakimiyyət başına gəldiyi vaxt (özü xaçpərəst idi) xristianlığı burada genişləndirmək istədi. Bunun üçün də o, ərəbləri Kəbədən çıxardıb kilsələrə tərəf qovurdu. Bununla kifayətlənməyib Kəbəni dağıtmaq üçün ora həmlə etdi. Bu hadisə İslam Peyğəmbəri Həzrət Məhəmməd (səlləllahu əleyhi və alihi və səlləm)-in təvəllüd ilinə, (məşhur “Fil” ilinə) təsadüf edir. O ildə düşmənlər Allahın qüdrəti ilə əzaba düçar oldular.

## İSLAM PEYĞƏMBƏRİNİN (səlləllahu əleyhi və alihi və səlləm) ƏCDADI

Həzrət İbrahim (əleyhissalam) və Həzrət İsmail (əleyhissalam) İslam Peyğəmbəri Məhəmməd (səlləllahu əleyhi və alihi və səlləm)-in əcdadı olmuşlar. Bu iki peyğəmbərin tarixi İslam tarixinin bir həlqəsi olduğuna görə onlar haqqında müxtəsər məlumat veririk.

## TOVHİD QƏHRƏMANI–İBRAHİM (əleyhissalam)

Həzrət İbrahim (əleyhissalam) elə bir mühitdə dünyaya göz açmışdı ki, burada xalq bütə sitayiş edirdi. O, bütpərəstliyə qarşı üsyan etdi və bunun nəticəsində Babildən Fələstinə sürgün edildi.

“Əmaliqə” milləti onu yaxşı qarşıladı və Hacəri də ona bir hədiyyə etdi. Hacər və İbrahim (əleyhissalam)-dan dünyaya İsmail (əleyhissalam) göz açdı. İbrahim (əleyhissalam)-a Allah tərəfindən əmr olundu ki, Hacəri və oğlu İsmaili Məkkədə bir dağın ətəyində qoysun. Bura yaşayış üçün münasib olmayan bir yer idi. İbrahim (əleyhissalam) oranı tərk edəndə Hacər soruşdu ki, bizi kimə tapşırırsan? Həzrət İbrahim buyurdu ki, bu işlərin hamısı Allahın əmriylədir. Ondan ümidinizi üzməyin.

Sonra ağlaya-ağlaya üzünü səmaya tutub belə dua etdi: *“Ey Allah, bu yeri sülh və əmin-amanlıq yeri et! Öz nemətlərini bura yağdır.”* (“Bəqərə” surəsi, ayə 125)

## ZƏMZƏM ÇEŞMƏSİNİN TARİXİ

Həzrət İbrahim (əleyhissalam) gedəndən sonra qızmar səhrada qalan Hacər və oğlu İsmail onlar üçün ayrılmış sudan və yeməkdən bir müddət istifadə etdilər. Azuqə qurtardıqdan sonra Hacərin südü çəkildi. Uşağın halı narahatedici idi. Ana hövlnak halda "Səfa" dağına su axtarmağa gəldi. "Mərvə" dağına baxanda günəş şüasının qaya üzərinə inikasından yaranan parıltını su zənn edib, dağa sarı qaçdı. Lakin ümidi heç oldu. Yeddi dəfə su axtarmaq məqsədilə bu iki dağın arasını qaça-qaça qət edəndən sonra bütün ümidi üzüldü. Əlacsız körpəsinin yanına qayıtdı. Onun can verməsinə tamaşa etdi. Bu vaxt İbrahim (əleyhissalam)-ın duası yadına düşdü və üzünü səmaya tutub Allahdan nicat istədi. Elə bu anda gördü ki, İsmailin ayaqları altından su axır.

Bu həyat əlaməti quşları da buraya çəkdi. Bu yerdən aralıda məskunlaşmış "Cərhum" tayfası uzaqdan quşların uçuşunu və bir yerə toplaşmasını görüb həmin yerdə su olduğunu hiss etdi. Və bu məkana gəlib Hacər və İsmailin bir çeşmənin yanında məskən saldığını görüb bura köç etdilər. İsmail böyüdükdən sonra həmin qəbilədən bir qızla ailə qurdu. Həzrət İbrahim (əleyhissalam) Allahın əmri və İsmailin köməkliyi ilə Kəbə evini tikdi.

İslam Peyğəmbəri Həzrət Məhəmməd (səlləllahu əleyhi və alihi və səlləm)-in əcdadlarından İbrahim və İsmaildən başqa onun son dörd cəddi–Qüsey, Mənaf, Haşim və Əbdül Müttəlibin tarixinə qısa nəzər salaq.

## QUSEY

O, Məkkə əhlinə–Qüreyşə başçılıq edirdi. Kəbənin hökmranlığı onun əlində idi. Qüsey Darün-Nədvənin (ərəblərin məsləhət və məşvərət üçün yığışdığı yer) əsasını qoymuşdur. Miladın 5-ci əsrində vəfat etdi. Özündən sonra iki oğlu qaldı: Əbdud-dar və Əbdu-Mənaf.

## ƏBDU MƏNAF

Onun adı Muğuri idi. Xoşəxlaqlı olduğuna görə xalqın ona çox hörməti var idi.

## HAŞİM

Haşim, Əbdu Mənafın oğlu idi. O, qardaşı Əbdu Şəms ilə əkiz doğulmuşdu. Anadan olanda Haşimin barmağı Əbdu Şəmsin alnına yapışmışdı. Onu ayırandan sonra xeyli qan axdı. Xalq bunu pis mənaya yozub dedilər ki, bu iki qardaş arasında qan davası olacaq.

Haşim Zil-həccə ayında Kəbənin divarına söykənib belə xütbə oxuyardı: “Ey Qüreyş! Allah sizi Kəbənin yanında məskun etməklə sizə fəzilət bəxş edib. Onun evinə ziyarətə gələnlər sizin qonağınızdır, onlara hörmət edin! And olsun Allaha ki, əgər qüdrətim olsaydı, sizdən bu barədə əsla kömək istəməzdim.

Haşim Məkkə-Şam və Məkkə-Yəmən arasında ticarətin əsasını qoydu.

## ƏBDÜL MÜTTƏLİB

Qüreyşin başçısı.

Əbdül Müttəlib Haşimin oğlu, İslam Peyğəmbəri (səlləllahu əleyhi və alihi və səlləm)-in babası idi. Mühit hər bir insanın həyatına böyük təsir göstərir. Amma Əbdül Müttəlibin yaşadığı mühitin insan mənəviyyatına mənfi təsir edən cəmiyyət olmasına baxmayaraq, onun həyatında bu dövrün eybəcərlikləri iz qoya bilməmişdi. O, tovhidə inanmışdı, daim xalqı pis işlərdən çəkindirirdi.

Əbdül Müttəlib Allahla əhd bağlamışdı ki, 10 oğlu olarsa, birini Kəbəyə qurban verəcək. Bu əhd-peyman barəsində heç kimə bir söz deməmişdi. 10-cu oğlan uşağı dünyaya gələndən sonra, ərəb adət-ənənəsinə görə əhdə sadiq qalan Əbdül Müttəlib qalan oğlanlarını başına yığıb öz əhdindən onları xəbərdar etdi.

Belə razılığa gəldilər ki, püşk atılsın. Püşk Abdullahın adına düşdü. Abdullahı qurbangaha aparanda Qüreyş əhli onlara mane oldu. Onlar bu işi başqa yolla həll etmək istəyirdilər. Buna görə təcrübəli bir alimə müraciət etdilər. Həmin alimin məsləhəti ilə belə qərara gəldilər ki, qan bahası dəvələrlə əvəz olunsun, yenidən püşk atılsın. Şərt belə idi ki, püşk dəvələrə düşənə kimi atılsın. Dəvələrin sayı 100-ə çatanda, yəni 10-cu püşkdə Abdullah xilas oldu. Bütün Məkk şadlığa qərq oldu. Amma vəziyyətdən nigaran qalan Əbdül Müttəlib püşk atma mərasimini 3 dəfə yerinə yetirdi və hər dəfə 100 dəvə qurbanlıq üçün təyin olundu.

## FİL İLİNİN MACƏRASI

Həbəş hökmdarı 70 minlik qoşunla Əbrəhəni sərkərdə təyin edib, xristianları müdafiə məqsədilə Yəmən padşahının üzərinə göndərdi. Orada qələbə çalan Əbrəhə Yəmənə hakim təyin olundu. O, Səna şəhərində bir kilsə tikdirdi və Həbəş hökmdarı Nəcaşiyə məktub göndərib bildirdi ki, xalqa Kəbəni ziyarət etməyi qadağan edəcəyəm. Əbrəhə qoşun yığıb Kəbəyə tərəf irəlilədi. Bu qoşunun ön hissəsində fillər dayanmışdı. Bəzi yerlərdə ərəblər onların qarşısında müqavimət göstərə bilmədilər. Əbrəhə öz qoşunu ilə birlikdə Məkkənin yaxınlığında düşərgə saldı. Əmr etdi ki, Məkkə əhalisinin var-yoxunu qarət etsinlər. Eləcə də Əbdül Mütəllibin 200 dəvəsini ələ keçirsinlər.

Bir elçi vasitəsilə Əbdül Müttəlibə tapşırdı ki, Qüreyş onlara qarşı müqavimət göstərməsin, onun məqsədi yalnız Kəbəni dağıtmaqdır.

Əbdül Müttəlib cavabında bildirdi ki, biz Kəbəni müdafiə etmk fikrində deyilik, çünki bu evin öz sahibi var. Elçinin bu cavabdan xoşu gəldi və ondan xahiş etdi ki, birlikdə Əbrəhənin yanına qayıtsınlar. Əbrəhə Əbdül Müttəlibi hörmətlə qarşıladı və soruşdu ki, buraya gəlməkdə məqsədi nədir? O buyurdu ki, sizin qarət etdiyiniz var-dövlətin və dəvələrin dalınca gəlmişəm. Əbrəhə dedi ki, mən sənin kimi müdrik bir insanın xırda bir şeydən ötrü ağız açacağını gözləməzdim. Elə bildim ki, Kəbə barəsində öz etirazını bildirəcəksən. Əbdül Müttəlib cavab verdi ki, mən dəvələrin sahibiyəm, Kəbənin də sahibi var, Özü onu müdafiə edir. Bu sözü deyib ayağa durdu.

Əbrəhə ətrafındakılara əmr etdi ki, qarət olunmuş malları və dəvələri Əbdül Müttəlibə qaytarsınlar. Geri dönən Əbdül Müttəlib Qüreyşə göstəriş verdi ki, hamı bir nəfər kimi şəhərdən kənara çıxsın. Uşaqların, qadınların, qocaların naləsi hər yanı bürümüşdü. Əbdül Müttəlib üzünü Kəbəyə çevirib ağlaya-ağlaya dua etdi: "Pərvərdigara, düşmənin şərrindən Sənə pənah gətirdik. Kəbənin düşməni Sənin düşmənindir. Ey Allah, Kəbəyə xaç vurulan günü bizə göstərmə!"

O, Məkkəni tərk edən axırıncı şəxs idi. Səhərisi günü Əbrəhənin qoşunu hücuma keçmək istəyirdi ki, dəniz tərəfdən böyük bir quş dəstəsi qara bulud kimi onların üstünü aldı. Onlar caynaqlarında və dimdiklərində gətirdikləri daşlarla qoşunu darmadağın etdilər.

Bu qeyri-adi və dəhşətli hadisə bütün dünyaya səs saldı. Qurani Kərim "Fil" surəsində bu macaranı nəql etmişdir.

Qüreyşə itkisiz başa gələn bu qələbə onlarda bir təkəbbür, qürur yaratdı. Təəssüflər olsun ki, onlar bu qələbəni Allahın yox, bütlərin və özlərinin adına çıxardılar. Bu baxımdan cəhalət dəryasına qərq olan Qüreyşin müdrik və ürəyəyatan bir rəhbərə ehtiyacı var idi.

## ABDULLAH

Əbdül Müttəlib 100 dəvə bahasına oğlu Abdullahın ömrünü özünə qaytarmışdı. Abdullah atasının yanında və xalqın içində böyük hörmətə malik idi.

24 yaşında ikən onu Vəhəbin qızı Aminə ilə evləndirdi. Evlənəndən sonra Abdullah ticarət məqsədi ilə Şama yola düşdü və bir neçə aydan sonra karvan Məkkəyə qayıtdı. Əbdül Müttəlib və təzə gəlin Aminə karvanda Abdullahı görmədilər. Nəhayət, məlum oldu ki, karvan geri qayıdarkən Abdullah Mədinədə xəstələnərək vəfat etmişdir.

## PEYĞƏMBƏR (səlləllahu əleyhi və alihi və səlləm)-İN TƏVƏLLÜDÜ

Həyatda elə şəxsiyyət olur ki, onların dünyaya gəlişi digərlərindən fərqli olaraq, istisnalıq, qeyri-adilik təşkil edir. Məsələn, Həzrət Musa (əleyhissalam)-ın dünyaya gəlməsi çox heyrətlidir. Onun gəlməsini münəccimlər Firona bildirmiş və ona izah etmişdilər ki, bu şəxs sənin əleyhinə olacaq. Bu səbəbdən yeni doğulan oğlan uşaqlarının hamısını öldürürdülər. Amma Allahın hikməti ilə Musa Fironun öz əli ilə tərbiyə olundu. Quranın "Taha" surəsində bu barədə yazılmışdır.

Və yaxud Həzrət İsa (əleyhissalam)-ın anadan olması ondan da heyrətlidir. Bu haqda isə "Məryəm" surəsində məlumat verilmişdir.

Eləcə də İslam Peyğəmbəri (səlləllahu əleyhi və alihi və səlləm) dünyaya gələndə bəzi qeyri-adi hadisələr baş verdi: bütlər üzü üstə yıxıldı, şahlar qorxulu yuxular gördülər. Kəsranın taxt-tacı uçub dağıldı, farslarda atəşpərəstliyin min illərdən bəri sönməyən odu söndü. Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) fil ilində (miladın 570-ci ilində) rəbiül-əvvəl ayının 17-də dünyaya gəldi.

## PEYĞƏMBƏRİN KÖRPƏLİK DÖVRÜ

Anadan olandan 7 gün sonra Əbdül Müttəlib ziyafət təşkil etdi və uşağın adını Məhəmməd qoydu. Anası Aminə onu Əhməd deyə çağırırdı. O bir neçə gün anası Aminədən süd yeyib. Sonra isə Suveybə adlı bir qadın 4 ay ona süd veribdir. Ona dayəlik edən ikinci qadın Həliməyi Sədiyyə idi. Peyğəmbər bu qadına çox hörmət edib, xətrini əziz tutardı. Həmişə həmin qadın evə daxil olanda, Peyğəmbər əbasını çıxardıb yerə sərər, ona yer göstərərdi.

Qeyd etməliyik ki, uşağı dayəyə vermək nəcabətli ailələrdə dəb idi. Bu da ona görə idi ki, uşaqlar daim təmiz havada olsunlar, onların inkişafı düzgün getsin. Məkkədə olan bəzi yoluxucu xəstəliklərdən uzaq və azad olsunlar. Həm də fəsih ərəb dilini mükəmməl öyrənsinlər.

Peyğəmbərin təvəllüdündən 4 ay keçmişdi. Bəni Səd qəbiləsinin dayələri Məkkəyə gəldi. O il çox qəhətlik və aclıq ili idi. Bu dayələrdən Həlimə adlı birisi öz ərinə təklif etdi ki, Əbdül Müttəlibin yetim nəvəsini götürüb böyüdək. Ola bilsin ki, Allah bizə bərəkət əta edər. Həqiqətən Həlimə öz fikrində yanılmamışdı. Onlar bu yetim uşağı öz himayəsinə götürdülər. Həlimə deyirdi ki, bu ildən sonra Allah-Taala onlara bolluq, firavanlıq bəxş edibdir.

Sağ döşündə heç vaxt süd olmayan Həlimə bu uşağa dayəlik etməyə başlayandan onun sağ döşündə süd əmələ gəlib çoxaldı. Bu elə özü ruzi və bərəkətin bir əlaməti idi.

## İSLAM PEYĞƏMBƏRİNİN UŞAQLIQ DÖVRÜ

Həlimə beş il balaca Məhəmmədin tərbiyəsi ilə məşğul olandan sonra onu anası Aminəyə qaytardı. Aminə bir gün sonra oğlu ilə birlikdə həm öz ərinin qəbrini ziyarət etmək, həm də öz qohum-əqrəbasına baş çəkmək məqsədilə Mədinəyə yollandı. Bir ay Mədinədə qaldılar. Qayıdanda balaca Məhəmmədin anası Əbva kəndində vəfat etdi.

Bu hadisə Əbdül Müttəlibin Məhəmmədə olan məhəbbətini daha da artırdı. Uşaqlıqdan balaca Məhəmmədin başına gələn bu hadisələr, çətinliklər Allah-Taalanın hikməti idi. Allah onu bu çətinliklərlə üzbəüz qoymaqla, ağır məsuliyyətli və şərəfli bir gələcəyə, yüksək məqama hazırlayırdı.

Məhəmməd 8 yaşında ikən babası Əbdül Müttəlib vəfat etdi. Bundan sonra əmisi Əbu Talib onu öz himayəsinə götürdü. Əbu Talib ticarət məqsədi ilə Şama yola düşəndə 12 yaşlı Məhəmmədi də özü ilə apardı. Karvanın üstündə yol boyu onları bir bulud müşayiət edirdi. Karvan Şama çatmamış Busra şəhərində bir tarixi hadisə baş verdi. Orada Buheyra adında bir xristian alim yaşayırdı. O axirüz-zəman peyğəmbərin gələcəyini və onun əlamətlərini səmavi kitablardan oxumuşdu.

Buheyra Məkkə tərəfindən bir karvanın gəldiyini gördü və onun da şahidi oldu ki, bu karvanın başı üstündə bir bulud hərəkət edir. Karvan onun evinə yaxın bir yerdə yerləşdi. Buheyra karvandakıları evinə dəvət etmək fikrinə düşdü. Və elə də etdi. Onları nahara evinə çağırdı. Amma bulud karvanın üzərindən tərpənməmişdi. Buheyra Əbu Talibdən soruşdu ki, sizdən karvanda qalan var? Əbu Talib cavab verdi ki, yalnız bir uşaq qalıb. Buheyra uşağın da bu məclisdə olmağını istədi. Əbu Taliblə birlikdə karvana yaxınlaşdılar. Buheyra uzaqdan gördü ki, uşaq zeytun ağacına söykənib və çox fikirli, qayğılı bir görkəmi var. Xristian alimi diqqətlə baxandan sonra Əbu Talibdən soruşdu: "Sən bu uşağın nəyisən?" Əbu Talib dedi ki, atasıyam. (Ərəblərdə əmiyə "ata" da deyirlər). Buheyra dedi ki, bu uşaq gərək yetim olsun. Uşağın əmisi daha heç nə demədi. Buheyra uşağın qarşısında dayanıb ona dedi ki, sənə bir neçə sualla müraciət edəcəyəm, amma "Lat" və "Üzza" xatirinə düzgün cavab ver! Balaca Məhəmməd dedi ki, mən heç vaxt yalan danışmıram və Lat və Üzzadan acığım gəlir. Lat, Üzza nədir? Buheyra yenə soruşdu ki, sən nəyi çox sevirsən və nəyin haqqında çox fikirləşirsən? Məhəmməd çavab verdi ki, mən təkliyi sevirəm və aləmin yaradılışı barəsində çox fikirləşirəm.

Xiristian alimi uşağın çiynindəki Peyğəmbərlik nişanəsini görəndən sonra üzünü Əbu Talibə tutub dedi: "Bu uşaqdan muğayat olun! Əgər yəhudi qövmü

bilsə, onu öldürər." Yenə davam etdi ki, bu uşağın parlaq gələcəyi var və səmavi kitabların sonuncu Peyğəmbər haqqında xəbər verdikləri şəxs bu uşaqdır.

## ÜÇÜNCÜ FƏSİL

## MƏKKƏ İSLAMİYYƏT DÖVRÜNDƏ

## İZDİVACDAN BESƏTƏ QƏDƏR

Peyğəmbər 25 yaşında həzrət Xədicənin ticarət karvanında Şamdan xeyir-bərəkətlə qayıtdıqdan sonra onunla ailə qurdu.

Xədicədən Peyğəmbərin dörd qız, iki oğlu dünyaya gəlmişdi. Oğlanların adı Qasim və Əbdullah, qızlarının adı isə Rüqəyyə, Zeynəb, Ümmü Gülsüm, Fatimə idi. Deməliyik ki, besətdən əvvəl qıtlıq olduğu üçün Əbu Talibin ailəsi çox əziyyət çəkirdi. Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) belə qərara gəldi ki, əmisinin övladlarından birini–Əlini öz öhdəsinə götürsün. Həzrət Əli (əleyhissalam) bu barədə buyur: "...siz mənim Peyğəmbərin yanında boya-başa çatdığımı bilirsiniz. Mən hər gün onun gözəl əxlaqından nümunələr götürürdüm."

Belə bir sual ortaya çıxır: Peyğəmbər besətdən əvvəl hansı dinə etiqad edirdi?

O bütün ömrünü təkallahlığa, Allahı tanımağa həsr etmişdi. Bunun sübutuna bir neçə dəlilimiz var. Biri budur ki, onun tərbiyəçiləri Əbdül Müttəlib və Əbu Talib tək olan Allaha inanırdılar. İkinci dəlil budur ki, Buheyra ilə danışanda Lat və Üzzanı pislədi. Üçüncüsü budur ki, tarixçilərin yazdığı kimi, Həra mağarasında Allaha ibadət edərdi. Dördüncü sübut budur ki, onun yeganə şagirdi Əli (əleyhissalam) buyurur ki, o vaxt ki, Peyğəmbəri süddən kəsdilər, Allah böyük bir mələyi onun tərbiyəsi üçün təyin etdi.

## VƏHYİN GƏLMƏSİ

Məkkənin şimal tərəfində bir dağ var ki, Həra dağı adlanır. Həmin dağın zirvəsində Həra mağarası yerləşir. Bu mağara Həzrət Məhəmməd (səlləllahu əleyhi və alihi və səlləm)-in ibadətgahı idi. Bütün orucluq aylarını orada keçirərdi. İbadətdən başqa iki şey daim onun fikrini məşğul edərdi:

1. Yer ilə göyün yaranması və onların nizamı.

2. Cahiliyyət dövrünün haqsızlığı, bədbəxtliyi qarşısında məsuliyyət hiss etməsi barəsində.

Rəcəb ayının 27-ci günü Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) həmişəki kimi mağarada idi. Cənab Cəbrail Qurani Kərimin ilk ayələrini onun üçün oxudu. ("Ələq" surəsi, ayə 1-5)

Mələklə insanın üzbəüz olması əvvəlcədən ruhi bir hazırlıq tələb edir. Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) bu ruhi hazırlığı ibadətlə və yaxud yuxu görmə prosesində əldə etmişdi. Eyni zamanda Həzrət Məhəmməd (səlləllahu əleyhi və alihi və səlləm) nazil olan ilk ayələri deməyə çəkinirdi. Cənab Cəbrail üç dəfə onu silkələyib, bu ayələri təkrarlamağa məcbur etmişdi. Bədənində bir üşütmə hiss edən Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) mağaranı tərk edib evə, Xədicənin yanına gəldi. Hiss olunurdu ki, Peyğəmbərin böyük ruhu vəhyin sayəsində daha da nurlanmışdır.

O dağdan enəndədə bir nida onu daim müşayiət edirdi: "Mən mələk Cəbrailəm, sən Allahın Rəsulusan." Peyğəmbər evə yetişəndə Xədicə onun simasında bir iztirab hissi keçirdiyini müşahidə elədi. Nə baş verməsini ondan soruşdu. Həzrət olmuş hadisəni danışdı. Xədicə ona ehtiramla baxdı və ona dua edib dedi ki, Allah sənə kömək edəcəkdir. Vücudunda bir yorğunluq hiss edən Məhəmməd (səlləllahu əleyhi və alihi və səlləm) yatmaq istədi. Dedi ki, mənim üstümü ört, üşüyürəm. Peyğəmbər yuxuya daldı. Xədicə Vərəqə ibni Nofəlin yanına getdi. (O, Xədicənin əmioğlusu, ərəblərin ən biliklisi idi.) Xədicə Peyğəmbərdən eşitdiklərini olduğu kimi ona çatdırdı. Vərəqə ibni Nofəl dedi ki, Məhəmməd (səlləllahu əleyhi və alihi və səlləm) düz danışandır və ona peyğəmbərlik verilibdir.

Burada bir neçə mətləbi qeyd edək:

1. Vəhyin ilk ayələri. (Tovhid və elm) Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in şəriətinin əsaslarındandır.

2. Peyğəmbərin şəriətinə ilk iman gətirənlər qadınlardan Xədicə, kişilərdən Əli (əleyhissalam) idi.

Əli (əleyhissalam) "Qasiə" xütbəsində buyurur ki, İslamın qədəm basdığı ilk ailənin üçüncü şəxsi mən idim.

3. İslamı ilk qəbul edənlərdən olan Xədicənin imanını Peyğəmbər yüksək qiymətləndirir və onun yoxluğundn kədərlənirdi. Bir gün Ayişə, Həzrət Məhəmməd (səlləllahu əleyhi və alihi və səlləm) evi tərk edərkən ona dedi ki, Allah Xədicədən də yaxşısını sənə qismət edib. Peyğəmbər bu sözdən əsəbiləşdi və buyurdu ki, heç vaxt Allah Xədicədən yaxşısını mənə verməyibdir. O, o zaman mənə iman gətirmişdi ki, hamı məni inkar edirdi.

## MÜSƏLMANLARI MÜHASİRƏYƏ ALMAQ SİYASƏTİ

Qüreyşin başçıları müsəlmanlara təzyiq göstərmək üçün onları iqtisadi və siyasi mühasirəyə almaq qərarına gəldilər. Bununla əlaqədar bir qərar çıxarıb, onu Kəbədən asdılar. Qərarın şərtlərində müsəlmanlarla izdivac və ya müamilə, ticarət qadağan olunurdu.

Əbu Talib əmr verdi ki, müsəlmanlar müşriklərin mühitindən uzaqlaşmaq üçün şeybi Əbu Talibdə (Əbu Talib dərəsində) cəm olsunlar. Həmin yerin ətrafında məmurlar qoydular ki, Qüreyşin həmlələri haqqında məlumat versinlər.

Müsəlmanlar üç il müddətində min cür əzab-əziyyətlə, ac və susuz bu şəraitdə yaşadılar. Bir xurmanı iki nəfər öz aralarında bir günlük təam kimi bölürdülər. Yalnız haram aylarda, (Həcc mövsümündə) əmin-amanlıqda olurdular.

Qüreyş hətta onlara yardım göstərməyi də qadağan etmişdi. Bütün bu qadağanlara baxmayaraq, müsəlmanlara gizlin şəkildə kömək edənlər tapılırdı. Həkim ibni Hizam-Həzrət Xədicənin qardaşı oğlu-dəvəyə bəzən azuqə yükləyib həmin dərənin yanına gəlirdi. Sonra dəvənin cilovunu üstünə atıb, müsəlmanlara sarı qovurdu.

...Bu təzyiqlər müsəlmanların səbrini tükəndirmədi. Amma uşaqların nalə, şivən səsi qərar çıxaran Qüreyş ağsaqqallarının bəzisini təsirləndirdi və onların öz mövqelərini dəyişmələrinə səbəb oldu. Onlardan Hişam ibni Ömər Züheyr, (Əbdül Müttəlibin qız nəvəsi idi) və Mutim ibni Ədi öz aralarında belə qərara gəldilər ki, növbəti iclasda müsəlmanlara qarşı olan qərarın əleyhinə çıxsınlar. Əbu Cəhl öz etirazını bildirdi və buna baxmayaraq, Mutim dərhal Kəbədən qərarnaməni iclasa gətirdi. Onu gördükdə hamısı təəccübdən yerində donub qalmışdı: "Bismillah" kəlməsindən başqa qərarnamənin hər yerini güvə yeyib-dağıtmışdı.

Başqa bir rəvayətdə deyilir ki, Peyğəmbər vəhy vasitəsilə vəziyyətdən yəni güvənin qərar yazılan kağızı yeməsindən xəbərdar idi.

Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) əmisi Əbu Talibə, o da öz növbəsində Qüreyşə məlumat verdi. Qüreyş başçıları qərara baxıb gördülər ki, Peyğəmbərin sözləri düzdür. Bundan sonra müsəlmanları azad etdilər.

## "HÜZN İLİ"

Əzab-əziyyət, məşəqqətlərdən təzə xilas olmuş müsəlmanlar acı bir hadisə ilə üzləşdilər: Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in əmisi Əbu Talib vəfat etdi. O, 42 il ərzində İslam Peyğəmbərini müdafiə edir, onu min bir

xətadan qoruyurdu. Hətta Şeybi-Əbu Talibdə qalanda Peyğəmbəri qəfil hücumlardan qorumaq üçün oğlu Əli (əleyhissalam) ilə yerini dəyişərdi.

Və ya bir gün Əbu Talibin evində yığıncaqda Qüreyş ağsaqqallarından Əcəbə dedi ki, Peyğəmbərin çarəsi yalnız ona qarşı sui-qəsd etməkdir. Əbu Talib bu sözdən çox narahat oldu. Təsadüfən, o gün axşamdan xeyli keçməsinə baxmayaraq, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) evə gəlməmişdi. Əbu Talib fikirləşdi ki, ona sui-qəsd edilib. Təcili olaraq Bəni Haşimi silahlandırıb intiqam almaq üçün səfərbər etdi. Bu vaxt Zeyd ibni Harisə Peyğəmbərin salamatlığı xəbərini gətirib dedi ki, O, yəni Peyğəmbər təbliğatla məşğuldur. Bununla da Əbu Talib fikrindən daşındı.

Əbu Talib dünyasını dəyişəndə də oğlanlarına tapşırdı ki, İslam Peyğəmbəri (səlləllahu əleyhi və alihi və səlləm)-dən muğayat olsunlar.

Əbu Talibin İslama iman gətirməsini həm onun sözlərində, həm də Peyğəmbəri himayə etməsində görə bilərik.

Besətin 10-cu ili, Əbu Talibin vəfatından 35 gün sonra Peyğəmbəri-İslama ruhən dayaq və arxa olan digər bir hamisi–zövcəsi həzrəti Xədicə də dünyasını dəyişdi.

Bu iki ağır itki Həzrət Məhəmməd (səlləllahu əleyhi və alihi və səlləm)-in həyatında dərin təsir bağışladı.

Bu il tarixə “Hüzn” ili kimi daxil oldu.

Bu müddətdə Allah-Taala Peyğəmbərə bir möcüzə də bəxş etdi, bu da onun meracı idi.

## HƏZRƏT XƏDİCƏ HAQQINDA PEYĞƏMBƏR (səlləllahu əleyhi və alihi və səlləm)-İN KƏLAMI

1. Xədicə birinci qadın idi ki, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-ə iman gətirdi.

2. Xədicə behiştin ən fəzilətli qadınlarındandır.

3. O bir qadın idi ki, Allah-Taala Cəbrail vasitəsi ilə ona salam göndərmişdir.

4. Xədicə elə bir qadın idi ki, hər zaman Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) onu yad edər və ağlardı.

5. Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) sair qadınlarına onun haqqında belə buyurmuşdu: “Xədicə mənə iman gətirəndə siz hələ kafir idiniz.”

6. Ayişə deyərdi: Mən nə qədər çalışırdım ki, ona əziz görsənəm, hər dəfə o, Xədicəni tərifləyərdi.

7. Xədicə bir qadın idi ki, bütün var-dövlətini İslamın ixtiyarına vermişdi.

8. Xədicə Peyğəmbərin ən gözəl qadınlarından biri idi. O, 25 il Peyğəmbərin vəfalı ömür-gün yoldaşı oldu, 65 yaşında ikən vəfat etdi.

## HƏZRƏT ƏBU TALİB HAQQINDA PEYĞƏMBƏR (səlləllahu əleyhi və alihi və səlləm)-İN KƏLAMI

İslam Peyğəmbəri (səlləllahu əleyhi və alihi və səlləm) onun haqqında belə buyurmuşdur: "Ey mənim əmim! Sən məni, yetim bir uşaq ikən böyütdün, boya-başa çatdırdın. Böyüdükdə isə, mənə arxa, kömək oldun."

## PEYĞƏMBƏR (səlləllahu əleyhi və alihi və səlləm) ALLAHIN HÖKMÜYLƏ MƏDİNƏYƏ GEDİR

Qüreyşin bütün bu tədbirlərindən sonra İslam Peyğəmbərinin Məkkəni tərk etməsi çox təhlükəli idi. O, vəziyyətdən çıxış yolunu bunda gördü ki, öz yerində (yəni yatağında) başqasını qoysun, onlar elə zənn etsinlər ki, Peyğəmbər evdədir.

Küçələrdə və şəhərin girişində nəzarət olmasın, yəni Qüreyş keşikçilərinin nəzər-diqqəti evin ətrafına yönəlsin.

İkinci bir tərəfdən, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in yerində yatmaq, təhlükəli olub, ölümlə üzbəüz gəlmək idi.

İslama ilk iman gətirən şəxs–Həzrət Əli (əleyhissalam) Peyğəmbərin yolunda öz canından keçməyə hazır oldu və o din yolunda öz canını Allaha müamilə etdi: *"Allahın razılığını əldə etmək üçün insanlardan bəzisi öz canından keçir."* ("Bəqərə" surəsi, ayə 207)

Gecədən bir az keçmiş Qüreyş cəlladları evi mühasirəyə aldılar. Həzrət Əli (əleyhissalam) əvvəlcədən Peyğəmbərin yatağında uzanmışdı. Keşikçilər qapının dəliyindən baxanda evi adi halda görürdülər. Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) "Yasin" surəsinin *"və cəəlna min bəyni əydiyhim səddən və min xəlfihim səddən, fəəğşəynahum fəhum la yubsirun"* ayəsini oxumaqla düşmənin mühasirəsindən çıxdı.

Burada tarixçilər müxtəlif fikirlər söyləmişlər. Bəziləri deyiblər ki, kəramət (möcüzəli hadisə) gücünə keşikçilər Peyğəmbəri görməyiblər. Bəziləri də buyurub ki, keşikçilər səhərə qədər yuxlamışdılar, çünki Əbu Ləhəb gecə vaxtı

evdə arvad-uşaq üçün narahatçılıq yaranmasın deyə, onların gecə hücum etməsinə mane olmuşdu.

Belə bir fikir də mövcuddur ki, İslam Peyğəmbəri mühasirədən əvvəl evi tərk edibmiş.

...Keşikçilər sübhün açılmağını gözləyirdilər ki, Bəni Haşim Peyğəmbərin güruh tərəfindən öldürülməsinin şahidi olsun. Keşikçilər qılıncları siyirmiş halda evə daxil oldular. Əli (əleyhissalam) soyuqqanlıqla onlardan gəlmələrinin səbəbini soruşdu. Keşikçilər Peyğəmbəri xəbər aldılar. Əli buyurdu ki, Peyğəmbərdən xəbərim yoxdur.

## MƏKKƏNİN FƏTHİ

İslam tarixində elə hadisələr olur ki, onlar İslam dininin inkişafında təkanverici rol oynamışlar. Bu hadisələrdən biri də hicrətin 8-ci ilində baş vermiş Məkkənin fəthi idi. Bu dövrdə Ərəbistanda yaşayan Xuzaə qəbiləsi müsəlmanların tərəfində idi. Müsəlmanların Mutə müharibəsində yarımçıq qələbəsi Qüreyşi cürətləndirdi və onlar Bənu Bəkr qəbiləsini Xüzaə tayfasına qarşı silahlandırdılar. Bənu Bəkr qəbiləsi Xuzaə qəbiləsinin bir hissəsini öldürdü, bir hissəsini də əsir etdi. Bununla, Qüreyş tayfası Hüdeybiyyə sülhünün şərtlərini pozdu. Xüzaənin başçıları Mədinəyə gəlib Peyğəmbərdən kömək istədilər. Həzrət onlara söz verdi ki, dadlarına yetişəcək.

Öz işindən peşiman olan Qüreyş Əbu Süfyanı İslam peyğəmbərindən üzr istəmək üçün Mədinəyə göndərdi. O, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in hüzuruna gəlib Hüdeybiyyə sülhünün şərtlərini pozduqlarına görə üzr istədi. Rəsuli Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) ona heç bir cavab verməyib, etinasız yanaşdı. Əbu Süfyan Peyğəmbərin səhabələri, Əli (əleyhissalam) və Həzrəti Fatimeyi Zəhra vasitəsilə İslam peyğəmbərinə yol tapmağa çalışdı. Heç bir nəticə əldə etməyən Əbu Süfyan Həzrət Əli (əleyhissalam)-ın təklifi ilə məsciddə müsəlmanların qarşısında söz verdi ki, sülhün şərtlərini bir daha pozmayacaqlar. Bundan sonra o, Məkkəyə yola düşdü.

Əbu Süfyanın uğursuz səfərindən nigaran qalan Qüreyş əyanları İslam Peyğəmbərinin mənfi münasibətindən çox narahat idilər.

Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) Qüreyşi aradan götürmək məqsədilə Məkkəni fəth etmək qərarına gəldi. Bu səbəbdən camaatı səfərbər etdi və 10 min nəfərlik qoşunla Ramazan ayının 10-da Məkkəyə doğru hərəkət etdi. Qüreyş müsəlmanların bu hərəkətindən xəbərsiz idi. Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) isə qəflətən Məkkəyə daxil olmaq istəyirdi.

Peyğəmbərin əmisi Abbas Məkkədə yaşayırdı və onun Qüreyşlə münasibəti çox yaxşı idi. Abbas Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in yanına getmək qərarına gəlir və Cöhfədə Rəsuli Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-lə rastlaşır. Əmisi ilə görüşən Rəsuli-Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) qoşuna əmr edir ki, hər kəs şəhərin ətrafında tonqal yandırsın.

Abbas Məkkəyə qayıdıb vəziyyətlə Əbu Süfyanı tanış edir, ona təslim olmaq haqqında peyğəmbərin təklifini qəbul etməyi və bu məqsədlə onun hüzuruna getməyi məsləhət görür.

Bu vəziyyətdən qorxuya düşən Əbu Süfyan Abbasla birlikdə İslam Peyğəmbərinin hüzuruna gəldi. Həzrət buyurdu ki, Əbu Süfyanı səhərə kimi çadırda saxlayın, onunla sabah səhər danışıqlara başlayacağam.

Əbu Süfyanın qorxudan İslamı qəbul etməsi olmasa da, amma onun müsəlmanların cərgəsində olması çox əhəmiyyətli idi. Danışıqlarda iştirak edən Abbas Peyğəmbərə bildirdi ki, Əbu Süfyan hakimiyyət, vəzifə sevən adamdır.

Bütün Məkkə əhli Əbu Süfyanın yolunu nigarançılıqla gözləyirdi. Əbu Süfyan Məkkəyə varid olub xalqa bəyan etdi ki, bizim İslamı qəbul etməkdən başqa yolumuz yoxdur. Buna görə Məscidül-Hərama daxil olan, evində qalıb çölə çıxmayan, silahı yerə qoyan, mənim evimə pənah gətirənlər nicat tapacaq, əmin-amanlıqda olacaqlar.

Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) öz sərkərdələrinə tapşırmışdı ki, Məkkəni qan tökmədən fəth etməliyik.

Həzrət Məkkəyə varid oldu. Kəbə evini, Məscidül-Hərəmı görəndə sevincdən göz yaşı tökdü, sonra ziyarət məqsədi ilə Məscidül-Hərama daxil oldu. Təvaf etdi. Hubəl bütünü sındıranda İslam ordusu 3 dəfə "Allahu əkbər" səsi ilə bütün Məkkəni lərzəyə saldı. Sonra aralığa dərin bir sükut çökdü. Qüreyş əhli müsəlmanlara və Peyğəmbərə qarşı etdikləri haqsızlıqlar haqqında düşünürdü və diqqətlə Peyğəmbərin üzünə baxıb danışmağını gözləyirdi. O sözünə belə başladı: "Siz məni ölkədən didərgin saldınız, mənim peyğəmbərliyimi qəbul etmədiniz. Bu gün isə intiqam günü yox, əfv günüdür."

Sonra Bilal azan verdi və birlikdə camaat namazı qılındı. Kəbəyə daxil olan Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) Məscidül-Hərəmı bütlərdən təmizlədi. Hamı Peyğəmbərə beyət əlini uzatdı. Hətta qadınlar da Həzrətin əli dəymiş su təştinə əllərini salıb beyət etdilər.

## MƏKKƏ ŞƏHƏRİNİN BİR NEÇƏ MƏSCİDİ

1. "Məscidül-Həram"

Bu elə bir məsciddir ki, burada qılınan bir rükət namaz, başqa məscidlərdə qılınan min rükət namaza bərabərdir.

Dördbucaq şəklində olan Kəbə binası bu məscidin tən ortasında yerləşir. Bu məscidin 7 minarəsi var. Minarələrin hündürlüyü 90 m-dir. Kəbənin "Həcərül-əsvəd" olan küncündə bir minarə, qalan künclərində isə iki minarə yerləşir.

2. "Cin" məscidi.

Bu məscid "Əbu Süfyan" bazarının yaxınlığında yerləşir."Cin" surəsi bu yerdə İslam Peyğəmbərinə nazil olub. İki rükət "təhiyyət" namazı qılmaq bu məsciddə müstəhəbdir.

## "HƏRƏM" NƏ DEMƏKDİR?

Allah-Taala Həzrət Adəm (əleyhissalam)-ı behiştdən xaric edərək onu Səfa dağına atdı. O zaman Adəm (əleyhissalam) özünü qaranlıq bir aləmdə hiss etdi. Allahın əmri ilə bir dürr Kəbənin yerində qərar tutdu. Bu dürrün ziyası (işığı) Məkkənin dağlarına yayıldı. Bu dürrün nurunun əhatə etdiyi o sahəyə "hərəm" deyərlər. Hərəmi müəyyən əlamətləri ilə hüdudlanıbdır.

1. Hərəmin şimal tərəfi məscidi-Tənimlə məhdudlaşır ki, bu məscid Mədinə yolunun üstündədir və Məscidül-Hərama qədər 6 km məsafəsi var.

2. Cənub tərəfi "izaətül-ləbən" məntəqəsi ilə məhdudlaşır. Yəmən yolunun üstündə qərar tutub və Məscidül-Hərama qədər 12 km məsafədə yerləşir.

3. Şərq tərəfdən Taif yolunun üstündəki "Cəranə" məntəqəsi ilə məhdudlaşır.

4. Qərb tərəfdən "Hüdeybiyyə" məntəqəsi ilə məhdudlaşır.

Allah hərəmi insanlar və heyvanlar, hətta göyərtilər üçün də əmniyyət yeri qərar veribdir. Bu hərəmin müəyyən hökmləri var, bir neçəsini qeyd edirik:

1–Ehramsız hərəmə daxil olmaq olmaz;

2–Şeytana atılan daşları ancaq hərəmdən yığmaq olar;

3–Hərəmdə itən əşyaya, sahibi gəlib götürənə qədər heç kim əl vurmaz;

4–Hərəmdə adam öldürmək olmaz.

Bir nəfər İmam Sadiq (əleyhissalam)-dan soruşdu: "Bir adam hərəmdən kənarda adam öldürsə və sonra hərəmə daxil olsa, onun hökmü nə cür olar?"

İmam (əleyhissalam) buyurdu: "Onu (hərəmdə) öldürməzlər, lakin ona o qədər su və yemək verməzlər ki, hərəmi tərk etsin. Çıxandan sonra isə o şəxsə cəza hökmü vacibdir."

Soruşdular: "Əgər hərəmin daxilində bir adam başqa bir adamı qətlə yetirsə və ya oğurluq etsə, onda nə cür olar?"

İmam (əleyhissalam) buyurdu: "O, hərəmin daxilində olduğu halda belə, ona cəza hökmü vacibdir. Çünki o, hərəmin ehtiramını saxlamamışdır."

## MƏSCİDÜL-HƏRAMIN BƏRPASI VƏ GENİŞLƏNMƏSİ

Xəlifə Ömər, Xəlifə Osman və Abdullah ibni Zübeyrin dövründə Məscidül-Həram bərpa olunub və genişləndirilib. Hicrətin 91-ci ilində Əməvi xəlifələrindən biri olan Vəlid ibni Əbdül Məlik gördü ki, "beytül-malın" xəzinəsində olan var-dövlət həddən ziyadədir. Odur ki, əvvəlcə Dəməşq camiəsini bina etdi, sonra Məscidül-Həram və Məscidün-Nəbini bərpa edib və genişləndirdi, Kəbəyə qızıl navalça asdı.

## ABBASİLƏR DÖVRÜNDƏ MƏSCİDÜL-HƏRAMIN GENİŞLƏNDİRİLMƏSİ

Abbasilərin ikinci xəlifəsi Mənsur bir gün Məkkəyə səfər etdi. Şəhərə varid olanda gördü ki, bura gələn camaatın sayı çoxalıb. Ona görə də qərara aldı ki, ətrafdakı evləri alıb məscidin ərazisinə əlavə etsin. Məscidül-Həramın ilk dəfə bu cür genişləndirilməsi, hicrətin 140-cı ilinə mütabiqdir.

Xəlifə Mənsurun oğlu Mehdi Abbasi Hicrətin 161-ci ilində məscidi yenidən genişləndirdi.

Bunu da qeyd etmək lazımdır ki, Mənsur Abbasi evləri alarkən bir sıra çətinliklərlə üzləşdi. Ona görə də İmam Cəfəri Sadiq (əleyhissalam)-dan kömək istəmək məcburiyyətində qaldı.

İmam (əleyhissalam) Quranın "İnnə əvvələ beytin vuziə linnasi lələzi bibəkkətə mübarəkən" ayəsini ona xatırladaraq bildirdi ki, bu ayə möhkəm bir dəlildir, onun hökmünə əsasən, bu hərəmi zəvvarların ehtiyacları olan yerədək genişləndirmək lazımdır."

## KƏBEYİ-MÜƏZZƏMƏ

Kəbənin hündürlüyü–16 m

Kəbə qapısının yerləşdiyi sahənin (divarın) uzunluğu 11,58 m; "Hicri İsmail" tərəfdəki divarın isə uzunluğu 10,22 m-dir.

Kəbənin özünün səthi yerin səthindən 1,5 m hündürlükdədir.

Qüreyş Kəbəni bina edəndən qabaq Kəbənin şərq və qərb tərəfə açılan iki qapısı vardı. Qüreyş qərb qapısını bağladı, Abdullah ibni Zübeyr isə açdı.

Hicrətin 177-ci ilində Səd ibni Əbdül-Əzizin göstərişi ilə Kəbə təmir olundu. Kəbənin daxilinə mərmər döşəndi və dama qalxmaq üçün pilləkən qoyuldu.

## KƏBƏNİN QAPISI

Kəbənin şərq divarında "Həcərül-əsvəd"ə yaxın, məscidin səthindən 2 m hündürlükdə yerləşir.

## KƏBƏNİN PƏRDƏSİ

İlk dəfə İsmailin zövcəsi nəzir etdi ki, Kəbə üçün pərdə toxusun. Xəlifələr şan-şöhrət xatirinə hər il Kəbənin pərdəsini müxtəlif və bahalı parçalardan toxuyurdular və hər il mərasimlə əlaqədar o pərdə dəyişilirdi. Rəvayətlərdə pərdədən tutmaq və dua etmək təkid olunub. Qədimdə Misir və Yəmən padşahları bu pərdəni hazırlayırdılar. Sonrakı dövrlərdə Səudiyyə Ərəbistanında bu pərdələri toxumaq üçün məxsusi fabrik tikildi. O vaxtdan etibarən Kəbənin pərdələri orada hazırlanır.

Bu pərdənin üzərində aşağıdakı kəlmələr yazılmışdır:

"Subhanəllahul-əzim, la ilahə illəllah, Mühəmmədun Rəsulullah, Allahu cəllə-cəlaluhu."

Hər il Qurban bayramında bu pərdəni dəyişirlər.

## KƏBƏNİN DÖRD GUŞƏSİ

1. Şərq guşəsi:
"Həcərül-əsvəd" daşı bu guşədə yerləşir.
2. Şimal guşəsi: (Bu küncə "İraqi"də deyərlər.)
3. Qərb guşəsi: (Bu küncə "Şami"-də deyərlər.)
4. Cənub guşəsi: (Bura "Yəməni"-də deyərlər.)

## "RÜKN-YƏMƏNİ" ("YƏMƏNİ" KÜNCÜ)

İmam Sadiq (əleyhissalam) buyurub: "Yəməni rüknü biz Əhli-beytə məxsus olan küncdür ki, biz oradan behiştə daxil olacağıq. Orada hansı dua oxunsa, Allah yanında qəbul olunur."

İslam Peyğəmbəri (səlləllahu əleyhi və alihi və səlləm) buyurur: "Hər vaxt ki, mən "Yəməni" rüknünə yetişirdim, Həzrəti Cəbraili orada görürdüm."

## "HƏCƏRÜL-ƏSVƏD" DAŞI

“Həcərül-əsvəd” daşı Kəbə bina olunan gündən sonra orada qərar tutub.

Bütün təriqələrin rəvayətlərinə görə bu daşı Həzrəti Adəm (əleyhissalam) behiştdən özü ilə birlikdə gətirib.

Bu daş, zaman ötdükcə öz həcmini dəyişərək kiçilmişdir.

Hal-hazırda onu Kəbə səthindən 1,5 m hündürlükdə küncdə, gümüş qabda saxlayırlar. Bu daşın rəngi əvvəllər ağ idi, lakin ya günahkar bəndələrin ona əl vurmaqlarından, ya da Kəbə binasının dəfələrlə od tutub yanmasından qaralıb.

Bir rəvayətə görə bu daş əvvəllər mələk olub, sonralar daş şəklinə düşüb. (Bunu da xatırlatmaq lazımdır ki, mələk it və donuzdan başqa hər bir şəklə düşə bilər.)

İslam Peyğəmbəri (səlləllahu əleyhi və alihi və səlləm) buyurub: “Həcərül-əsvəd yer üzərində Allahın “sağ əli”dir. İnsanlar ona əl vurmaqla Allahla peyman bağlayırlar.”

Həzrət Əli (əleyhissalam) buyurub: “Qiyamət günü “Həcərül-əsvəd” daşı dil açıb şəhadət verəcəkdir ki, kimlər öz əhdinə sadiq olub və kimlər əhdə vəfasız çıxıblar.”

Hicrətin 63-cü ili Yezidin Kəbəyə hücumu nəticəsində bu müqəddəs daş üç hissəyə parçalanmışdı. Sonralar onu Abdullah ibni Zübeyr gümüşə tutmuşdur.

## MULTƏZƏM

“Həcərül-əsvəd”lə Kəbənin qapısı arasındakı yerə “Multəzəm” deyərlər. O yerdə Allah, Həzrəti Adəmə tövbəni öyrətdi. Bu yer dua qəbul olunan yerlərdən biridir.

## HƏTİM

“Həcərül-əsvəd” ilə Kəbənin qapısının arasında Zəmzəm quyusuna tərəf olan sahəyə “Hətim” deyərlər. Bu yerdə izdiham həddən ziyadədir. Çünki hamı “Həcərül-əsvəd”ə yaxınlaşaraq onu ziyarət emək istəyir.

## “MÜSTƏCAR”

“Müstəcar”, “Yəməni” rüknə yaxın olan yerdir və Kəbənin qapısı ilə tuş Beytullahın tərəfidir. O zaman ki, Kəbənin iki qapısı var idi, onlardan biri hal-hazırda öz yerində qərar tutan qapı, ikincisi isə Kəbənin müstəcar hissəsində

idi. Bu, həmən qapıdır ki, Fatimə binti Əsəd Həzrət Əli (əleyhissalam)ı dünyaya gətirərkən o qapıdan daxil olmuşdu. Bura dua qəbul olunan yerlərdən biridir.

Bu məqama məxsus olan zikrlərdən biri aşağıdakı kimidir:

"Allahummə əlbeytu, beytuk, vəl-əbdu əbduk və Həzəlməqamul–aizu bikə minən-nar."

## İBRAHİMİN SİMASI QURANDA

1–Onun bütün işləri Allaha xatir idi;

"Ənam" surəsinin 79-cu ayəsində Quran Həzrət İbrahimin dili ilə belə buyurur: *"Mən ixlas ilə göyləri və yeri Yaradana tərəf üzümü tutdum. Mən (Allaha) şərik qoşanlardan deyiləm."*

2–Bütpərəstliyə nifrət bəsləyirdi;

"Ənbiya" surəsi, 67-ci ayə: *"Sizdən və Allahdan başqa sitayiş etdiyiniz şeylərdən bizaram. Ağıl ilə anlamayırsınızmı?"*

3–Mübarizə səhnəsində qətiyyətli və cəsarətli idi;

"Ənbiya" surəsi, 57-ci ayə: *"Və Allaha and olsun ki, siz gedəndən sonra bu bütlərin çarəsini qılaram!"*

4-Müşriklər İbrahim (əleyhissalam)-ı oda atandan sonra Allah tərəfindən əmr gəldi ki: "*Ey od, İbrahimi yandırma!"*

"Ənbiya" surəsi, 67-68-ci ayələr: *"Dedilər: "Bir iş görmək istəyirsinizsə, onu yandırın və öz allahlarınıza yardım edin. Söylədik: "Ey od, İbrahimə qarşı sərin və sağlam ol!"*

5. Həzrət İbrahim (əleyhissalam) dəhşətli və sarsıdıcı hadisələr vaxtında olduqca təmkinli və səbirli idi.

"Saffat" surəsi, 102, 103, 104, 105 və 106-cı ayələr. *"...(İsmail) Böyüdü, Səfa-Mərvə arası, atası ilə bərabər qaçışa başladı. İbrahim dedi: Oğlum, yuxuda görmüşəm ki, başını kəsirəm. Görəsən, bu nə yuxudur? Oğlu dedi: Atacan, sənə nə buyururlar, onu da yerinə yetir. Allah qoysa görərsən mən necə səbirliyəm. İkisi də özünü Allaha təslim etdi. İbrahim oğlunun başını qurbangahda yerə qoydu. Onu səslədik: Ey İbrahim, sən yuxunu təsdiq etdin. Yaxşıları, bax, beləcə mükafatlandırırıq. Əslində onları açıq-aşkar imtahana çəkmişdik."*

Quranın 25 surəsində İbrahimin 69 dəfə adı çəkilir.

## HƏZRƏT İBRAHİM (əleyhissalam)-IN HƏYATINA AİD BİR NEÇƏ MƏLUMAT

1. Həzrət İbrahim (əleyhissalam) Kəbə evini bina etdikdən 4 il sonra Hacər dünyadan getdi və Sara (həzrət İshaqın anası) 30 il Hacərdən sonra vəfat etdi.

2. Nuhun tufanı zamanında Kəbə evi dağılıb viran oldu. Allah İbrahimə, Kəbə evini yenidən bina etməyi əmr edəndə, Allah-Taala tərəfindən güclü bir külək əsib Kəbə yerində olan qumları kənara sovurdu. Bu zaman Kəbənin bünörvəsi aşkar oldu və Həzrət İbrahim Kəbə evini yenidən bina etməyə başladı.

3. Allah, İbrahimə xalqı həcc ziyarətinə çağır, dəvət et-deyə əmr edəndə, İbrahim sual etdi ki, mənim səsim xalqa nə cür çatacaq? Allah-Taala buyurdu: "Sən o daşın üstünə (məqami-İbrahim) çıx və xalqı səslə, sənin səsini onlara mən çatdıracağam."

Qiyamət gününədək həcci ziyarət edərək ləbbeyk deyən bütün o müsəlmanlar, onlar həmən kəslərdir ki, İbrahimin səsini eşidib və dəvətini qəbul ediblər.

## "MƏQAMİ İBRAHİM"

Bu məqam Kəbədən 13,5 m məsafədə yerləşir. Məqamın balaca günbəzi və onun içində bir daş var ki, Həzrət İbrahimin ayaqlarının izləri o daşın üzərində həkk olunmuşdur. Bu həmən daşdır ki, Həzrət İbrahim onun üzərində dayanıb Kəbənin divarını hörərdi. Həmçinin bu daşın üzərində dayanıb camaatı Allahın evini ziyarət etməyə çağırardı.

Vacibdir ki, hacılar vacib təvaf namazını bu məqamın arxasında qılsınlar. Bu da imamətin rəmzidir.

"Məqami İbrahim" Kəbənin şərq tərəfində yerləşir.

## ZƏMZƏM QUYUSU

Zəmzəm elə bir çeşmədir ki, Allah-Taala Öz lütfü və mərhəməti ilə həzrət İsmailin ayağı altından cari etdi. Bu bulaq tarix boyu müxtəlif hadisələrə məruz qalıbdır. İndi də Allah qonaqları bu xeyirli və bərəkətli sudan istifadə edirlər. Hətta İslam Peyğəmbəri (səlləllahu əleyhi və alihi və səlləm) Mədinədə olan zaman həccə gedənlərə buyurardı ki, mənim üçün "Zəmzəm" suyundan sovqat gətirsin.

Müsəlmanlar "Zəmzəm" suyundan bir dərman kimi istifadə edirlər. Müstəhəbdir ki, Zəmzəm suyunu içəndə bu duanı oxusunlar: "Allahumməc-əlhu ilmən nafiən və rizqən vasiən və şifaən min kulli dain və suqmin."

Bu quyu Kəbədən 18 m-likdə və onun səviyyəsindən 5 m aşağıda yerləşir.

## “SƏFA” VƏ “MƏRVƏ”

Səfa Kəbənin cənubi-şərqində, Mərvə isə şimali-şərqində yerləşir.

Müstəhəbdir ki, Səfa ilə Mərvə arasındakı yaşıl işıqarla müşahidə olunan 70 m məsafəni hacılar payi-piyadə və bir qədər yüyürək qət etsinlər. Qeyd edirik ki, Səfa ilə Mərvə arasındakı yolun uzunluğu 420 m, eni isə 20 m-dir Səfa dağının hündürlüyü 15 m, Mərvənin hündürlüyü isə 8 m-dir.

## SƏFA VƏ MƏRVƏ

## “ƏBU QÜBEYS” DAĞI

Bu dağ Məscidül-Həramın yaxınlığında yerləşir. Peyğəmbərlərdən bir neçəsi bu dağda dəfn olunublar. “Şəqqül-qəmər” möcüzəsi bu dağda zahir olub.

## SƏFA VƏ MƏRVƏNİN ƏSRARI

Səfa və Mərvəni səy etmək görkəmi şəxsiyyətlərdən və mühüm hadisələrdən bəhs edən tarixi bir kitab oxumaq, bunlar ilə müqayisə olunmaz dərəcədədir. Bu bir səfərdir ki, yol uzun, mənzil uzaq. Bu bir mübarizə səhnəsi və canlı bir tarix olub biz oxuduğumuz digər tarixlər kimi deyil. Bu yer, idrak etmək yeri yox, hissiyyat yeridir.

Peyğəmbərlərdən Həzrət İbrahim (əleyhissalam) fəqət mübarizə və mücadilə səhnəsində qərar tutub. Bunu da xatırladırıq ki, İsmail dünyaya gələndə atası İbrahimin 95 yaşı vardı.

Həcc mərasimi bir tərbiyə məktəbi və çətin sınaqlar meydanıdır.

## SƏFA VƏ MƏRVƏNİN TARİXİ FƏLSƏFƏSİ

Allah İsmaili Həzrət İbrahimə bəxş edəndən sonra İbrahimin o biri həyat yoldaşı Sara narahat oldu, Çünki onun övldadı olmurdu. Həzrət İbrahim Allahın hökmünə əsasən, İsmail ilə anası Hacəri quru bir səhraya apardı. O, Allahın bu fərmanını qəbul edərək dedi:

“İlahi, Sənin evinin (Kəbənin) abad olunmağına xatir mən bu işi görürəm.”

İbrahim Kəbəni təmir edəndən sonra da onun əmniyyətini də dua etdi. Necə ki, Quran “İbrahim” surəsinin 34-cü ayəsində onun dilindən belə buyurur: *“Ya Rəbb, bu yeri insanlar və heyvanlar üçün əmin-amanlıq yeri qərar ver.”*

## “HƏRA” DAĞI

Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) hələ risalətə çatmamış, ilk əvvəl “Həra” dağına pənah apararaq, ibadətdən ötrü özünə orada sığınacaq tapmışdı. Nəhayət Cənab Cəbrail rəcəb ayının 27-də Allah tərəfindən nazil olaraq Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-ə ilk vəhyi: “İqrə bismi Rəbbikəl-ləzi xələq” ayəsini yetirdi və o həzrət risalətə çatdı. Elə bir risalət ki, “Xatəmən-Nəbiyyin (peyğəmbərlərin möhrü) idi. Yəni o, axirəz-zaman Peyğəmbər idi ki, ondan sonra yer üzünə heç bir peyğəmbər gəlməyəcək. Müstəhəbdir ki, hacılar o məqami-şərifdə iki rükət ziyarət namazı qılsınlar. Bu dağa “Cəbəlül-Quran” və “Cəbəlül-İslam” da deyirlər. Çünki Qurani-şərifin ilk ayələri bu dağda nazil olub. Dağın hündürlüyü təxminən 200 m olar.

## “SUR” DAĞI

“Sur” dağı Məscidül-Həramın iki kilometrliyində yerləşir. Bu dağda bir mağara var, hansı ki, İslam Peyğəmbəri (səlləllahu əleyhi və alihi və səlləm) Mədinəyə hicrət edərkən bu mağarada gizlənmişdi. Bu dağa “Sur” adı verirlməyinin səbəbi odur ki, bu məntəqənin qəbilə başçısı Sur ibni Əbdi Mənaf olub. Ona görə də bu dağı onun adı ilə adlandırıblar.

## MƏKKƏ-MƏDİNƏ ARASINDAKI ZİYARƏTGAHLAR

1. Abdullah ibni Abbasın qəbri (Taif vadisində yerləşir.)
2. Həzrət Həvvanın qəbri (Cəddədə yerləşir.)
3. Peyğəmbərimizin anası həzrət Aminənin qəbri (“Əbva”-da, Mədinənin 45 km-liyində yerləşir.)
4. “Qədir Xum” məscidi (“Cohfə” məscidinin yaxınlığında yerləşir.)
5. Əbuzərin qəbri (Rəbəzə səhrasındadır).
6. “Bədr” müharibəsi şəhidlərinin qəbirləri (“Rəvha”-da Mədinənin 17 km-liyindədir.)

## İSLAM PEYĞƏMBƏRİNİN (səlləllahu əleyhi və alihi və səlləm) ANADAN OLDUĞU YER

Rəsuli Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm)-in təvəllüd tapdığı məhəllədə “Məktəbətu Məkkətəl-mükərrəmə” adlı bir kitabxana yerləşir. Müstəhəbdir ki, o məqamda aşağıdakı duanı oxusunlar: “Allahummə bicahi

Nəbiyyikəl-Mustəfa və Rəsulikəl-Murtəza və əminikə əla vəhyis-səman, təhhir qülubəna min kulli vəsfin yubaiduna ən müşahədətikə və məhəbbətik; və əmitnəllahummə ələs-sünnəti vəl-cəmaəti əla muvalati əvliyaikə və muadati ədaik, vəş-şövqi ila liqaik, ya zəl-cəlali vəl-ikram. Allahummə inni əv-dətu fi hazəl-məhəlliş-şərifi min yəvmina haza, ila yəvmul Qiyaməti. Xalisən, muxlisən, Əşhədu ən la ilahə illəllah və ənnə Mühəmmədən əbduhu və Rəsuluhu.

## "ƏRƏFAT"

"Ərəfat" çölü çox geniş bir ərazini əhatə edir və Məkkənin 21 km-liyində şimal tərəfində vaqe olub. Hərəmin hüdudundan kənarda, elə bir yerdədir ki, Həzrət Adəm ilə Həvva (əleyhiməssalam) uzun ayrılıqdan sonra burada təzədən rastlaşıblar.

Burada Həzrət Adəm (əleyhissalam) günahını etiraf etdi və duası Allah tərəfindən qəbul olundu.

Ərəfat çölündə "Cəbəlür-rəhmə" dağı vardır. Zil-hiccə ayının 9-cu gecəsi ibadət məqsədi ilə Ərəfat çölündə qalmaq 70 ilin ibadətinə bərabərdir.

İmam Sadiq (əleyhissalam) buyurub: "Həzrət Adəm (əleyhissalam) behiştdən xaric olandan sonra 40 gün Səfa dağında səcdə edib göz yaşı tökdü. Cəbrail onun yanına gəlib soruşdu: -Nə üçün ağlayırsan? Cavab verdi: Allahın rəhmətindən məhrum olmuşam, ona görə ağlayıram. Cəbrail (əleyhissalam) dedi: "İndi ki, belədir, ayağa qalxıb tövbə qüslü elə, ehram bağla və Ərəfata tərəf yola düş.

Hacının əməlləri bir növ Həzrət Adəmin əməllərini xatırladır.

İslam Peyğəmbəri (səlləllahu əleyhi və alihi və səlləm) son həccində "Ərəfə" çölündə xütbə oxuyaraq bir neçə mətləbi izhar etdi: "Qan tökməyin, başqasının malına və hüququna təcavüz etməyin, özünüzü başqasından uca tutmayın, riyadan uzaq olun, qadınların hüququna riayət edin."

Rəvayətlərdə varid olub ki, həcc mövsümündə İmam Zaman (əleyhissalam) Ərəfat çölünə gəlir. Xalqı görüb tanıyır, xalq isə onu görür, amma tanımır. İmam Hüseyn (əleyhissalam) məşhur "Ərəfə" duasını məhz bu dağın döşündə oxumuşdu.

## ƏRƏFAT ÇÖLÜ

## "MƏŞƏRÜL-HƏRAM"

Məşərül-Həram Məzəmeyn nahiyəsindən Mühəssər vadisinədək olan əraziyə deyilir.

Həccin əsaslarından biri də, Məşərül-Həramda Zil-hiccə ayının 10-cu gecəsi sübh gün çıxana qədər qalıb ibadət etməkdir. Sübh açılanadək lazımdır ki, hacılar öz silahlarını (daşlarını) düşməni vurmaq üçün götürsünlər.

## "MİNA"

Bu, "Mühəssər" vadisi ilə, "Cəmərеyi-əqəbə" (böyük şeytan) arasında yerləşən bir sahədir. "Xif" məscidi Minada yerləşib. Bu yerə "Mina" (arzu) adı verilməsinin səbəbi odur ki, Cəbrail (əleyhissalam) Həzrət Adəmə nazil olub dedi: "Burada behişti arzu et."

İslam Peyğəmbəri (səlləllahu əleyhi və alihi və səlləm) Minada "həlq" (başı dibdən qırxmaq) edənlər üçün Allahdan 3 dəfə, "təqsir" (dırnaq tutmaq və başın tükündən qismən kəsmək) edən kəslər üçünsə bir dəfə rəhmət dilədi.

Çünki saçını verən, Allah yolunda başını da verər, necə ki, qurban vermək qurban olmağın rəmzidir.

Məşər–şüur, Mina isə eşq rəmzidir.

İslam Peyğəmbəri (səlləllahu əleyhi və alihi və səlləm) and içdi ki: "Mina çölünə gələn şəxs, Allahın izni ilə günahları bağışlanmış halda qayıdar."

## ÜÇ GÜN MİNADA QALMAĞIN RƏMZİ NƏDİR?

Mina çölünü görənlər bilirlər ki, orada alış-veriş üçün bazar, gəzmək üçün seyrəngah yoxdur, deputatlar, nazirlər və hökmdarlar yox, İslam ölkələrinin həqiqi nümayəndələri burada cəm olurlar ki, müsəlmanların dər-sərindən xəbərdar olsunlar.

## MİNA ÇÖLÜ

## ŞEYTANA DAŞ ATILAN YERLƏR

Mina dağında, bir-birindən 300 m məsafədə yerləşən rəmzi şeytanlar– sement və daşdan hörülmüş üç sütundan ibarətdir. Onların ətrafı kasa şəklində metr yarımlıq çökək yerdir. Atılan xırda daşlar hamısı şeytana dəyərək oraya tökülür.

Bu hadisəyə aid tarixdə bir neçə cür rəvayət vardır. Bir rəvayətə görə İbrahim peyğəmbər İsmaili Minaya qurban kəsməyə apardığı vaxt, şeytan qabaqlarına çıxdı və İbrahim (və ya İsmail) şeytana daş atdı.

Başqa bir rəvayətə görə "Fil" cərəyanında üç nəfər casus Məkkə əhli tərəfindən ifşa olunaraq, həmən yerdə daş-qalaq olundular.

Üçüncü rəvayətə görə hal-hazırda rəmzi şeytanların yerləşdikləri yer qədimdə, İslamdan əvvəl üç əsas bütün yerləşdiyi yer olub. Xəstəlik səbəbi ilə özləri gəlib şeytana daş atmaq iqtidarında olmayan kəslərə gəldikdə isə, müstəhəbdir ki, hacılar bu xəstələri həmin yerə gətirsinlər və xəstələr bu mərasimi müşahidə etməklə şeytanlara qarşı öz nifrətlərini bildirsinlər.

## RƏMYİ-ŞEYTAN (YUXARI HİSSƏDƏN)

## RƏMYİ-ŞEYTAN (AŞAĞI HİSSƏDƏN)

# DÖRDÜNCÜ FƏSİL

## HƏCCİN ƏMƏLLƏRİ VƏ ONUN FƏLSƏFƏSİ

## QURANDA HƏCC

Həccin lüğətdəki mənası qəsd etmək; şəri mənası isə-Allahın evini ziyarət etmək və həccə aid məxsus əməlləri yerinə yetirməkdir.

Həcc–İslamın əsaslarından olmaqla, müsəlmanlar üçün çox zəruri əməllərdən sayılır. İslam Peyğəmbəri (səlləllahu əleyhi və alihi və səlləm) həcc barəsində buyurur: “Bir müsəlman boynuna həcc gəldiyi halda həcc ziyarətini təxirə salsa və ömrü sona yetsə, Allah-Taala Qiyamətdə onu yəhudi və ya nəsrani ilə (onların dinində-***red***.) məhşur edər (dirildər).”

Həzrət Əli (əleyhissalam) isə belə buyurur: “Amandır, məbada Allahın evi olan Kəbəni boş qoyasınız; çünki həccin ayinləri və Beytullahı ziyarət etmək tərk olunarsa, onda çox keçməz müsəlmanlar ağır əzaba düçar olarlar.”

## ŞƏRİƏT BAXIMINDAN HƏCCİN FƏLSƏFƏSİ

Rəsuli Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) Məkkədən Mədinəyə hicrət etdikdən sonra buyurmuşdur: “Allah-Taala imkanı olan hər bir müsəlmana ömründə heç olmasa bir dəfə də olsa, həcc ziyarətini vacib buyurub. Həccin füruiddin hökmlərindən olmasına baxmayaraq, əfzəl ibadətlərdən biri sayılır.”

İslam aləmində həccin bir çox dünyəvi, axirəti, fərdi, ictimai, siyasi və mənəvi faydaları, məziyyətləri var ki, digər ibadətlərdə bu fəzilətlər az nəzərə çarpır.

Həcc–Allaha bəndəliyi, xalis ibadəti və qəlbən Allaha bağlı olmağı nümayiş etdirir. Həcc təlim-tərbiyə məktəbi olmaqla yanaşı, yaşayış tərzini

yaxşılaşdırmaq, elm öyrənmək və İslam əxlaqını ictimai həyatda bərqərar etmək üçün mühüm zəmindir (vasitədir).

Həcc–Allaha yaxın olmaqla, maddi aləmin buxovlarından azad olub nəfs ilə cihad və fədakarlıq məktəbidir ki, insanlara əsil həyatın mənasını anladır. Həcc bizə tovhid, əqidə və vəhdət dərsi verərək ictimai həyatımızda mədəni, elmi, iqtisadi və siyasi baxışlarımızı təmərküzləşdirir və kamilləşdirir.

Həcc özünəməxsus amalı ilə İslamın dünya və axirət işlərində necə müqəddəs və mükəmməl din olduğunu nümayiş etdirir.

Həcc ərəfəsində olan bir müsəlmana lazımdır ki, qəlbindən Allahın iradəsindən qeyri nə varsa, hər şeyi çıxartsın və bütün işlərini Allaha tapşırsın.

Ey Allah yolunun aşiqləri! Həccə sarı hərəkət zamanı və məskən saldığınız hər bir yerdə Allaha təvəkül edin, Onun qəzavü-qədərinə təslim olun və çalışın ki, dünyaya bel bağlamayasınız.

Qurani Kərimdə 28 yerdə həccdən bəhs olunub. Həcc kəlməsinin təkcə özünə gəldikdə isə Quranda 10 yerdə adı çəkilir və həccin bəyanında olan hər bir ayə onun müəyyən əhkamını ifadə edir:

1. Həccin ümumi elanı bəyanında;

İbrahim (əleyhissalam) Kəbəni bina etdikdən sonra, Allah tərəfindən ona fərman yetişdi ki, *"xalqı Kəbə evini ziyarət etmək üçün dəvət et"* ("Həcc" surəsi, ayə 27)

2. Həcc ziyarətinin keyfiyyəti bəyanında;

*"Aydın ayələr (nişanələr) və İbrahimin məqamı oradadır. Hər kəs oraya daxil olsa, əmin-amanlıqda, əmniyyətdədir. Allaha xatir oraya getməyə qadir olanlara, o evin həcci vacibdir. Hər kəs küfr yoluna girsə, bilsin ki, Allahın aləmlərə ehtiyacı yoxdur."* ("Ali-İmran", surəsi, ayə 97)

3. Həcc əməllərinin yerinə yetirilməsinin lazım olduğu aylar bəyanında;

*"Həcc məlum aylardadır. Hər kim o aylarda bu vəzifəni yerinə yetirərsə, həccdə qadınına yaxınlaşmamalı, haqdan çıxmamalı və mübahisə, müharibə etməməlidir. Allah gördüyünüz hər yaxşı işi bilir. Azuqə götürün ki, ən yaxşı azuqə təqvadır. Ey ağıl sahibləri, Məndən qorxun!"* ("Bəqərə" surəsi, ayə 197)

4. Həccin siyasi, iqtisadi, ictimai və fəlsəfi mənfəətlərini bəyan edən ayələr;

*"...Onlara aid olan faydaları görsünlər. Allahın adını müəyyən günlərdə, Allah onlara ruzi verdiyi mal-qaranı kəsdirəndə zikr etsinlər. Bəs onlardan yeyin və yoxsul fəqirlərə də onlardan yedirdin."* ("Həcc" surəsi, ayə 28)

5. Həccin şərtləri və əsil mahiyyəti bəyanında;

*"Həcc və ümrəni Allah üçün tamamilə, kamil surətdə yerinə yetirin. Əgər sizin haqqınızın qabağını alsalar, imkan daxilində qurban kəsin. Sizin*

*qurbanlığınız qurban kəsilən yerə yetişməyincə, başlarınızı qırxmayın. Əgər sizin biriniz xəstə olsa, yaxud başında bir əziyyət olsa, qarşılıq (fidyə) olaraq ya oruc tutsun, ya sədəqə versin, ya da qurban kəssin. Əmniyyətdə olduğunuz zamanda, (sizlərdən) hər kim ümreyi-təməttödən sonra həcci-təməttönü yerinə yetirsə, imkan daxilində qurban kəssin. Hər kim qurban kəsə bilmirsə, həccdə üç gün oruc tutsun. Həccdən qayıtdıqdan sonra da yeddi gün (oruc tutsun)– on gün tamam oluncaya qədər. Bu hökm Məscidül-Həram (Məkkə) əhlindən olmayanlar üçündür. Allahdan qorxun və bilin ki, Allah çox çətin əzab verər."* ("Bəqərə" surəsi, ayə 196)

## HƏCC VƏ KƏBƏYƏ AİD BİR NEÇƏ HƏDİS

Həccin məsələləri o qədərdir ki, hamısını biz bu kitabda cəmləşdirə bilmərik. Necə ki, İmam Sadiq (əleyhissalam)-ın şagirdlərindən Zurarə adlı bir nəfər soruşdu ki: "40 ildir ki, həccin məsələlərini səndən soruşuram və hər dəfə mənim sualıma yeni bir cavab verirsən, aya bu həccin məsələləri qurtaran deyil?" İmam (əleyhissalam) cavab verdi: "Ey Zürarə, bir məbəd ki, Həzrət Adəmdən qabaq bina olunub, istəyirsən ki, qırx il müddətində bu sualların hamısına cavab verəm?"

2. Həccin İslam aləmində əhəmiyyəti o qədər mühümdür ki, həcc ziyarətinə əsla gedən olmasa İslam hökumətinə vacibdir ki, bir iddə insanlara pul verib həcc ziyarətinə göndərsin, ta ki, müsəlmanlar zəifləyib qüvvədən düşməsinlər."

3. İmam Sadiq (əleyhissalam)-dan rəvayət olunub ki: "Ən bədbəxt o kəsdir ki, həcc əməllərini yerinə yetirib sonra "görəsən Allah mənim günahlarımı bağışlayıb, ya yox" deyə şəkkə düşsün."

4. İslam Peyğəmbəri (səlləllahu əleyhi və alihi və səlləm) buyurur: "Yer üzündə ən müqəddəs yer Məkkədir. Orada səcdə edən şəxs, sanki, din yolunda cihad etmiş kimidir."

5. İmam Sadiq (əleyhissalam) buyurur: "Allah-Taala Məscidül-Hərama daxil olan şəxsin üzünə 120 rəhmət qapısı açır. Onlardan 60-ı təvaf edənin, 40-ı namaz qılanın və 20-si Kəbə səmtinə baxanındır."

6. İmam Sadiq (əleyhissalam) buyurur: "Allah hacının özünün, ailəsinin və dua etdiyi şəxslərin günahlarından keçər. Hər kəs həcc ziyarətindən qayıdarkən yenidən həcc ziyarətini arzu edərsə, Allah onun ömrünü uzadar; yox əgər arzu etməzsə, onun ömrü qısalar."

## HƏCCİN ƏHƏMİYYƏTİ

Həzrət Əmirəl-möminin Əliyyibni Əbi Talib (əleyhissalam) buyurur: "Allah evini ziyarət etməyi tərk etməyin: ona görə ki, həccin tərk edilməsi müsəlmanların zəifliyini göstərir."

Peyğəmbəri Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) həcc mərasimindən qayıdarkən bir nəfər hüzuruna çataraq soruşdu: "Ya Rəsuləllah, mən bu il həccdən məhrum olmuşam. Mənə elə bir əməl göstərin ki, o həcc savabını vermiş olsun." Rəsuli-Xuda buyurdu: "Əgər Əbu Qubeys dağı qədər mal-dövlətin olsa və hamısını Allah yolunda xərcləsən belə, həcc savabını ödəməz."

Rəvayətlərdə varid olub ki, Allah evinin zəvvarları, Allahın Öz pənahında olurlar. Əgər yolda ölmüş olsalar yerləri behiştdir; və əgər evlərinə salamat qayıtsalar, Allahın nəzəri daim başları üzərində olar və günahları bağışlanar.

## MƏKKƏNİN ADLARI QURANDA

1. "Bələdül-əmin" ("və hazəl-Bələdil-Əmin")
2. "Ümmül-qura" ("litunzirə Umməl-qura və mən..."
3. "Bəkkə" ("İnnə əvvələ beytin vuziə linnasi lələzi bibəkkətə mübarəkən...") (Quran ayələri.)

**Həcc siyasi baxımdan:** Həzrət Əli (əleyhissalam) buyurub: "İxracən littəkbir Cəələllahul-Kəbətəl-beytəl-Həram, qiyamən linnas" Allah Kəbəni, müsəlmanları ayağa (qiyama) qaldırmaq üçün Beytul-Həram (hörmətli ev) qərar verib.

Nə qədər ki, Kəbə var və müsəlmanlar onda təvaf edirlər, din məktəbi daima davam edəcək və vüsət tapacaqdır.

## HƏCCİN QAYDALARI

İbadət üç qismdir: 1-ci cismən ibadət (namaz və oruc kimi); 2-ci mal, əmtəə vasitəsi ilə ibadət (xüms və zəkat kimi); 3-cü mal və cismi (qurban və "rəmy" kimi).

Həcc üçüncü növ ibadətlərdən sayılır. Bu ibadətin əsasını–öz günahlarını etiraf etməklə çətin sınaqlardan çıxıb Allaha yaxınlaşmaq, öz malından, hətta lazım gələrsə öz canından keçməkdir.

**Həcc iqtisadi baxımdan,** xalqlar arasında müştərək bazar iqtisadiyyatına şərait yaradır və ticarət yeni vüsət alır.

**Əxlaqi baxımdan,** məsələn: Mührim olan şəxs o halda İbrahimi və İsmaili xatırlayaraq mənəviyyatı saflaşır. Məscidül-Hərama daxil olarkən Peyğəmbəri və mücahidləri yadına salır, ruhu pərvəriş tapır və kamilləşir.

**Mədəniyyət baxımından** ziyalılar, elm və incəsənət xadimləri bir-biri ilə görüşüb əlaqə yaratmaqla xalqlar arasında mədəni əlaqələr inkişaf edir və zənginləşir.

İngiltərənin xarici işlər naziri Qladiston parlamentdə belə elan etdi: "Nə qədər ki, Məhəmmədin adı azanda əzəmətlə yad olunur; Quran insanların həyat proqramıdır; və Həcc əməlləri yerinə yetirilir, xristianlıq böyük xətər qarşısındadır. Gərək Quranı müsəlmanların əlindən alaq, Kəbəni də beynəlxalq aləmdə nüfuzdan salaq."

## HƏCCƏTÜL-İSLAM NƏ DEMƏKDİR?

Həccətül-islam iki hissədən ibarətdir:

a) Ümreyi-təməttö,

b) Həcci-təməttö.

Bu həcc insanın ömründə bir dəfə vacib olur. Onun vacib olma şərtlərindən biri maddi (mali) imkanlara malik olmaqdır. Bu imkanların əndazəsi ondan ibarətdir ki, həccə gedib-qayıtmaq o şəxsi və onun ailəsini maddi cəhətdən çətinliklərə salmasın. Ailə qurmağa ehtiyacı olan və ya xums, zəkat borcu olan şəxsə həccdən əvvəl ailə qurmaq və xums, zəkat borclarını vermək vacibdir.

2. Həddi-büluğa çatmayan uşağın həccə getməsi vacib həcci ödəmir. Əgər valideyni uşağı həccə aparsa, müstəhəbdir ki, ona ehram paltarı geyindirsin və onu haramlardan qorusun və həccin əməllərini uşağa yerinə yetirtdirsin.

3. Cismi qüdrəti əldən getmiş qoca, xəstə və həcc boynunda vacib olub rəhmətə gedən insanın tərəfindən həcc əməllərində naib olmaq olar. Bu şərtlə ki, həccin məsələlərini tam bilə və naib olan şəxsin özünün boynunda vacib həcci olmaya.

## HƏCCİN ƏMƏLLƏRİ

### "Ümreyi-təməttö"-nün vacibatı

"Ümreyi-təməttö"də beş şey vacibdir:

1. Ehram;
2. Kəbənin təvafı;
3. Təvaf namazı;
4. Səfa ilə Mərvə arasında səy (yürüş) etmək;

5. Təqsir (yəni başın tükündən bir az kəsmək və dırnağı tutmaq).

### EHRAMIN VACİBATI

Mührim olmaq (ehrama daxil olmaq) üçün üç şey vacibdir.

1. İki məxsusi parça libasa bürünmək;

2. Niyyət etmək (niyyət zamanı üç əsas şeyə diqqət edilməlidir: a) Qürbətən iləllah-yəni xalis bir qəlblə yalnız Allahın itaətində olmaq; b) Ehramın növünü (ümrənin ehramı, həccin ehramı) təyin etmək.)

3. Təlbiyə demək, yəni aşağıdakı zikri-şərifi oxumaq:

**"Ləbbeykəl-lahummə ləbbeyk, ləbbeykə la şərikə ləkə ləbbeyk. İnnəl həmdə, vən-nimətə ləkə vəl-mulk. La şərikə ləkə ləbbeyk."**

Bu zikri Məkkəyə daxil olana qədər oxumaq olar. Müstəhəbdir ki, ehram bağlamazdan öncə (yaxşı olar ki, yovmiyyə namazını qıldıqdan sonra) qüsl etsin. Qey etməliyik ki, ehram libası geymək yalnız kişilərə aiddir. Qadınlar isə öz tikili libasları ilə mührim ola bilərlər.

## Ehram halında olan şəxslərə haram olan əmələr

Hacı ehram bağladıqdan sonra 24 işi görmək ona haram olur:

1. Heyvan ovlamaq;
2. Qadını ilə cinsi əlaqədə olmaq (onunla öpüşmək, şəhvət yerlərinə baxmaq və hər cür ondan ləzzət almaq).
3. Özü və ya qeyrisi üçün bir arvadın nikahını oxumaq (kəbini kəsmək);
4. İstimna;
5. Ətir vurmaq və ya hər hansı bir xoş qoxu iyləmək;
6. Kişilər üçün tikili libas geymək;
7. Sürmə çəkmək;
8. Güzgüyə baxmaq;
9. Kişilər üçün ayaqların üzünü tam örtən ayaqqabı geymək;
10. Yalan danışmaq;
11. Allaha and içmək;
12. Bədəndə olan bit və ya başqa həşəratları öldürmək;
13. Ələ zinət əşyaları, barmaqlarına üzük taxmaq;
14. Qadınlara zinət sayıla bilən geyim və əşyalar;
15. Bədənə yağ sürtmək;
16. Öz bədənindən və başqalarının bədənindən tük çəkmək;

17. Kişilər üçün başı bağlamaq və ya örtmək;
18. Qadınlar üçün üzü bağlamaq (örtmək);
19. Kişilər üçün kölgədə dayanmaq (yol gedərkən);
20. Bədəndən qan çıxartmaq;
21. Dırnaq tutmaq;
22. Diş çıxartmaq;
23. Hərəmdən gül və ya ağac qopartmaq;
24. Özü ilə silah gəzdirmək.

# Təvaf ümreyi-təməttönün ikinci əməlidir.

O da Allah Evinin ətrafında 7 dəfə dövrə vurmaqdır. Təvafın şərtləri aşağıdakılardır:

1. Bədən və ehram libası pak və şəxs dəstəmazlı olmalıdır.
2. Həcərül-əsvəddən başlayıb Həcərül-əsvəddə də qurtarmalıdır.
3. Təvaf edən şəxs Hicri-İsmailin eşik tərəfindən və eyni zamanda Məqami-İbrahimlə Kəbənin arasında dövrə vurmalıdır.

Nəzərinizə çatdırırıq ki, əgər üzrü olan qadın Məkkədə olan vaxta qədər üzrü aradan getməsə, bir başqasının onun yerinə təvaf etməsi və namaz qılması lazımdır.

Ümreyi-təməttönün ikinci əməli namazdır. Onun azan və iqaməsi yoxdur. Bu iki rəkətli namaz təvafdan sonra Məqami-İbrahimin arxasında qılınır. Xatırlatmalıyıq ki, müstəhəbbi təvafın namazını Məscidül-Həramın hər yerində qılmaq olar.

Ümreyi-təməttönün dördüncü əməli səydir. Səy Səfa ilə Mərva dağının arasında yeddi dəfə gedib-gəlməkdir. Səfadan Mərvaya çatmaq bir dövrə hesab olunur. Beləliklə, səy Mərvada tamamlanır.

Səfa ilə Mərva Məscidül-Həramdan hesab olunmur. Bu səbəbdən üzrlü qadının orada olmasına maneə yoxdur.

Ümreyi-təməttönün sonuncu əməli təqsirdir. Təqsir səydən sonra tükündən və ya dırnağından (hər ikisindən də mümkündür) bir az kəsməkdən ibarətdir. Özünü təqsir etmədən öncə başqasını təqsir etmək düzgün deyildir.

Ümreyi-təməttönün hər bir əməlində qəsdi-qürbət niyyəti etmək lazım və vacibdir.

Təqsirdən sonra ehrama görə haram olan 24 əməlin hamısı (başı qırxdırmaq istisna olmaqla) halal olur.

## HƏCCİN QİSMLƏRİ

Həcc üç qismə bölünür:

1. Həcci-təməttö–o kəslərin həccidir ki, ən azı 28 mil, (16 kilometr) Məkkədən uzaqda olsunlar.

2. Həcci-ifrad–eynilə həcci-təməttö kimidir, fəqət fərq burasındadır ki, həcci-təməttödə qurban kəsmək vacibdir, həcci-ifradda isə vacib deyil.

3. Həcci-qiran–bu, həcci-ifraddan onunla fərqlənir ki, həcci-qiranda da qurbanlığı özü ilə gətirməyi lazımdır.

Xatrlatmalıyıq ki, həcci-ifrad və həcci-qiran o kəslər üçündür ki, Məkkənin özündə yaşayırlar.

## HƏCCİ-TƏMƏTTÖNÜN VACİBATI

Həcc təməttönün icrası zamanı 13 əməl vacibdir:

**1. Məkkədə ehram bağlamaq;**

**2. Ərəfatda dayanmaq;**

**3. Məşərül-Həramda dayanmaq;**

**4. Bayram günündə "cəmərеyi-əqəbəyə" (böyük şeytana) daş atmaq;**

**5. Mina dağında qurban kəsmək;**

**6. Minada təqsir etmək (yəni, baş qırxmaq və ya dırnaq tutmaq);**

**7. Kəbəni təvaf etmək (yəni, 7 dəfə dövrə vurmaq);**

**8. İki rükət təvaf namazı qılmaq;**

**9. Səfa və Mərva arasında səy etmək;**

**10. Təvafi-nisa;**

**11. Təvafi-nisanın iki rükət namazı;**

**12. Mina dağına qalmaq (Zil-hiccənin 11, 12-ci gecəsi və bəzi rəvayətlərdə hətta 13-cü gecəsi);**

**13. 11 və 12-ci günü hər üç şeytana daş atmaq.**

## HƏCCİ-TƏMƏTTÖNÜN ƏMƏLLƏRİ

1. Həcci-təməttönün ehramı keyfiyyət baxımından ümrə ehramı kimidir və bu mərasim ümreyi-təməttödən sonra icra olunur.

Bu ehramın miqatı Məkkə şəhəridir, amma Məscidül-Həramda, İbrahim məqamı və Hicri-İsmaildə ehram bağlamağın savabı daha artıqdır.

2. Zil-həccə ayının doqquzuncu günü zöhr namazından gün batana qədər Ərəfat çölündə dayanmaq həcci-təməttönün ikinci əməlidir.

Ərəfat Məkkənin şimalında 24 km. məsafədə yerləşən geniş və hamar bir çöldür. Bura hərəmin yerləşdiyi ərazidən xaricdir.

3. Həcci-təməttönün üçüncü əməli zil-həccə ayının onuncu günü (Qurban bayramı günü) sübh azanından gün çıxana qədər Məşərül-Həramda qalmaqdır. Məşərül-Həram Ərəfatla Minanın arasında yerləşir.

4. Qadınlar, xəstələr, uşaqlar, qocalar və onları müşayət edənlər gecə yarıdan sonra Məşərdən Minaya tərəf hərəkət edə bilərlər.

5. Mina dağı Məkkənin şərq tərəfindən altı kilometr aralıda yerləşib və Məşərül-Həramın başlanğıcına qədər 3525 metrdir.

6. Minada beş əməli yerinə yetirmək vacibdir:

1) Bayram günü şeytana daş atmaq (daş-qalaq etmək);

2) Bayram günü qurban kəsmək;

3) Başın qırxılması və ya tük və dırnaqdan bir az kəsmək;

4) Zil-həccə ayının 11, 12-ci günləri Minada qalmaq;

5) 11, 12-ci günlər şeytana daş atmaq;

7. Şeytana daş atmağın şərtləri:

1) Allahın rizayəti (razılığı) və Onun dərgahına yaxınlaşmaq məqsədi ilə olmalıdır;

2) Daşların sayı yeddi ədəd olmalıdır;
3) Daşlar Hərəmdən götürülməlidir;
4) Mübah olmalıdır;
5) Daşların sütuna dəyməyində yəqinlik hasil etməlidir;
6) Daş atma mərasimi gün çıxandan qüruba qədər yerinə yetirilir. Qadınlar və onları müşayət edənlər gecələr daş ata bilərlər.

8. Daş atmaq barəsində bir neçə mətləb:
1) Daş atmaq vaxtı təharət şərt hesab olunur;
2) İkinci təbəqədən daş atmaq olar;
3) Əgər bu günlərdən biri yaddan çıxmış olarsa, 13-cü günə qədər bu işi yerinə yetirmək olar (yəni daş atmaq olar);

9. Bayram günü Minada yerinə yetirilməsi vacib olan işlərdən biri də qurban kəsməkdir. Qurbanlıq üçün dəvə, inək (öküz), qoyun, keçi kəsmək olar. Əgər bayram günü bunu etməyə müvəffəq olmasa, o zaman 13-cü gün və ya ayın axırına qədər kəsə bilər.

10. Qurban kəsməyin şərtləri budur ki, qurbanlıq sağlam olsun, çox qoca olmasın, eybi olmasın (kor və topal olmasın), çox arıq olmasın, qurban kəsilən dəvənin yaşı beş, inək və keçi iki və qoyun bir ildən az olmasın. Qulağın deşik və ya buynuzun qırıq olmasının eybi yoxdur.

11. Qurban kəsmək ibadət sayılır və Allah dərgahına yaxınlaşmaq məqsədi ilə yerinə yetirilir. Qurban kəsən şəxs qurbanlıq əti üç yerə bölüb bir hissəsini pay verər, ikinci qismətini sədəqə verər və üçüncü qismətini özü yeyə bilər.

12. Kəffarə kimi kəsilən heyvanın ətindən şəxs özü istifadə edə bilməz.

13. Qurban günü Minada üçüncü vacib əməl başı qırxmaq və ya tük və dırnaqdan bir az kəsməkdir. Bu əməldən sonra ər-arvadlıqda cinsi əlaqə, ətir iyləmək və ov ovlamaqdan başqa hər bir şey ona halal olur.

14. Minanın əməllərindən sonra digər 5 vacib əməl bunlardır:
1) Həcc təvafı; 2) Namaz; 3) Səy; 4) Nisa təvafı; 5) Nisa təvafının namazı.
Bu 5 əməlin zil-həccə ayının axırına qədər vaxtı vardır.

Qeyd edirik ki, hacı bu əməlləri Mina mərasimindən sonra yerinə yetirməlidir. Bu qaydadan bəzi şəxslər istisnadır. Bunlardan biri o qadınlardır ki, qorxurlar Minadan sonra heyz olalar və paklanana qədər Məkkədə qalmağa imkanı olmaya. İkinci xəstələr və qocalardır ki, Mina mərasimindən sonra izdihama görə təvaf etmək onlar üçün çətin ola. Bu qisim hacılar Minaya çıxmamışdan əvvəl 5 əməli yerinə yetirərlər və Minada təqsir etdikdən sonra hər bir şey onlara halal olar.

15. Həcci-təməttönün təvaf, namaz, səy əməllərindən sonra ətirli bir şey iyləmək halal olar. Nisa təvafından sonra ər-arvadlıq əlaqəsi halal olar, amma ov etmək nə qədər ki, hərəmdən çıxmayıb, onun üçün haramdır.

16. Nisa təvafını bir neçə gün təxirə salmaq olar.

17. Mina dağında 11 və 12-ci gecələrin tamam yox, yarısını da qalmaq kifayət edər (gecənin əvvəl yarısı və yaxud axır yarısı qalmağın fərqi yoxdur).

18. Mina çölündə qalmamağa bir neçə nəfərə icazə verilir. Onlar aşağıdakılardır: 1) Xəstələr; 2) Onları müşayət edənlər; 3) O kəslər ki, gecənin hamısını Məscidül-Həramda ibadətlə məşğul olurlar.

## HƏCC EHRAMININ MÜSTƏHƏB ƏMƏLLƏRİ (ƏRƏFAT ÇÖLÜNDƏ DAYANMAQDAN ƏVVƏL)

Ehrami-ümrənin icrasında yerinə yetirilən əməlləri ehrami-həccin də icrasında yerinə yetirmək müstəhəbdir.

Zəvvar ehram bağladığı, Məkkədən xaric olduğu və Əbtəhə müşərrəf olduğu məqamda, Mina dağını gördükdə uca səslə desin: “Allahummə iyyakə ərcu və iyyakə ədu. Fəbəlliğni əməli, və əslih li əməli.”

Və ya aramla, cani-dildən Allahı dilində zikr etsin və təsbeh çevirsin.

Elə ki, Minaya çatdı, desin: “Əlhəmdu lillahil-ləzi əqdəməniha saliha fi afiyətin. Və bəlləğəni hazəl-məkan.”

Sonra yenə desin: “Allahummə hazihi Mina və hiyə mimma mənəntə bihi ələyha minəl-mənasiki. Fəəsəlukə ən təmunnə ələyyə bima mənəntə əla ənbiyaik. Fə innəma ənə əbdukə və fi qəbzətik.”

Gecəni Mina dağında qalıb məxsusi əməlləri icra etdikdən sonra, sübh açılan vaxtı Ərəfat çölünə daxil olsun və bu duanı oxusun: “Allahummə iləykə səmədtu, və iyyakətəmədtu və vəchəkə ərədtu. Əsəlukə ən tubarikə li fi rihləti, və ən təqziyə li hacəti və ən təcələni mimmən tubahi bihil-yavmə mən huvə əfzəlu minni.”

## BİR NECƏ VACİB VƏ MÜSTƏHƏBBİ ƏMƏL

1. Yaxşı olar ki, təvafı Həcərül-əsvədə bir qədər qalmış başlayasan, qurtaranda da Həcərül-əsvəd daşını bir az keçdikdən sonra təvafı bitirəsən.

2. Əgər təvaf zamanında müəyyən səbəbə görə (məsələn, camaat namazına görə) hacı təvafı kəsməli olursa, bu halda əgər 4 dövrəni başa vurub, 3 dövrə qalmış olsa, gəldikdən sonra dövrəni (təvafı) başa vura bilər. Yox əgər 3

dövrədən çox qalmış olsa, onda təvaf batil olur. Lazım gəlir ki, təvafı təzədən yerinə yetirsin.

3. Nəzr etmək istisna olmaqla miqata çatmamış mührim olmaq olmaz.

4. Əgər ehram halında bir kəsə kəffarə (qoyun kəsmək) vacib olsa, həccdən qayıtdıqdan sonra qoyunu kəsə bilər.

5. Əgər əldə saat, barmaqda üzük, gözdə eynək zinət məqsədi ilə olmasa, eyb eləməz.

6. Təvaf namazını həm ucadan, həm də alçaqdan qıla bilər.

7. Qadın ehram halında zinət əşyalarını kişilərə, hətta öz ərinə belə göstərə bilməz.

8. Əgər bir şəxs ehram halında öz qadını ilə cima etmiş olsa, onlar gərək Zil-hiccənin 13-cü kecəsini də Minada qalsınlar.

9. Müstəhəbbi təvafda namaz vacib olmadığı kimi, təharət də vacib deyil.

10. Əgər müstəhəbbi təvafda şəkk etmiş olsa, binanı gərək az sayda qoysun.

11. Əgər başqasının yardımı ilə də olsa həccə gedibsə, həcc onun boynundan götürülür.

12. Müstəhəbbi həccə bir neçə nəfərin tərəfindən naib olmaq olar, amma vacibi həccə ancaq bir nəfər tərəfindən naib olmaq olar.

13. Cəməratın (şeytanları daşlamağın) qəzasının zil-hiccə ayının 13-nə qədər vaxtı var, əgər onda yerinə yetirilməzsə, gələn il həcc ziyarətində yerinə yetirə bilər.

14. Ərafat, Mina və Məkkədə kölgədə dayanmaq olar.

15. Qadınlar üzrlü səbəbə görə Cöhfə və Şəcərə məscidlərinin xaricində mührim ola bilərlər.

16. Qadınlar üçün rəmy (şeytana daş atmaq) gecə kifayət edər.

17. Minada oyaq qalmaq gecənin birinci və ya ikinci yarısı kifayət edər.

18. Qadınlara zil-hiccə ayının 10-cu gecəsi sübh, günçıxana qədər Məşərdə dayanmaq vacib deyil.

19. Məscidə daxil olarkən təhiyyət namazı qılmaq müstəhəbdir.

20. Ümreyi-təməttödən sonra həcci-təməttöyə qədər bir neçə şey haramdır:

1) Gül dərmək, yerdən göyərti qopartmaq;

2) Başı dibdən qırxmaq;

3) Ümreyi-müfrədə əncam vermək (yəni, tək ümrə etmək);

4) Məkkədən kənara çıxmaq.

21. Əzandan sonra camaat namazında sükut etmək lazımdır.

22. Məsciddə yemək, siqaret çəkmək, qəh-qəhə ilə gülmək, başqalarını yüksəkdən çağırmaq və bərkdən danışmaq qadağandır.

23. Namaz qılanla onun səcdəyə getdiyi yer arasından keçmək məkruhdur.

24. Həlq və təqsiri əmələ gətirməklə Minada (cinsi əlaqə və xoş ətir qoxulamaqdan başqa) bütün mühərrimat halal olur.

25. Ehram halında qadınlara üzlərini tam örtmək qadağandır.

26. Həccin vacib rüknləri aşağıdakılardan ibarətdir:

1. Niyyət;
2. Ehram;
3. Təvafi-ehram (təvafi-nisadan savayı);
4. Səfa və Mərvə arasında səy;
5. Ərəfat və Məşərdə qalmaq.

27. Həccin rükn olmayan vacibatı bunlardır: Ləbbeyk demək; təvaf namazı; təvafi-nisa; təvafi-nisanın namazı; daş atmaq; qurbanlıq kəsmək; həlq və ya təqsir etmək; Mina çölündə 11 və 12-ci gecəni qalmaq.

28. Əgər ər-arvad, ikisi bir yerdə həccə gediblərsə, Minada qurban kəsərkən gərəkdir ki, kişi arvadından vəkalət alsın.

29. Ümreyi-təməttönün ehramında olarkən yaxşısı budur ki, təvafı çox yubatmasın. Əks halda günaha mürtəkib olar.

30. Həccin müstəhəbbi əməllərindən biri də budur ki, vacib əməllərdən sonra ondan iltimas edənlər üçün təvaf edib, namaz qılsın.

***

İmam Museyi Kazim (əleyhissalam)-dan bir nəfər sual etdi: Mən həccə gedərkən çoxları məndən iltimasi-dua edirlər, lakin təvaf halında bəzilərini unuduram, belə halda mən nə etməliyəm? İmam (əleyhissalam) buyurdu: Bütün dost-aşina və mənsub olduğun ölkənin xalqı tərəfindən bir təvaf edib iki rükət namaz qıl. Belə olan surətdə hər kim səndən soruşsa tam yəqinliklə deyə bilərsən ki, mən səni dua etmişəm və hamınız tərəfindən təvaf etmişəm.

31. Ehramın mühərrimatında (haram olan şeylərində) yalnız cəhalət üzündən ov edilərsə, kəffarəsi vardır.

32. Hərəmə daxil olarkən özünü Allahın lütfündə qərar ver və özünü yox, xalqını düşün.

33. Ehram halında kölgəliyə getmək qadağandır, çünki gərək Məhşərin çətinliyini yadında saxlayasan.

34. İmam Səccad (əleyhissalam) Şibliyə buyurdu: “Miqatda belə niyyət et ki, günah libasını əynindən çıxardıb, itaət libasını geyirsən. Mührim olmaq (ehrama daxil olmaq) məhrəm olmağın rəmzidir.”

35. İmam Sadiq (əleyhissalam) buyurub: “Qadınlar üçün ucadan ləbbeyk demək, Həcərül-əsvədə əl sürtmək müstəhəb deyildir.”

36. Kişilər gərək tikili libas geyməsinlər, çünki ehram halında tikili libas geymək, başqalarından seçilmək kimidir.

37. Qadın ehram halında zinət əşyalarını, hətta öz ərinə belə göstərməməlidir.

38. Ehram halında qardaşlığa adət et və başqalarına göstəriş vermə.

39. Güzgüyə baxma, ta ki, xudbinliyi unudasan.

40. Ətir vurma, ta ki, dünya ləzzətlərinə uymayasan.

41. Yerdən bir göyərti çıxartma ki, təcavüzkarlıq meylini özündən dəf edəsən.

42. Qurbanlıq üçün nəzərdə tutduğun heyvan sağlam və kök olmalıdır, çünki Qiyamət günü onun belində Məhşər ayağına gələcəksən.

43. Elə hərəkət et ki, sanki Məkkədə İbrahimi, Mədinədə Həzrət Mühəmməd (səlləllahu əleyhi və alihi və səlləm)-i görürsən.

Qurbangah düşməndən qisas almaq rəmzidir.

44. Zil-həccə ayının 10-cu gününü bayram et, çünki şeytana qalib gəlmisən.

## QURBANGAH

Həzrət İbrahim (əleyhissalam) oğlu İsmaili buraya (Minaya) gətirdi. O, həyat yoldaşı Hacərə dedi: "Oğlum İsmaili qonaq aparmaq üçün hazır et!"

İbrahim özü ilə bıçaq və ip götürdü. Şeytan birinci dəfə Hacərə vəsvəsə etdi və dedi ki, oğlunu qonaqlığa yox, qurbanlığa aparırlar. Hacər cavab verdi: "Əgər bu Allahın əmridirsə, hətta mən özüm də qurbanam."

İsmail Allahın hökmünə elə təslim idi ki, atasına vəsiyyətində dedi:

1-Mənim əl-ayağımı elə bağla ki, əl-ayaq çalıb səni incitməyim;

2-Bir də ki, məni qurban kəsərkən üzümü torpağa qoy;

3-Üzümə bir pərdə ört ki, atalıq məhəbbəti sənə mane olub Allahın əmrindən saxlamasın;

4-Mənim salamımı anam Hacərə çatdır.

İbrahim (əleyhissalam) belə bir çətin sınaqdan mətanətlə çıxdı ki, müsəlmanlara bildirsin ki, Məkkə və Minada Allahın eşqini duyub, övlad eşqini qəlbindən çıxartmaq lazımdır. Hətta İbrahim (əleyhissalam) özü odda yanmağa razı oldu ki, insanları zülm odundan xilas etsin.

## MƏSCİDÜL-HƏRAMA DAXİL OLMAĞIN QAYDALARI

1. Qüsl etmək;
2. Ayaqyalın, mətanət və vüqarla məscidə qədəm qoymaq;

3. “Bəni-Şeybə” qapısından daxil olmaq (“Babəs-səlam”ın müqabilindədir);

Məscidül-Həramın qapısında bu zikri etmək müstəhəbdir:

“Əssəlamu ələykə əyyuhən-Nəbiyyu və rəhmətullahi və bərəkatuh. Bismillahi və billahi və minəllahi və ma şaəllah. Əssəlamu əla Rəsulillah. Əssəlamu əla İbrahimə xəlilillah, vəlhəmdu lillahi Rəbbil aləmin.”

Məscidül-Hərama daxil olduqdan sonra üzünü Kəbəyə, əllərini yuxarı tutub, aşağıdakı duanı oxusun:

“Allahummə inni əsələkə fi məqami haza. Və bi əvvəli mənasiki, ən təqbələ tovbəti. Və ən tətəcavəzə ən xətiəti və ən təzəə ənni vizri. Əlhəmdu lillahil-ləzi bəlləğəni bəytəhul-Həram.

Allahummə inni əşhədu ənnə haza bəytukəl Həramul-ləzi cəəltəhu məsabətən linnasi və əmnən mübarəkən və hudən lil-aləmin.

Allahummə inni əbdukə, vəl bələdə bələduk. Və əummu taətək. Mutiən li əmrik, raziyən bi qədərik. Əsəlukə məsələtəl fəqir. İləykəl xaifi liuqubətik.

Allahumməftəh li əbvabə rəhmətik. Vəstəmilni bitaətikə və mərzatikə.”

Sonra Kəbə tərəfə xitab edərək söyləsin:

“Əl-həmdu lillahi-ləzi əzzəməki və şərrəfəki və kərrəməki və cəələki məsabətən linnasi və əmnən mubarəkən və hudən lil-aləmin.”

Müstəhəbdir ki, Həcərül-əsvəd daşına yaxınlaşarkən desin:

“Əşhədu ən la ilahə illəllahu. Vəhdəhu, la şərikə ləh. Və ənnə Muhəmmədən əbduhu və Rəsuluhu. Aməntu billahi və kəfərtu bil-cibti vət-tağuti vəllati vəl-uzza və bi ibadətiş-şəytan və bi ibadəti kulli niddin yuda min dunillah.”

## HƏCCİN QƏBULU: İKİ CƏHƏTDƏN

1. Həcc əməlını səhih yerinə yetirmək. Yəni, hər bir müsəlman Həcc ziyarəti zamanı lazımi ayinləri vaxtında və dürüst yerinə yetirsin.

2. Həcc əməlını yerinə yetirərkən ruhən və mənən o qədər huşyar olsun ki, daim özünü Allahın hüzurunda hiss etsin.

## İSLAMİ BİRLİK HAQQINDA BİR NEÇƏ ANLAYIŞ

1. Həcc əməlının mühüm əhəmiyyətlərindən biri: hacı həssas və alicənab bir insan olmaqla İslami vəhdaniyyəti göstərsin. Belə ki, milliyyət və məzhəbindən asılı olmayaraq, yer kürəsinin müxtəlif guşələrindən Allahın evinə qonaq gələn din qardaşları ilə münasibətdə olduqca səmimi və mehriban olsunlar, Quranın və insaniyyətin düşmənlərinə qarşı vahid olub, birləşsinlər.

İmam Sadiq (əleyhissalam) bu barədə buyurub: “Hər kim birinci cərgədə olanlar (əhli sünnə) ilə namaz qılsa, elə bilsin ki, Peyğəmbəri Əkrəmin arxasında duraraq namaz qılır.”

2. Həmsəfərlərinə ehtiram göstərərək onların hüquqlarından qafil olmasınlar. Bu timsalda ki, təvaf və səy vaxtı bir-birinə qarşı həssas olsunlar və lazım gəldikdə bir-birinə yardım etsinlər.

## ŞƏCƏRƏ MƏSCİDİ

## CÖHFƏ MƏSCİDİ

3. Fürsəti qənimət bilib, xətmi-Qurandan qəflətdə olmasınlar.

## MİQAT NƏ DEMƏKDİR?

Həcc və ya ümrə məqsədi ilə Məkkəyə varid olanlar, gərək mührim olalar (ehram libası geyələr). Ehram bağlamaq üçün təyin olunan yerə miqat deyərlər.

Bura müsəlmanlar dünyanın müxtəlif ölkələrindən gəldiklərinə görə miqat 5 yerdə təyin olunmuşdur:

1. “Məscidüş-şəcərə”; Mədinə səmtindən gələnlər üçün təyin olunub.
2. “Cohfə”; Şam tərəfindən gələnlər üçün təyin olunub.
3. “Vadiyi-əqiq”; İraq tərəfdən gələnlər üçündür.
4. “Qərnul-mənazil”; Taif tərəfdən gələnlər üçündür.
5. “Yələmləm”; Yəmən tərəfdən gələnlər üçündür.

Xatırlatmalıyıq ki, bu beş miqat Allahın əmri və Cənabi Cəbrailin göstərişi ilə təyin olunub.

Bunu da nəzərinizə çatdırırıq ki, miqatdan əvvəl (nəzir istisna olmaqla) mührim olmaq caiz deyildir. Üzrlü qadınlar miqatın məscidində hərəkət halında mührim ola bilərlər.

Miqat geniş bir anlayışdır. Hacı dünyəvi əlaqələrdən, evindən, ailəsindən, vilayətindən ayrılıb miqata çatanda öz libaslarından da ayrılır. Bir mənada ölüm libası, kəfən geyir (məhşəri xatırlayır). Digər mənaya görə Allah qonaqlığı üçün Peyğəmbər libası geyir. Allaha o qədər yaxınlaşır ki, Məkkəyə çatanda ona deyilir ki, sən dünyanın hansı bir ölkəsindən gəlmiş olsan da, burada qərib deyilsən. On gündən az qalsan da, namazını tamam qıla bilərsən.

## MƏŞƏRUL-HƏRAM

Zil-hiccə ayının 10-cu gecəsi, gün çıxanadək Məşərul-Həramda qalmaq həcci-təməttönün əməllərindən biridir.

Xatırlatmalıyıq ki, sübh azanından gün çıxana qədər ibadət məqsədi ilə Məşərül-Həramda dayanmaq vacibdir.

Sübh namazını qılandan sonra bu duanı oxumaq müstəhəbdir:

"Allahummə Rəbbəl-Məşəril-Həram, Fukkə rəqəbəti minən-nar. Və əvsi ələyyə min rizqikəl-həlal. Vədrə ənni şərrə fəsəqətil-cinni vəl-ins. Allahummə əntə xəyru mətlubin iləyhi, və xəyru məduvvin və xəyru məsulin. Və likulli vafidin caizəh. Fəcəl caizəti fi movtini haza ən tuqiləni əsrəti və təqəbbələ məzirəti və ən tucavizə ən xətiəti. Summəc-əlit-təqva minəd-dünya zadiyy."

Müstəhəbdir ki, Minada şeytana atmaq üçün istifadə olunacaq xırda daşları Müzdəlifədən yığsınlar və onların sayı 70 ədəddir.

## MİNA DAĞININ MÜSTƏHƏB ƏMƏLLƏRİ

Minanın əməllərindən biri də şeytana daş atmaqdır. Müstəhəbdir ki, daş atanda dəstəmazlı olasan. Və hər daş atanda təkbir
(Allahu Əkbər) deyəsən.

3 şeytana daş atmağın əhkamı:

1. Vacibdir ki, hacıların Minada dayanıb ibadət etdikləri gecənin gündüzləri tərtiblə: cəmərеyi ula, vusta və uqbaya daş atsınlar.

Yaxşı olar ki, cəmərеyi uqbaya daş atarkən arxası qibləyə tərəf, cəmərеyi-ula və cəmərеyi-vustaya daş atarkən üzü qibləyə dayansın və şeytanların hər birinə atdığı daşın sayı ən azı 7 ədəd olsun.

2. Əgər bir kəs rəmyi-cəmərati" (şeytana daş atmağı) tərk etmiş olsa, gərək ertəsi günü qəzasını etsin, yəni o gün ərzində atacağı qədər daş atsın.

3. Qadınlar üçün Cəmərata daş atmaq əməliyyatı müstəhəbdir ki, gecə keçirilsin ta ki, gündüz onlar bu əməldən üzrlü olsunlar.

4. Gündüzlər rəmyi-cəməratdan üzrlü olanlar ondan bir gecə əvvəl və ya bir gecə sonra daş ata bilərlər.

5. Bu daşlar nə çox iri, nə də həddən artıq xırda olmalıdır, o həcmdə olmalıdır ki, ona "xırda daş" deyilsin.

6. Bu xırda daşlar hərəmdən yığılmalı və halal olmalıdır (yəni, başqalarının yığdığı daşlardan istifadə etməməlidir).

Müstəhəbdir ki, daş atıb yerinə qayıtdıqdan sonra bu duanı oxusun: “Allahummə bikə vəsiqtu və ələykə təvəkkəltu. Fənimər-Rəbbu və nəməl-məvla və nimən-nəsir.”

## ZİL-HİCCƏ AYININ DUA VƏ ƏMƏLLƏRİ

1. 10-cu gecənin (Qurban bayramı gecəsinin) duası:

“Ya daiməl-fəzli ələl-bəriyyəti. Ya basitəl-yədəyni bil-əmiyyəti, ya sahibəl-məvahibis-səniyyəti. Səlli əla Muhəmmədin və alihi xəyril-vəra səciyyətən vəğfir ləna ya zəl-ula fi hazihil əşiyyəti.”

2. “Qədir” bayramının əmalı (zil-hiccənin 18-ci günü).

Bu günkü tarixdə Rəsuli-Xuda (səlləllahu əleyhi və alihi və səlləm) axırıncı həccində yüz min hacının iştirakı ilə Qədir-xum vilayətində Həzrəti Əli (əleyhissalam)-ı öz yerinə canişin təyin etmişdir. Bu bayram günündə oruc tutmaq müstəhəbdir.

Yüz dəfə bu duanı oxusun:

“Əlhəmdu lillahil-ləzi cəələ kəmalə dinihi və təmamə nimətihi bi vilayəti Əmiril-mömінin Əliyyibni Əbi Talib (əleyhissalam).”

3. Qardaşlıq əqdi oxumaq.

O əqdin bağlanma keyfiyyəti belədir ki, sağ əlini din qardaşını sağ əlinə verib bu duanı oxusun: “Və əxyəytukə fillahi və safəytukə fillahi və ahədtəllahə və məlaikətəhu və kutubəhu və rusuləhu və ənbiyaəhu vəl əimmətəl-məsuminə ələyhimus-səlam. Əla ənni in kuntu min əhlil-cənnəti vəşşəfaəti və uzinə li biən ədxuləl-cənnətə la ədxuləha illa və əntə məi.” Sonra din qardaşı desin: “qəbiltu”.

Və sonra yenə bu sözlərlə tamamlasın:

“Əsqəttu ənkə cəmiə hüquqil-uxuvvəti ma xələş-şəfaətə vəd-dua vəz-ziyarəti.”

## QURBAN KƏSMƏYİN QAYDALARI

Həcc ziyarəti edən hər bir müsəlmana ehtiyat vacib odur ki, bayram günü (zil-həccənin 10-u) Minada qurban kəssin. Qurban üçün nəzərdə tutulan heyvan–dəvə, öküz və ya qoyun ola bilər. Fəqət qurbanlıq üçün ayrılan bu heyvan halal, həm də kök və sağlam, yəni heç bir xəstəlik və şikəstlik onda olmamalıdır.

Qurban kəsən adam heyvanı üzü qibləyə yerə uzatmalı, özü də heyvanın sağında dayanmalıdır. Qurban kəsmək üçün hazırladığı bıçaq iti və həm də dəmir (poladdan) olmalıdır.

Zibh (yəni Minada qurban kəsmək) əfzəl ibadətlərdən sayılır. Ona görə də zibh edərkən xalis qəlblə niyyət etmək lazımdır və ehtiyat vacib odur ki, Cəməreyi-əqəbəyə daş atandan sonra qurban kəsilsin.

Qurban kəsən adam aşağıdakı duanı oxumalıdır:

"Vəccəhtu vəchiyə lilləzi fətərəssəmavati vəl ərzə, hənifən müslimən və ma ənə minəl-müşrikin. İnnə səlati və nusuki və məhyayə və məmati lillahi Rəbbil-aləmin. La şərikə ləhu və bizalikə umirtu və ənə minəl-müslimin. Allahummə minkə və ləkə bismilahi və billahi vallahu əkbər" deyərək öz qurbanını kəssin. Yox, əgər qeyrisi kəsirsə onda sağ əlini o adamın sağ əlinin üstünə qoyaraq belə desin:

"Allahummə təqəbbəl minni, kəma təqəbbəltə min İbrahimə Xəlilikə və Musa kəlimikə və Mühəmmədin həbibikə, səlləllahu ələyhi və alihi və səlləm."

Minanın müstəhəb əməllərindən biri də odur ki, qurban günü, günorta namazından əvvəl bu təkbirləri oxusun:

"Allahu əkbər, Allahu əkbər, la ilahə illəllahu vəllahu əkbər, Allahu əkbər, Allahu əkbər və lillahil həmd.

Allahu Əkbəru, əla ma hədana, Allahu əkbəru, əla ma rəzəqəna min bəhimətil ənam. Vəl-həmdu lillahi əla ma əblana."

## XİF MƏSCİDİNİN MÜSTƏHƏBBATI

Yaxşı olar ki, hacı namazlarını (istər vacib, istərsə də müstəhəbbi) Xif məscidində qılsın. Bunun üçün də ən münasib məkan Cayeqahi müsəlla Rəsuli Əkrəmdir.

Yüz dəfə "Subhanəllah"

Yüz dəfə "La ilahə illəllah"

Yüz dəfə "Əlhəmdu lillah" desin.

Müstəhəbdir ki, zil-həccənin 13-cü günü–Məkkəyə qayıdacağı gün yola düşməzdən əvvəl bu məsciddə 6 rükət namaz qılsın.

## KƏBEYİ MÜƏZZƏMƏNİ TƏVAF EDƏRKƏN OXUNAN DUALAR

***1-ci dövrənin duası:***

"Allahummə inni əsəlukə bismikəl-ləzi yumşa bihi əla tələlil-mai. Kəma yumşa bihi əla cüdədil-ərz.

Və əsələkə bismikəlləzi yəhtəzzu ləhu ərşukə. Və əsəlukə bismikəlləzi təhtəzzu ləhu əqdamu məlaikətik. Və əsəlukə bismikəlləzi dəakə Musa min canibit-Tur. Fəstəcəbtə ləhu və ələyhi məhəbbətən minkə və əsəlukə bismikəlləzi ğəfərtə bihi li Muhəmmədin səlləllahu ələyhi və alihi ma təqəddəmə min zənbihi və ma təəxxərə və ətməmtə ələyhi nimətəkə. Ən tərzuqəni xəyrəd-dünya vəl axirəh.

(Duanı bitirdikdən sonra öz mətləbini Allahdan dilə.)

***2-ci dövrənin duası:***

Allahummə inni iləykə fəqirun. Və inni xaifun mustəcirun. Fəla tuğəyyir cismi və la tubəddil ismi. Sailukə, fəqirukə, miskinukə bibabikə, fətəsəddəq ələyhi bil-cənnəti. Allahummə əl-bəytu bəytukə, vəl-hərəmu hərəmukə, vəl-əbdu əbdukə. Və haza məqamul-aizi bikəl-mustəciru bikə minən-nar.

Fəətiqni və validəyyə və əhli və vuldi və ixvaniyəl-mumininə minən-nar. Ya Cəvadu, ya Kərim.

***3-cü dövrənin duası:***

Allahummə ədxilnil-cənnətə. Və əcirni minən-nari birəhmətikə. Və afini minəssuqmi və əvsi ələyyə minər-rizqil-həlali. Vədrə ənni şərrə fəsəqətil-cinni vəl-ins. Və şərrə fəsəqətil-ərəbi vəl-əcəm. Ya zəl-mənni vət-təvl. Ya zəl-cudi vəl-kərəm. İnnə əməli zəifun. Fəzaifhu li, və təqəbbəlhu minni. İnnəkə əntəs-səmiul-əlim.

***4-cü dövrənin duası:***

Ya Allahu! Ya vəliyyəl-afiyəh. Və xaliqəl-afiyəh. Və raziqəl-afiyəh. Vəl-munimu bil-afiyəh. Vəl-mutəfəzzilu bil-afiyəh, ələyyə və əla cəmii xəlqik. Ya Rəhmanəd-dünya vəl-axirəh, Və rəhiməhuma, səlli əla Muhəmmədin və ali Muhəmməd. Vərzuqnəl-afiyəh. Və şukrəl-afiyəti bid-dünya vəl axirəh.

Ya ərhəmər-rahimin.

***5-ci dövrənin duası:***

Əlhəmdu lillahilləzi şərrəfəki və əzzəməki Vəlhəmdu lillahilləzi bəəsə Muhəmmədən nəbiyya. Və cəələ Əliyyən İmama. Allahumməhdi ləhu xiyarə xəlqikə və cənnibhu şirarə xəlqik.

Rəbbəna atina fiddunya həsənətən və fil-axirəti həsənətən və qina əzabən-nar.

## KƏBƏNİN GÖRÜNÜŞÜ, HƏCƏRÜL-ƏSVƏD, HİCRİ-İSMAİL VƏ TƏVAFIN HÜDUDLARI

***6-cı dövrənin duası:***

Allahummə əl-bəytu bəytukə vəl-əbdu əbdukə və haza məqamul-aizi bikə minənnar. Allahummə ləkər-ruhu vəl-fərəcu və vəl-afiyəh. Allahummə innə

əməli zəifun fəzaifhu li. Vəğfir li məttələtə ələyhi minni və xəfiyyun əla xəlqik əstəciru billahi minənnar.

***7-ci dövrənin duası:***

Allahummə innə indi əfvacən min xətaya və indəkə əfvacun min rəhmətin və əfvacun min məğfirəh. Ya mənistəcabə li əbğəzi xəlqih. İz qalə Ənzirni ila yovmi yubəsun. İstəcib li. (Öz hacətlərini istə və axırda de:) Allahummə qənnini bima rəzəqtəni və barik li fi ma atəytəni.

## TƏVAF NAMAZININ MÜSTƏHƏBBATI

Təvaf namazını qılarkən müstəhəbdir ki, “Həmd”dən sonra, birinci rükətdə “Tovhid” surəsi, ikinci rükətdə isə “Qul ya əyyuhəl-kafirun” surəsi oxunsun. Namazdan sonra Allaha həmdü-səna edib salavat göndərsin, zikr etsin və namazın qəbul olunmasını Allahdan diləyib belə dua etsin: Allahummə təqəbbəl minni və la təcəlhu axirəl-əhdi minni. Əl-həmdu lillahi bi məhamidihi kulliha əla nəmaihi kulliha. Hətta yəntəhiyəl-həmdu ila ma yuhibbu və yərza. Allahummə səlli əla Muhəmmədin və alihi və təqəbbəl minni və təhhir qəlbi və zəkki əməli.

## SƏYİN MÜSTƏHƏBBATI

Təvaf namazını qılıb Səfa ilə Mərvə arasında səyi (yürüşü) yerinə yetirməmişdən qabaq Zəmzəm suyunun yanına gəlib bir neçə qurtum o sudan içsin və bir az başına, kürəklərinə və sinəsinə tökərək desin:

## MƏQAMİ-İBRAHİM VƏ TƏVAF NAMAZININ QILINDIĞI YER

Allahumməcəlhu ilmən nafiən və rizqən vasia və şifaən min kulli dain və suqmin.

Mərvəyə çatan zaman, dağın təpəsinə qalxaraq Səfada etdiyi əməlləri burada da yerinə yetirsin və müəyyən dualar oxusun.

Yaxşı olar ki, göz yaşları tökərək çoxlu dua oxusun və ağlayaraq bu duanı oxusun:

Allahummə inni əsələkə hüsnəz-zənni bikə əla kulli hal. Və sidqən-niyyəti fit-təvəkküli ələykə.

## “TƏQSİRİ-ÜMRƏ”NİN QAYDASI

Səfa ilə Mərvə arasında yürüşü yerinə yetirdikdən sonra vacibdir ki, hacı saçını qismən qırxsın və dırnağını tutsun.

Münasibdir ki, təqsir vaxtı bu duanı oxusun:

Allahummə ətini bi kulli şərətin nurən yovməl-qiyaməh.

Bunu da xatırlatmaq lazımdır ki, başının tükündən kəsməklə yanaşı, öz saqqalından da bir qədər kəsə bilər, lakin bu məqamda başı dibdən qırxmaq düzgün deyildir.

## ƏRƏFƏ ÇÖLÜNÜN MÜSTƏHƏB ƏMƏLLƏRİ

Zil-həccə ayının 9-cu günü zöhr azanından gün batana qədər Ərəfə çölündə ibadət məqsədi ilə qalmaq həcci-təməttönün vacib əməllərindəndir.

Müstəhəbdir ki, bu müddətdə dəstəmazlı olub müxtəlif dualar oxunsun. Məsələn, yüz dəfə "Allahu əkbər", yüz dəfə "Sübhanəllah", yüz dəfə "Əlhəmdu lillah", yüz dəfə "la ilahə illəllah" və yüz dəfə salavat (Allahummə səlli əla Muhəmmədin və ali Muhəmməd) desin, yüz dəfə "Tovhid" surəsi, yüz dəfə "İnna ənzəlna" surəsi və yüz dəfə "Ayətəl-kürsü"nü oxusun.

Müstəhəbdir ki, aşağıdakı dualar da oxunsun:

1) Əsəlullahə bi ənnəhu huvəllahulləzi la ilahə illa huvəl-məlikul-quddusus-səlamul-muminul-muhəyminul-əzizul-cəbbarul-mutəkəbbir. Subhanəllahi əmma yuşrikun. Huvəllahul-xaliqul-bariul-musəvviru ləhul-əsmaul-husna.

Yusəbbihu ləhu ma fissəmavati vəl-ərzi və huvəl-əzizul-həkim. Allahummə ləkəl-həmdu əla nəmaikəlləti la tuhsa bi ədədin və la tukafəu bi əməlin.

2) Əsəlukə ya Allahu, ya Rəhmanu bi kulli ismin huvə ləkə və əsəlukə bi quvvətikə və qudrətikə və izzətikə və bi cəmii ma əhatə bihi ilmukə və bi ərkanikə kulliha və bi həqqi Rəsulikə sələvatukə ələyhi və alih. Və bismikəl-əkbəril-əkbər. Və bismikəl-əzimil-əzəmil-əzəm. Əlləzi mən dəakə bihi kanə həqqən ələykə ən la təruddəhu və ən tutiyəhu ma səələ. Ən təğfirə li zunubi fi cəmii ilmikə bi.

3) Allahummə fukkəni minənnari Və əvsi ələyyə min rizqikəl-həlalit-təyyib. Vədrə ənni şərrə fəsəqətil-cinni vəl-ins və şərrə fəsəqətil-ərəbi vəl-əcəm. Allahummə inni əbdukə fəla təcəlni min əxyəbi vəfdik. Vərhəm məsiri iləykə minəl-fəccil-əmiq. Allahummə Rəbbəl-məşairi kulliha fukkə rəqəbəti minən-nar. Və əvsi ələyyə min rizqikəl-həlal. Vədrə ənni şərrə fəsəqətil-cinni vəl-ins. Allahummə la təmkur bi, və la tədəni və la təstədricni. Allahummə inni əsəlukə bi hovlikə və cudikə və kərəmikə və fəzlikə və mənnikə ya əsməəs-samiin və ya

əbsərən-nazirin. Və ya əsrəəl-hasibin. Və ya ərhəmər-rahimin. Ən tusəlliyə əla Muhəmmədin və ali Muhəmməd. (Və ən tərzuqəni xəyrəd-dünya vəl-axirəh.)

## MƏKKƏNİN MÜSTƏHƏBB ƏMƏLLƏRİ VƏ VİDA TƏVAFI

1. Minadan Məkkəyə qayıdarkən hacı, şəhərə və Məscidül-Hərama daxil olmazdan əvvəl, müstəhbdir ki, qüsl versin.

2. Məscidül-Hərama varid olarkən Babüs-səlamdan daxil olsun.

## MƏKKEYİ MÜKƏRRƏMƏNİN ƏMƏLLƏRİ

1. Vacib namazları Məscidül-haramda qılmaq.

2. Allahı olduqca çox zikr etmək, özünün Allahın dərgahında müti bir bəndə olduğunu büruzə vermək.

3. Müstəhəbb əməllərdən biri də Məkkədə Quran xətm etməkdir.

4. Kəbeyi-müəzzəməyə tərəf çox baxsın, çünki günahlarının bağışlanmağına səbəb oradır.

5. Bacardığı qədər özü, ata-anası və qohum-qardaşları üçün müstəhəbbi təvaf etsin.

(Əgər ilin günlərinin sayı qədər (365 dəfə) təfaf edə bilsə daha çox savaba yetişər. İmkanı olmayan surətdə 52 dəfə təvaf etsin.))

6. Zəmzəm suyundan içmək.

7. Vida təvafını yerinə yetirmək.

## VİDA TƏVAFI

Məkkədən xaric olmaq qəsdində olan kəslər, müstəhəbdir ki, vida təvafı etsinlər. Və Kəbəni dolanarkən bacardığı qədər salavat zikr etsin və bu duanı oxusun:

Allahummə səlli əla Muhəmmədin əbdukə və Rəsulikə və Nəbiyyikə və Əminikə və Həbibikə və Nəciyyikə və Xiyərətikə və cahədə fi səbilikə, və sədəə bi əmrikə və uziyə fikə və fi cənbikə hətta ətahul-yəqin. Allahuməqlibni muncihən, muflihən, mustəcabən li, bi əfzəlil-bərəkəti vər-rizvani vəl-afiyəti fima yəsəuni, ən ətlubə, ən tutiyəni misləl-ləzi ətəytəhu. Əfzələ mən əbədəkə və təzidəni ələyh.

Allahummə la təcəlhu axirəl-əhdi min bəytik.

Allahummə inni əbdukə vəbnu əbdikə vəbnu əmətik. Həməltəni əla dabbətik və səyərtəni fi biladik, hətta ədxəltəni hərəməkə və əmnəkə. Və qəd kanə fi

husni zənni bikə ən təğfirə li zunubi. Fəin kuntə qəd ğəfərtə zunubi fəzdəd ənni riza. Və qərribni iləykə zulfa, və la tubaidni.

Və in kuntə ləm təğfir li fəminəl-anə fəğfir li qəblə ən təna ən bəytikə dari. Fə haza əvanunsirafi in kuntə qəd əzintə li ğəyrə rağibin ənkə və la ən bəytikə. Və la mustəbdilin bik, və la bihi.

Allahumməhfəzni min bəyni yədəyyə, və ən xəlfi və ən yəmini və ən şimali, hətta tubəlliğəni əhli, fə iza bəlləğtəni əhli, fəkfini məunətə iyali. Fə innəkə vəliyyu zalikə min xəlqikə və minni.

Sonra bir neçə qurtum Zəmzəm suyundan içsin və bu duanı oxusun:

Aibuna, taibuna, abiduna li Rəbbina. Hamiduna ila Rəbbina. Munqəlibuna, rağibuna ila Rəbbina. Raciuna inşaəllah.

## ÜMREYİ-MÜFRƏDƏ NƏDİR?

Ümreyi-müfrədə yeddi əməldən ibarətdir:

1. Ehram;
2. Təvaf;
3. Təvafın namazı;
4. Səfa ilə Mərvə arasında səy;
5. Təqsir;
6. Nisa təvafı;
7. Nisa təvafının namazı;

Ümreyi-müfrədə bir neçə cəhətdən ümreyi-təməttödən fərqlənir:

1. Ümreyi-təməttönü müəyyən aylarda yerinə yetirmək olar. Amma ümreyi-müfrədəni ilin istənilən vaxtlarında yerinə yetirmək olar.
2. Ümreyi-təməttönün ehramı müəyyən miqatlarda bağlanar, müfrədə isə yox.
3. Ümreyi-təməttödə tükü və ya dırnağı tutmaqla ehramdan çıxmaq olar. Başı dibdən qırxmaq haramdır, amma ümreyi-müfrədədə hər ikisi caizdir.
4. Ümreyi-müfrədədə nisa təvafı vacibdir, ümreyi-təməttödə isə vacib deyil, müstəhəbbdir.

Bu ümrəyə ona görə müfrədə deyirlər ki, onun həcci yoxdur.

# BEŞİNCİ FƏSİL

## MÜNACATLAR

**İsmin ilə başladım, ey arizular məzhəri!**
**Ey olan Zatı qəni, ey gəncü-dövlət sərvəri!**
***
**Ey səxavət mənbəyi, ey varlığı icad edən,**
**Ey qədim, mülkü fənasız, ey dəyişməz gövhəri!**
***
**Ey ümumə lütf edib şadlıq səfasın bəxş edən!**
**Ey təbibi-qəlb olan, ey həll edən müşkülləri!**
***
**Tövbə qıldı, bir günah etmişdisə qəlbim mənim,**
**Bilmiş öz səhvü-xətasın, əfvi qıl bu müztəri!**
***
**Qibləgahım, olmaram qul Səndən özgə kimsəyə,**
**Tanrısan, ruzi verənsən, yoxdu Səndən digəri!**
***
**Ən böyük bir rütbəyə yüksəldi Səndən qədrimiz,**
**Səndən oldu qəlbimiz hər gizli sirrin məzhəri!**
***
**Qəlbimi nurunla açdın, nolar ki açsan nitqimi,**
**Verdiyin nemətlər olsun ta ki, dillər əzbəri!**
***
**Nitq verdinsə, gözəl söz söyləmək də lütf qıl,**
**Şerim ilə zahir olsun gizli hikmət zivəri!**
***
**Lütfün əlası-sözün bilməkdədir mənasını,**
**Həmd qıl, vermiş, Füzuli, Həqq sənə bu gövhəri!**

***Füzuli***

***

**Ya Rəbb, həmişə lütfünü et rəhnüma mənə,**
**Ancaq Öz aşinaların et aşina mənə.**
***
**Yox məndən bir əməl Sənə şayistə, ah, əgər**
**Əmalıma görə versə ədlin cəza mənə.**
***
**Həbsi-həvadə qoyma Füzulisifət əsir,**
**Ya Rəbb, hidayət eylə təriqi-fəna mənə.**

**Şirin**

*******

**Günahım çoxdu, ya Rəbbim, başım qalxmaz xəcalətdən,**
**Özün təbibi-rəhmansan, çıxart könlüm zəlalətdən.**

*******

**Üzüm qarə, əlim boşdur, özüm məddahi-Mövlayəm,**
**Mənə qəm guşəsi olmuş cahan eşqü məhəbbətdən.**

*******

**Məni sanma o kəslərdən kim ol kəslər ki, qafildir.**
**Həqiqi aşiqindir, kim tutub rahi-həqiqətdən.**

*******

**Mənə lütf eylədin gövhər, tapılsa gər buna sərraf,**
**Yatıb sərrafi-bazarım, oyanmaz xabi-qəflətdən**

*******

**Kimə göstərdim ol ləli mənə təhqir ilə baxdı**
**Hərə özləlinə aşiq, uzaqlaşmış ibadətdən.**

*******

**Açıb əl, istədim parə "sənə dostam" -deyən kəsdən**
**Nə gördüm?–Başqa aləmdir, xəbərsizdir səxavətdən.**

*******

**Səxavət yox, ibadət yox, necə ümmət qoyar adın?**
**Məgər qorxmazmı o kəslər Qiyamətdə müsibətdən?**

*******

**Cahan rahət, həyat sərbəst, firavanlıqdır hər yanda.**
**Bilə bilməm, nədən insan, riza düşməz bu rahətdən?**

*******

**Salan yox yadına anı, bəla çəkdi bəlakeşlər.**
**Bu gündən ötrü etmişlər fəda canı səlamətdən.**

*******

**Gələndə bir bəla canə, Xudadən istə dərmanın,**
**O dərgaha dəxil düşsən qılar sirab şəfaətdən.**

*******

**Şəfaət istəyir Şirin ümumi-ümmətə ya Rəbb,**
**Olanda məhşəri-kübra, bizi qurtar zəlalətdən!**

## MÜNACAT

**Ey müqəddəs Hərəmi-rəhmətü Rəhman Kəbə,**

**Vey səfayi deli-hüccaci-pərişan Kəbə**
*******
**Şövqi-didar ilə zəvvarlərin ağlarlar,**
**Bağlayan vəqtdə ehrami-ziyarət, Kəbə.**
*******
**Yeddi dəfə dolanar başına pərvanə kimi,**
**Hacılar, sən arada şəmi-məhəbbət, Kəbə.**
*******
**Səndən axır edəcək Mehdiye-azadə zühur,**
**Dolanır çölləri illərdi o Həzrət, Kəbə.**
*******
**Ğəmə düşdün o zaman ki, səni tərk etdi Hüseyn,**
**Qarəpuş olmağına bəsdi bu illət, Kəbə.**
*******
**İndi də Zəmzəm elə ağlır Hüseynin qəminə,**
**Can verəndə ona su olmadı qismət, Kəbə.**
*******

Əfv eylə Allah, əbdi-zəliləm,
Qovma qapından nalan, dəxiləm,
Allah, ya Allah, Allah, ya Allah.
***
Qan ağlaram mən, çoxdur günahım,
Səndən bir ayrı yoxdur pənahım,
Rəhm et, amandır, yox dadixahım,
Allah, ya Allah, Allah, ya Allah.

---

Rəhm eylə, Allah, halım yamandır,
Ət-tövbə, tövbə, Allah amandır,
Solmuş üzarə əşkim rəvandır,
Allah, ya Allah, Allah, ya Allah.
***
Səndən İlahi, şərməndəyəm mən,
Qəlbi qəmilən akəndəyəm mən.
Allah, qapında bir bəndəyəm mən.
Allah, ya Allah, Allah, ya Allah.
***

Mehriban Allah, oldum peşiman,
Sən tut əlimdən, ey Həyyü-Sübhan,
Qəlbim qan oldu, gəl eylə ehsan,
Allah, ya Allah, Allah, ya Allah.

## DUANIN ŞƏRTLƏRİ

Allahın evi–Kəbeyi-müəzzəməni ziyarət etmək arzusunda olan müsəlmanlar səfər əsnasında həmişəkindən daha çox duaya ehtiyac duyurlar.

Biz də səy edirik ki, Hərəmeyndə lazım olan duaları zikr edək.

Dua iki qismdir:

1. Bəziləri öz arzu və istəklərinə çatmaq üçün öz dili ilə, bacardığı qədər və qabiliyyətinə görə Allahın dərgahına dua edir. Bu cür dualara "varid olmayan" (Əhli-beyt əleyhimussalam tərəfindən söylənilməyən) dualar deyilir.

2. Bir çoxları isə xüsusi ləfzlə 14 məsum (əleyhimussalam)-dan gəlib çatan dualarla Allahdan mətləb diləyirlər ki, bunlara da "məsurə" dualar deyilir.

Əlbəttə, "məsurə" duaların savab və fəzilətləri həddən ziyadədir.

İmam Cəfəri Sadiq (əleyhissalam)-dan sual etdilər ki, niyə bizim dualar qəbul olunmur? İmam cavabında buyurur: "Bir kəsə dua edirsiniz ki, onu tanımırsınız."

Həzrət Əli (əleyhissalam)-dan bu barədə sual etdilər: Bir halda ki, Allah-Taala "Məni çağırın, Mən də sizin köməyinizə çatım." buyurub, bəs səbəb nədir ki, biz Allahı çağırırıq, O isə bizə tərəf baxmır.

İmam buyurdu: "Siz Allahı tanıdınız, lakin Onun haqqını əda etmədiniz."

Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) isə buyurub: "Hər kim duasının Allah yanında qəbul olunmasını istəyirsə, gərək qazancı və yediyi çörəyi halal olsun."

İmam Baqir (əleyhissalam) buyurub: "Allah-Taala boynunda xalqın haqqı olan bəndələrin dualarını qəbul etmir."

İmam Sadiq (əleyhissalam) buyurub: "Hər kim qırx möminə dua etsə, duası müstəcab olar."

Allah-Taala Həzrət İsaya buyurdu: "Ey İsa, Mənə elə dua et ki, sanki qəm dəryasına qərq olmusan və fəryadına sənin Rəbbindən başqa heç kim yetişmir."

Duanın şərtlərindən biri də özünü ruhən və qəlbən pak etmək və Allah dərgahına yaxın olmaqdır.

## DUA HAQQINDA İZAHAT

Duanın lüğətdəki mənası çağırmaq deməkdir. Amma müsəlmanların istilahında Allahla razü-niyaz etməkdir. Dua Quran kimi Allahla danışmaqdır, fəqət fərqi ondadır ki, Quran göydən yerə nazil olub, dua isə yerdən göyə ucalır.

İran İslam İnqilabının dahi rəhbəri mərhum İmam Xomeyni əxlaq dərslərinin birində buyurur ki, Quran Allah tərəfindən, işıqlı səmadan bəndələrə nazil olub, dua isə bəndələrin tərəfindən Allahın dərgahına yüksəlir.

Göydən yerə enən və yerdən göyə qalxan kəlam-hər ikisi nəticə etibarı ilə insanın düzgün tərbiyələnməsindən ötrüdür. Hər ikisi də Allahla bəndə arasında əlaqə yaratmaqdır. Quran Allah kəlamıdır, insanlara xitabdır. Dua isə insanların Allaha olan yalvarışıdır. Odur ki, Quran və hədislərə istinad edərək deyə bilərik ki, dua ən gözəl ibadətlərdən biridir, hətta dua ibadətlərin məğzidir.

Dua Allahdan istəməkdir və Allah Öz bəndələrinin sızıltısını sevər. Hədislərdə rəvayət olunur ki, Allah Öz bəndəsinin ahü-naləsini eşidəndə mələklərə deyər ki, onun istəyini verməyə tələsməyin. Qoy bəndəm çox ahü-zar etsin, Mən onun yalvarışlarını sevirəm.

Necə ki, Allah-Taala Öz kitabında buyurur: “Məni çağırın, Mən də sizə cavab verim, duanızı qəbul edim.”

Bundan məqsəd odur ki, Allah Öz bəndəsinin “Ya Rəbb!” fəryadını eşitsin.

Əlbəttə, Allah-Taala bəndənin istəməsi olmadan da, yəni qeydsiz-şərtsiz onun istəyini verməyə qadirdir.

Həm də Allah-Taala bilmək istəyir ki, hansı bəndəsi Onu yada salır və hansı bəndəsi Onu unudub. Allahla razü-niyaz edən bəndələr bu əlaqədə xüsusi bir şirinlik duyurlar.

Dördüncü İmamımız Həzrət Zeynəl-abidin (əleyhissalam) dualarının birində deyir: “Ey Allah! Sən münacatın (əlaqənin) şirinliyini və Səninlə ünsiyyətdə olmağın ləzzətini dostlarına dadızdırırsan.”

Buradan belə nəticə hasil olur ki, Allahın dostlarının ləzzəti təkcə maddi yox, həm də ruhi və mənəvi həzzdir. Bəzi hədislərdə deyilib ki, Allah-Taala qəzəb etdiyi kimsəni duanın şirinliyindən məhrum edər.

“Kumeyl” duası yüksək məzmunlu dualardan biridir. Həzrət Əli (əleyhissalam) bu duanı oxumaqla Allahla əlaqəsini möhkəmləndirər və hər dəfə bu duanı oxuduqca göz yaşı tökərdi.

Arzu edirik ki, Allah-Taala bütün müsəlmanlara duanın şirinliyini nəsib eləsin. Onların ibadət və dualarını qəbul eləsin, inşallah!

Həzrəti Məhəmməd (səlləllahu əleyhi və alihi və səlləm) buyurub: "Dua möminin silahı və dinin sütunudur."

Həmçinin Əhli-Beyt (əleyhimussalam)-dan varid olub ki, böyük Allahın dərgahında ibadətlərin ən yaxşısı və yer üzərində əməllərin ən sevimlisi duadır.

Həzrət Əli (əleyhissalam)-ın haqqında nəql edirlər ki, o Həzrət dua çox oxuyarmış. Belə ki, əshabından biri rəvayət edir ki:

Bir gecə ay işığında, ətrafda olan xurma ağaclarının araxasında kiminsə əyilib-düzəlməyini görərək özümü ona yetirdim və gördüm ki, o şəxs başı səcdədə hönkürtü ilə ağlayır. Bir müddətdən sonra onun səsi kəsildi. Mən onun kim olduğunu bilmək üçün üzü üstə düşmüş bədənini çevirmək istədim. Mən onu mübarək gözlərindən tanıdım. O Həzrət Əli (əleyhissalam) idi. Bir qədər onun başı üstə oturdum, özünə gəlmədiyini görərək, yəqin etdim ki, dünyadan gedib. Mən Həzrət Əli (əleyhissalam)-ın evinə yollandım və onun dünyadan getdiyini Həzrət Fatimə (əleyha salam)-a çatdırdım. Həzrət buyurdu ki, əmim oğlu dünyadan getməyib, O, Allahın qorxusundan o vəziyyətə düşüb.

Allah-Taala buyurur: "Siz, ey müsəlmanlar, heç vaxt duanı tərk etməyin, çünki Haqq tərəfinə yaxınlaşmaq üçün ondan yaxşı vasitə yoxdur."

İmam Cəfər Sadiq (əleyhissalam) buyurur: "Babam Həzrət Əli (əleyhissalam) buyurardı: "Dua oxumaq mömin insan üçün bəlalar qarşısında bir qalxandır. Əgər bir evin qapısını çox döysən axırda üzünə açılar."

Allah-Taala ürəyin istəklərindən agahdır, lakin insanların ehtiyaclarının Onun dərgahında dua ilə istənilməsini sevir.

## QURANDA DUA

Quranda adı çəkilən bəzi peyğəmbərlər və övliyaların təvazökarlıqla etdikləri dualar:

1. Ey bizim Pərvərdigarımız, Sənin hansısa bir əmrini yerinə yetirməyi yaddan çıxarmışıqsa, yaxud bir işdə bizdən xəta baş veribsə, onu bizim üçün günah yazma. Ey Rəbbimiz, bizimlə elə rəftar et ki, keçmişlərimizlə rəftar etmisən, ağır vəzifələri bizim çiynimizə qoyma.

Ey bizim Pərvərdigarımız, yerinə yetirməkdə qüdrət və qüvvəmiz olmayan işi bizə həvalə etmə. Öz lütfünü bizdən əsirgəmə və bizi bağışla, çünki Sən bizim mövlamızsan.

2. Pərvərdigara, mənim ürəyimi geniş, işlərimi asan et. Mənim dilimə lətafət və düzgünlik ver ki, danışığımı dərk etsinlər.

3. Pərvərdigara, hesab çəkəcəyin gündə məni, valideynlərimi və möminləri bağışla!

4. Pərvərdigara, bizi düz yola hidayət etdikdən sonra qəlblərimizi batilə tərəf döndərmə, Öz tərəfindən bizə rəhəmət əta et, çünki Sən bağışlamağı sevirsən.

## DUANIN QƏBUL OLUNMASI ŞƏRTLƏRİ

1. Duanın qəbul olunması şərtlərindən birincisi odur ki, əvvəlcə Allaha həmdü-səna edəsən, sonra Peyğəmbər və onun Əhli-Beytinə salavat deyəsən.
2. Bütün günahlarını nəzərə alıb Allahdan bağışlanmağını istəyəsən.
3. Ümidini bütün bəndələrdən kəsib, yalnız tək və qadir olan Allaha ümid bağlayasan.
4. Təkcə dil və ürək yox, gərək insanın bütün əzaları dua halında olsun.
5. Duanın müstəcab olmağına qətiyyən şübhə edilməsin.
6. Gərək Allahın hökmlərini yerinə yetirməyə əzm edə.
7. Allahı, Onun dərgahına yaxın olan müqəddəs şəxslərə (Peyğəmbər və İmamlara) and verə.
8. Duanın müstəcab olmağında müqəddəs zamanların (Qədr gecəsi, azan vaxtı, iftar vaxtı, cümə gecəsi, Ərəfə günü) mühüm rolu var.
9. Ümumilikdə (bir neçə nəfərlə birgə) edilən duanın təsiri daha güclüdür.
10. Əlləri yuxarı qaldırıb bərkdən dua etmək lazımdır.
11. Dua halında ağlamaq gərəkdir.
12. Dua edən şəxsin yeməyi və geyimi halal olmalıdır.

## DUANIN FAYDALARI

1. Dua edən bəndə Allahla əlaqədə olduğuna görə, Quranın buyurduğu kimi, qəlbə bir sakitlik, aramlıq gətirir və insanı həyəcandan qurtarır.
2. Dua edib Allahı yad etmək, ürəkdə bir nur yaratmaqla insana yeni bir həyat verər.
3. Dua edən şəxs Allahın məhəbbətini qazanar.
4. Dua edən şəxs şeytandan və şəhvətdən uzaq olar.
5. Dua peyğəmbərlərin silahıdır; dua insanların düşmənlərini məğlub edər, özünə isə ruzi yetirər.
6. Dua insanı ruhi xəstəliklərdən xilas edər.

# ALTINCI FƏSİL

## MƏDİNEYİ-MÜNƏVVƏRƏ

Mədinə şəhəri Cəddənin şərqində, Məkkənin isə şimalında yerləşir. Cəddədən 425 km, Məkkədən isə 456 km məsafədə yerləşir. Qədir-Xum vilayəti Cöhfənin yaxınlığındadır.

## MƏDİNƏNİN QISA TARİXİ

Əmaliqə tayfasından olan Yəsrib adlı bir nəfərin yolu indiki Mədinə torpağına düşdü. Orada bir şəhərin bünövrəsini qoydu, adını da öz adı ilə "Yəsrib" adlandırdı.

"Yəsrib" kəlməsinin mənası pis olduğundan, sonralar şəhərin adını dəyişib "Mədinətur-Rəsul" qoydular.

## YƏHUDİ QÖVMÜ

Mədinədə məskunlaşan yəhudilər, tayfa şəklində yaşayan bəni-nəzir, bəni-qəynuqa və bəni-qüreyzə mühacirləri idilər. Onlar Beytül-müqəddəsdən Mədinəyə bu məqsədlə hicrət etmişdilər ki, Peyğəmbəri-İslama beyət etsinlər. Amma cahillikləri üzündən qafil oldular və Peyğəmbəri inkar etdilər.

## MƏDİNEYİ-MÜNƏVVƏRƏ

Həzrət Əli (əleyhissalam) Mədinə şəhəri haqqında belə buyurur: "Məkkə Allahın hərəmi, Mədinə Rəsuli-Xudanın hərəmi, Kufə isə mənim hərəmimdir."

## ZİYARƏTİN FAYDALARI

İmam Baqir (əleyhissalam) buyurub: "Hər kim Peyğəmbərin qəbrini ziyarət etsə, (əvəzində) behişt onundur."

İslam Peyğəmbəri (səlləllahu əleyhi və alihi və səlləm) isə belə buyurur: "Hər kim sağlığımda məni və yaxud ölümümdən sonra qəbrimi ziyarət etsə Qiyamət günü mənimlə bir yerdə olacaqdır."

Ziyarət-bir növ şəhadət məktəbində olanlardan məmnun olmaqdır.

Şəhidlərin qəbrini ümumilikdə ziyarət etmək onlarla həmrəy olmaq deməkdir.

Peyğəmbərin və İmamların məhzərinə yetişmək, onların barigahında olmaq-həcc ziyarətini kamil edər, inşallah.

Mədinəyə və Məscidün-Nəbiyə daxil olmaqdan ötrü qüsl almaq müstəhəbdir. Və müstəhəbdir ki, məscidə daxil olduqda iki rükət təhiyyət (ziyarət) namazı qılasan, həmçinin çalışasan ki, yovmiyyə (gündəlik) namazlarını məsciddə qılasan, çünki Məscidün-Nəbidə qılınan bir rükət namaz, sair məscidlərdə qılınan on min rükət namaza bərabərdir.

## MƏSCİDÜN-NƏBİ

Siz Məscidün-Nəbiyə daxil olduqda, sanki behiştə daxil olursunuz, çünki minbərlə Həzrət Peyğəmbərin evi (hansı ki, qəbri-şərifi həmən yerdə yerləşir) arasında olan məhəl (məsafə) behişt bağlarından biridir.

Bu məscid Əbubəkr, Ömər, Vəlid və Mehdi Abbasi tərəfindən, genişləndirilmişdir.

## MƏSCİDİN ƏZƏMƏTİ

İslamın təzə dirçələn vaxtlarında Peyğəmbəri Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) İslam aləmi üçün mühüm qərarları bu məsciddə qəbul edərdi.

Bu məsciddə Faitmeyi Zəhra xütbə oxumuşdur.

Yeddinci İmam Həzrət Museyi Kazim (ə)-ı bu məsciddən həbsxanaya aparıblar.

İmam Hüseyn (əleyhissalam) Yezidin beyət haqqında yazdığı məktubu bu məsciddə alıb.

Maraqlıdır ki, 900 il bundan əvvəl xaçpərəstlərin bir neçə casusu Mədinə şəhərinə gəlib məscidin yaxınlığında məskunlaşırlar. Gecələr yerin altı ilə tunel qazaraq Həzrətin mütəhhər cismini mərqədi-şərifindən çıxartmaq istəmişlər, lakin onların bu mənfur niyyətləri baş tutmur: nəzarətçilər vaxtında xəbər tutub onları ələ keçirərək qətlə yetirirlər.

## MƏSCİDİN SÜTUNLARI

Məscidün-Nəbidə olan sütunlar 3 növdür: 1. Peyğəmbər zamanında tikilən sütunlar; 2. Dörd xəlifənin dövründə məscidin genişləndirilməsi ilə əlaqədar olaraq tikilən sütunlar; 3. Son zamanlarda tikilən qalan sütunlar.

Peyğəmbər zamanında tikilən sütunlar ağ rəngdədir və onların üzərindəki gözə oxşar naxışla digərlərindən seçilirlər.

Hər sütunun özünə məxsus adı və tarixi vardır.

1. Tövbə sütunu; Əbu Lübabə adlı bir nəfər şəxs, tövbə edərkən özünü bu sütuna bağlamışdı.

2. Ustuvanətül-hərs; bu sütunun yanında Həzrət Əli Rəsuli-Əkrəmə keşik çəkərdi.

3. Ustuvanətül-vüfut; bu yerdə Həzrət Peyğəmbər (əleyhissalam) heyət və nümayəndələrlə görüşərdi.

4. Mühacirlərin sütunu; bu sütuna Ayişə sütunu da deyirlər. Mühacirlər bu sütunun yanına yığışarmışlar.

5. Ustuvanətül-hənnanə; "hənin" kəlməsindən düzələn sözdür ki, nalə çəkmək mənasını verir.

Səbəbi də odur ki, Peyğəmbər (s) xütbə oxuyarkən burada olan xurma ağacına söykənərmiş. İlk minbəri hazır elədikləri zaman Peyğəmbər istədi ki, ağacın dibindən qalxıb, minbərə getsin. O anda xurma ağacından bir nalə eşidildi ki, hamını heyrətə gətirdi. Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) mübarək əlini ağaca çəkdi və buyurdu: "Mən Allahdan istəmişəm ki, səni behişt ağaclarından etsin."

İlk dəfə Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) üçün ağacdan düzəldilmiş və üç pillədən ibarət olan bu minbərin tarixi isə hicrətin 7-ci ilinə təsadüf edir. Sonralar Müaviyə, bu minbəri Şama aparmaq istəmişdi, lakin Mədinə camaatı ona mane olmuşdu.

Qeyd edək ki, xəlifələrin zamanında tikilən sütunlar uzununa olan xət-xət naxışla son zamanlarda tikilən sadə sütunlardan seçilirlər.

## CƏBRAİL QAPISI

Müstəhəbdir ki, Məscidün-Nəbiyə Cəbrail qapısından, yəni Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in xidmətinə yetmək üçün Cəbrəilin nazil olduğu qapıdan daxil olsunlar

## HÜCREYİ-MÜTƏHHƏRƏ

Məscidin cənubi-şərqində "Hücreyi-mütəhhərə" yerləşir ki, onun da uzunluğu 16 m, eni 15 m olmaqla 240 $m^2$ sahəni əhatə edir. Guşələrində olan sütunların üzərində yaşıl günbəz yerləşir ki, qiblə tərəfdən əvvəl Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in qəbri, ondan sonra Əbubəkr və Ömərin qəbri, daha sonra Fatimeyi Zəhra (əleyha salam)-ın evi yerləşir.

## ƏSHABİ-SUFFƏ SƏKİSİ

Məkkə müsəlmanlarının Mədinəyə hicrət etdiyi vaxt şəhər əhlisinin onların hamısını yerləşdirməyə imkanları olmadı. Ənsarlar mühacirlərin bir çoxunu evlərinə aparıb, öz əmlaklarını da onların ixtiyarında qoydular. İş o yerə çatmışdı ki, bir gecə gördülər Əbu Əyyub Ənsari öz ailəsi ilə birlikdə Mədinə küçələrinin birində mənzil salıblar. Soruşdular ki, bura niyə gəlmisiniz? Cavab verdi ki, mən evimi mühacirlərin ixtiyarına vermişəm, yer olmadığından özümüz bayırda qalmalı olduq və buraya gəldik ki, qonaqlar eşikdə qalmasınlar.

Eyni zamanda mühacirlərin bir hissəsi çarəsiz qalaraq, başlarını saxlamaq üçün bir yer və dolanmaq üçün bir məşğuliyyət tapana qədər məscidin bir guşəsində onlara məskunlaşmağa icazə verdilər. Ənsarın onlara göndərdiyi yeməyi öz aralarında bölüb qənaətlə yeyirdilər.

Bilal, Əbuzər, Miqdad əshabi-suffədən hesab olunurdular. Onların suffəyə (səkiyə) mənsub edilmələrinin səbəbi bu idi ki, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in hücrəsinin şimal tərəfində dörd guşəli bir səki vardı ki, məscidin səthindən 20 sm yuxarı idi. Evi olmayan mühacirlər bu yerdə məskunlaşmışdılar.

## MƏSCİDİN MİNARƏLƏRİ

Məscid üçün minarə ucaltmağa ilk dəfə Vəlid ibni Əbdül Məlikin zamanında başlanıb.

## ƏİMMEYİ-BƏQİ

Məsum imamlardan dördü Bəqi qəbiristanında dəfn olunubdur:

1. İmam Həsən Müctəba (əleyhissalam).

O hicrətin 3-cü ilində Ramazan ayının 15-də Mədinə şəhərində doğulub. Atası Həzrət Əli (əleyhissalam) ilə birlikdə "Cəməl", "Siffeyn" və "Nəhrəvan" müharibələrində iştirak edib. Atasının şəhadətindən sonra ona əvvəldə beyət edən İraq camaatı əhdə vəfasız çıxdılar və imamı tək-tənha qoydular. Bu səbəbdən imam hakimiyyətdən kənara çəkilməyə məcbur oldu. O Həzrət hicrətin 41-ci ilində Mədinəyə qayıtdı. On il müddətində şiələrlə əlaqə saxladı, nəhayət 47 yaşında, Müaviyənin təhriki və öz arvadının əli ilə zəhərləndirilərək şəhadətə yetirildi.

İslam Peyğəmbəri (s) buyurub: "Hər kim İmam Həsəni Bəqidə ziyarət etsə, Siratın üstündə onun qorxusu olmaz."

2. İmam Zeynəl-Abidin (əleyhissalam).

Hicrətin 38-ci ili, şəban ayının 5-ində Mədinədə doğulub. O Kərbəla hadisəsində iştirak etdi, amma xəstəliyi üzündən münafiqlərlə döyüşdə iştirak edə bilmədi. Ondan iki əsər yadigar qalıb: "Səhifeyi-Səccadiyyə" (57 duadan ibarətdir) və "Risaleyi-hüquq". 56 yaşında Hişamın təhriki ilə şəhadətə yetirilib.

3. İmam Məhəmməd Baqir (əleyhissalam).

Hicrətin 57-ci ili, rəcəb ayının əvvəlində Mədinədə doğulub. Kərbəla vaqiəsi zamanında onun 4 yaşı vardı. İmaməti dövründə Bəni Üməyyə ilə Bəni Abbas tayfaları arasında müharibə gedirdi. İmam bu münaqişədən istifadə edib, çoxlu şagird yetişdirdi. Elmin dərinliklərinə nüfuz etdiyinə görə, "Baqirul-ülum" (elmləri yaran) ləqəbi almışdı. İslam Peyğəmbəri (s), axırıncı səhabəsi Cabirin vasitəsi ilə İmam Baqir (əleyhissalam)-a salam göndərmişdi. Nəhayət hicrətin 117-ci ili, zil-hiccə ayının 7-sində, 57 yaşında Hişamın göstərişi ilə şəhid edildi.

4. İmam Cəfəri Sadiq (əleyhissalam).

Hicrətin 83-cü ili, Rəbiül-əvvəlin 17-sində Mədinə şəhərində doğulub. O Həzrət də Bəni Üməyyə və Bəni Abbas tayfaları arasında gedən münaqişədən istifadə edib dəyərli bir elmi hövzə təşkil edərək dörd minədək tələbə yetişdirdi ki, hər biri ayrı-ayrılıqda bir müctəhid idi.

İmam Baqir (əleyhissalam)-ın imamətliyi dövründə şiəlik məzhəbinin rəsmi şəkildə əsası qoyuldu.

Hənəfi firqəsinin rəhbəri Əbu Hənifə İmam Sadiq (əleyhissalam) haqqında deyərdi: "Mən Cəfəri Sadiqdən başqa fəqih (İmamiyyə şəriətində: hüquq elminin bilicisi) bir şəxs görmürəm və tanımıram."

İmam Hicrətin 148-ci ili, şəvvəl ayının 25-də, 65 yaşında Mənsurun fitvası ilə şəhadətə yetirildi.

Bəli, bu məsum imamların dördü də Mədinədə, Bəqi qəbiristanlığında uyuyurlar.

## İMAM HƏSƏNİ MÜCTƏBA, İMAM ZEYNÜL-ABİDİN, İMAM BAQİR VƏ İMAM SADİQ (ƏLEYHİMUSSALAM) VƏ ABBAS İBNİ ƏBDÜL-MÜTTƏLİBİN (PEYĞƏMBƏRİN ƏMİSİ) QƏBİRLƏRİ

# BƏQİ QƏBİRİSTANLIĞI VƏ MƏSUM İMAMLARIN PAK MƏZARLARI

## BƏQİ QƏBİRİSTANLIĞININ MÜTƏHHƏR QƏBİRLƏRİ

"Əqidə dəfn olunan dörd məsum imamın qəbrindən savayı, digər iki qəbir də yerləşir.

Bunlardan biri divar tərəfdə yerləşir ki, Fatimə binti Əsədin qəbridir. Bu qəbri həm də zəif rəvayətlərə əsasən Fatimeyi Zəhra (əleyha salam)-a da aid edirlər.

İkinci qəbir isə Həzrət Peyğəmbərin əmisi oğlu ibni Abbasa məxsusdur. Nəzərinizə çatdırırıq ki, ibni Abbas Quran müfəssiri olmaqla, həm də İslamiyyətin təzə dirçələn vaxtlarında Peyğəmbərin yaxın müdafiəçisi idi. O, Osmanın xilafəti dövründə hicrətin 33-cü ilində vəfat edib.

Məsum imamların qəbirlərindən bir qədər qabaqda, sağ tərəfdə Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in 3 qızı-Rüqəyyə, Zeynəb və Ümmü Külsümün qəbirləri yerləşir.

Onlardan sonra Peyğəmbərin zövcələrinin qəbirləri yerləşir (Xədiceyi Kübradan başqa; çünki o, Məkkədəki "Əbu Talib" qəbiristanlığında dəfn olunub).

Əlbəttə, bunu da unutmaq olmaz ki, Həzrət Ümmü Sələmə Xədiceyi Kübradan sonra Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in ən hörmətli qadınlarından biri sayılır. O həm də Həzrət Əli (əleyhissalam)-ın vilayətinin himayətçisi idi. Hicrətin 61-ci ilində vəfat edib.

Ondan sonra, yenə digər bir büqədə[1] Həzrət Əli (əleyhissalam)-ın qardaşı Əqil (vəfatı 61-ci hicri ili) və Abdullah ibni Cəfər (Həzrət Zeynəbin əri) dəfn olunublar.

Onlardan bir az qabaqda, yenə sağ tərəfdə, Peyğəmbərin 18 aylıq övladı İbrahim dəfn olunub. Həzrət, İbrahimin ayrılığından kədərlənər və həzin-həzin

**Phaxdc…**———————————

[1]Büqə-Bəqi qəbiristanında İmamlara məxsus bir hissədir ki, zahiri görkəmi ilə qəbiristanın başqa sahələrindən seçilir.

ağlayaraq buyurardı: "Ürəyim İbrahim üçün yanır, lakin bir söz deyə bilmirəm, çünki Allaha xoş getməz."

Bu yolun sol tərəfində "Ühüd" davasında iştirak edərək şəhid olanlar dəfn olunublar. (Bu həmən İslam mücahidləridir ki, Ühüd davasında döyüşərək yaralanmış və onları müalicə etmək üçün Mədinəyə gətirmişdilər, lakin yaraları ağır olduqlarından və ya onları sağaltmaq mümkün olmadığından burada canlarını tapşırmışlar və Bəqi qəbiristanlığında dəfn olunublar).

"Hürrə" cərəyanının şəhidləri də həmin yerdə dəfn olunublar.

## "HÜRRƏ" HADİSƏSİ HAQQINDA MƏLUMAT

Bu faciə Yezidin 3 illik hakimiyyəti dövründə vaqe olmuşdur. O, hakimiyyətinin 1-ci ilində, bəşər tarixində analoqu olmayan qanlı Kərbəla faciəsini törətdi. 2-ci il Mədinədə Kərbəla hadisəsinə etiraz əlaməti olaraq xalq ayağa qalxdı. Yezid qoşun göndərərək bu qiyamı yatızdırmaq üçün çoxlu günahsız insanların qanlarını axıtdı. Burada haqq-ədalət uğrunda qurban gedənlərdən 80 nəfəri Peyğəmbər səhabələri, o cümlədən 700 nəfər də mühacir və ənsar övladları idilər.

Yezid məlun hakimiyyətinin 3-cü ilində daha bir cinayət edərək, Məscidül-Hərama pənah aparmış Abdullah ibni Zübeyri ələ keçirtmək üçün Kəbə evini oda çəkdi, lakin elə bu zamanda istəyinə nail olmayıb özü Cəhənnəmə vasil oldu.

Bəqi qəbiristanının axırında, sağ tərəfdə Osman ibni Məzun (Peyğəmbərin səhabəsi və ya 3-cü xəlifə Osman ibni Əfvan) dəfn olunub.

Ondan bir az qabaqda, sol tərəfdə Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in süd anası Həlimeyi-Sədiyyə dəfn olunub. O mehriban və çox qayğıkeş bir qadın idi. Həzrət onun xatirini çox istəyərdi. İstər sağlığında, istərsə də vəfatından sonra onu hörmət və ehtiramla yad edərdi.

Qəbiristanlığın lap axırındakı qəbir isə bir ehtimala görə Peyğəmbərin qızı Fatimeyi Zəhra (əleyha salam)-ın, digər ehtimala görə Fatimə binti Əsədin qəbridir.

Bəqi qəbiristanlığına daxil olarkən sol tərəfə bir yol ayrılır. Bu yolun sol tərəfində Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in bibiləri Atikə və Səfiyyə dəfn olunublar. (Səfiyyə İslamın şücaətli qadınlarından biri idi. O, "Əzhab" döyüşündə bir yəhudi casusunu qətlə yetirmişdi. Özü isə hicrətin 20-ci ilində 73 yaşında vəfat edib.)

Onlardan bir az qabaqda, yenə sol tərəfdə Həzrət Əbül-fəzlil-Abbasın anası Həzrət Ümmül-Bəninin qəbri yerləşir.

İmam Cəfər Sadiq (əleyhissalam)-ın böyük oğlu İsmail də orada dəfn olunub.

İmam Sadiq (əleyhissalam)-dan sonra şiələrin bir qismi bir imam kimi İsmailə etiqad bəsləyir, "İsmailiyyə" adı ilə tanınırdılar. Hansı ki, İsmailin özü qardaşı İmam Museyi Kazim (əleyhissalam)-ın imamətliyini qəbul etmişdi və bir imam kimi onun ehtiramını saxlayırdı.

Bəqi qəbiristanlığında dəfn olunan digər müsəlmanlar da İslamın görkəmli və ləyaqətli şəxsləri idilər. O cümlədən Malik Əştər, Miqdad, Məhəmməd Hənəfiyyə, Səd ibni Məaz, Əbu Əyyub Ənsari (Mədinədə Peyğəmbəri öz evində qonaq saxlayan), Şəhrəbanu (İmam Hüseyn (əleyhissalam)-ın həyat yoldaşı) burada dəfn olunublar.

Həmçinin bir rəvayətə görə əshabdan 10 min nəfər bu qəbiristanlıqda dəfn olunublar.

Cabir ibni Abdullah Ənsari də burada dəfn olunub. O, hicrətdən 15 il əvvəl Mədində doğulub. Atası Abdullah "Ühüd" davasında şəhid olmuşdu. Özü isə Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) Mədinəyə daxil olmamış, artıq İslamı qəbul etmişdi. Həmişə Peyğəmbərlə yanaşı olardı. İslam yolunda aparılan müharibələrin 19-da iştirak edərək rəşadət göstərdi. Həmçinin Kərbəlada İmam Hüseyn (əleyhissalam)-ın qəbrini ziyarət edən birinci şəxs idi. (96 il ömür sürmüşdü.) Allah ona o qədər ömr bəxş etdi ki, Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in salamını İmam Baqir (əleyhissalam)-a çatdırdı və Hicrətin 78-ci ilində Mədinədə vəfat etdi.

Rəvayətə görə Həzrət Peyğəmbərin atası Abdullah Mədinədə təqribən "Məscidün-Nəbi"nin "Babüs-səlam" qapısı ilə üzbəüz dəfn olunub. Həzrət Abdullah Şam səfərindən qayıtdıqdan sonra, öz qohum-əqrəbaları ilə görüşmək məqsədi ilə Mədinəyə gəlir və Həzrət Məhəmmədəl-Müstəfa dünyaya gəlməmiş, özü vəfat edir.

## "ŞÜHƏDAYİ-ÜHÜD" QƏBİRİSTANLIĞI

Hicrətin üçüncü ilində, Mədinə şəhərinin şimalında yerləşən "Ühüd" dağının ətəyində müsəlmanlarla kafirlər arasında qanlı döyüş başlayır. İlk əvvəl müsəlmanlar qalib gəlirdilər. Lakin sonrakı mərhələdə İslam qoşununda özbaşınalıq yarandı, bəzi müsəlmanlar Peyğəmbərin əmrindən çıxaraq itaətsizlik etdilər ki, bunun da axır-aqibəti çox acınacaqlı oldu. Belə ki, 70-dən çox müsəlman bu müharibədə şəhid oldu. Həzrət Həmzə Seyyidüş-Şühəda, Müsəb ibni Ümeyr və Abdullah Cəhş (Həzrət Həmzənin bacısı oğlu) "Ühüd" döyüşü şəhidlərindəndir və onların hamısı "Ühüd" qəbiristanlığında dəfn olunublar.

Bu şəhidlərin qəbirlərini ziyarət etmək Mədinənin müstəhəb əməllərindən biri sayılır.

Rəsuli-Əkrəm Nəbiyyi-möhtərəm (səlləllahu əleyhi və alihi və səlləm) buyurub: “Hər kim məni ziyarət etsə, lakin əmim Həmzəni ziyarət etməsə o şəxs mənə cəfa etmiş kimi olur.”

O Həzrətin həm özü, həm də qızı Fatimeyi Zəhra (əleyha salam) “Ühüd” qəbiristanlığına gedib şəhidlərin məzarını ziyarət edərdilər.

1. Ühüd dağı.

Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) buyurub: “Ühüd elə bir dağdır ki, bizi sevir, biz də onu sevirik.”

Bu dağ Mədinənin şimal tərəfində qərar tutub. Şərqlə qərb arası 6 km uzunluğunda bir ərazini əhatə edir. “Ühüd” ərəbcə “əhəd” sözündən alınmışdır, tək-tənha mənasını verir. Ətrafındakı dağlardan ayrı, tək-tənha olduğuna görə belə adlandırılmışdır. Bu dağ, İslamın təzə bərqərar olduğu vaxtlarında baş verən çox mühüm bir müharibənin ibrətamiz səhifələrini özündə əks etdirir.

2. Kafirlərin müsəlmanlarla apardığı “Bədr” müharibəsindəki ağır məğlubiyyətlərindən sonra, bir il müddətində, müsəlmanlara yeni bir qüvvə ilə həmlə etsinlər deyə, onlara qarşı canlı qüvvə toplamağa başladılar. Peyğəmbərin əmisi Abbas, ona yazdığı naməsində düşmənlərin bu məkrli niyyətlərini xəbər vermişdi. Həzrət bu xəbərdarlıqdan sonra müsəlmanları məşvərət üçün məscidə yığdı. Bu yığıncaqda ağsaqqal müsəlmanların rəyləri belə idi ki, Mədinə şəhərinin daxilində düşmənə müqavimət göstərsinlər, cavanların fikirləri isə bu idi ki, Mədinədən kənarda düşmənin hücumunun qarşısını alsınlar. Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) ağsaqqalların rəyini bəyənmişdi, fəqət cavanların xətrinə dəyməsin deyə və onlarla döyüşdən əvvəl ruh düşkünlüyü yaratmamaqdan ötrü cavanların qərarını qəbul etməli oldu. Belə qərara gəldilər ki, şəhərdən kənarda düşmənlərin həmləsini dəf etsinlər.

3. Düşmənin canlı qüvvəsi 4 min nəfər, müsəlmanların isə ordusu əvvəlcə min nəfərdən ibarət idi, lakin Rəsuli Əkrəm (səlləllahu əleyhi və alihi və səlləm) münafiqlərin 300 nəfərdən ibarət qoşunundan imtina etdi. Bu münafiqlər Abdullah ibni Übəyyin başçılığı ilə müsəlmanların sırasını tərk etməli oldular. Çünki Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm)-in buyuruğu belə idi ki: “Müşriklərlə vuruşda münafiqlərə bel bağlamaq, onların köməyinə arxalanmaq olmaz.”

4. Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) Abdullah ibni Cübeyrin sərkərdəliyi ilə 50 nəfərdən ibarət bir dəstəni Ühüddə iki dağ arasında yerləşdirib buyurdu: “Biz əgər düşməni Məkkəyə qədər qovsaq belə, siz öz istehkamınızı tərk etməyin.”

Müsəlmanlar ilk həmlədə düşmənə ağır zərbə endirdilər, lakin İslam əsgərlərindən 40 nəfəri qənimət toplamaq məqsədi ilə Peyğəmbərin göstərişinə əməl etməyərək öz istehkamlarını tərk etdilər. Vəziyyəti belə görən Xalid ibni Vəlid 200 nəfərlə arxadan həmlə edərək müsəlmanları ağır itki ilə geri çəkilməyə məcbur etdi. Bir neçə nəfərin səriştəsizliyi və tamahı ucbatından bu döyüşdə müsəlmanlardan 70 nəfəri şəhid oldu, xeyli hissəsi də yaralandı.

5. “Bədr” müharibəsində müsəlmanlar müşriklərə qələbə çalıb Qüreyşin böyük sərkərdələrindən 3 nəfəri qətlə yetirdiklərinə görə, Əbu Süfyanın arvadı Hində bərk hiddətlənmişdi, daima Peyğəmbərdən onların qisasını almaq istəyirdi.

